Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 46 (6139) 5 dekabr 2025-ci il | Qiyməti 40 qəpik

## SƏN NƏ İSTƏYİRSƏN, RAMİZ MEHDİYEV?!



**Bir Meksika filmi var, çox maraqlı siyasi bir filmdi, Meksikanın azadlığına həsr olunub. İki qəhrəmanı var, biri xalq hərəkatından gəlib, oxuyub-yazmağı da bilmir, biri isə generaldı. Mübarizələri Meksikanın azadlığı ilə nəticələnir. İndi bir məsələ qalıb - kim prezident olsun? Xalq hərəkatından gələn generala deyir ki, mən oxuyub-yazmağı bilmirəm, sən prezident ol. General da yaşlanıb, gülür və deyir:**

**- Mənim arzum Meksikanın azad olması idi, oldu. Day mən qocalmışam, gedib kəndimizdə yaşamaq, inək sağmaq, qarğıdalı əkmək, nəvələrimlə oynamaq istəyirəm.**

**İndi yaşının bu çağında Ramiz Mehdiyev hər rayonda tikdirdiyi villaların həyətində gedib mer-meyvə ağacı əkməkdənsə...**

**... jurnalist Etibar Hüseynov Mehdiyevin Şabranda tikdirtdiyi villasından bir reportaj hazırlamışdı. Fikir verdinizsə çox böyük bir həyət idi. Və bütün həyətə də üzlük daşlar döşənmişdi. Bir dənə də ağac yoxuydu. Həyət helikopter meydançasına oxşayırdı, amma deyəsən, gözlədiyi helikopter gəlib çıxmadı...**

**Bax:səh-2**

## "Bakı vurulan AZAL təyyarəsi ilə bağlı Moskvadan suallarına cavab alıb"



**Azərbaycan Düşənbədə Rusiyadan 2024-cü ilin dekabrında AZAL aviaşirkətinin Qroznı üzərində vurulan təyyarəsi ilə bağlı suallarına cavab alıb.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Brüsseldə "EU Today" və bir qrup jurnalistə müsahibəsində bildirib. H.Hacıyev qeyd edib ki, hadisədən dərhal sonra "müəyyən anlaşılmazlıq" və "emosiyalar" yaranıb, lakin Bakının narahatlıqları Duşənbədə növbəti görüşdə (Azərbaycan və Rusiya liderləri - red.) müzakirə edilib.

"Azərbaycan Rusiyadan AZAL aviaşirkətinin vurulan təyyarəsinə görə rəsmi olaraq üzr istənilməsini, hərtərəfli araşdırmanın aparılmasını, günahkarların məsuliyyətə cəlb edilməsini və kompensasiya ödənilməsini gözləyirdi. Hazırda biz anlaşılmazlıqlar səhifəsini çevirmişik və iki ölkə arasında normal qonşuluq münasibətlərini davam etdirəcəyik", - o əlavə edib.

## Polis erkən nikah və məişət zorakılığına qarşı tədbirləri davam etdirir



**Polis əməkdaşları tərəfindən əhali arasında hüquqi maarifləndirmənin gücləndirilməsi məqsədilə erkən nikahın fəsadları və məişət zorakılığına qarşı mübarizə mövzularında tədbirlər ardıcıl şəkildə davam etdirilir. Adalet.az xəbər verir ki, DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşları Şirvan, Hacıqabul, Cəlilabad, Göyçay, Göygöl, Şabran, İsmayıllı və Füzuli şəhər və rayonlarında ictimai yerlərdə vətəndaşlarla görüşlər keçirib, geniş izahat və məlumatlandırma işləri aparıblar.**

Polis əməkdaşları vətəndaşlara erkən nikahların qanunvericiliklə qadağan olunduğunu və belə hallara yol verən şəxslərin məsuliyyət daşıdığını bildirib. Eyni zamanda, məişət zorakılığı ilə bağlı müdafiə mexanizmləri, müraciət qaydaları və zərərçəkmiş şəxslər üçün mövcud yardım imkanları barədə ətraflı məlumat verilib.

Tədbirlər zamanı maarifləndirici bukletlər paylanıb, bu cür görüşlərin cəmiyyətdə hüquqi məlumatlılığın artırılmasına və risklərin vaxtında qarşısının alınmasına mühüm töhfə verdiyi sakinlərin diqqətinə çatdırılıb.

## "AZƏRBAYCAN" QƏZETİNİN 10.000-Cİ NÖMRƏSİ



**Yeganə dövlət qəzeti olan "Azərbaycan" qəzeti yarandığı gündən bəri dövlətçiliyimizin keşiyində dayanıb və respublikada ən çox oxunan mətbu orqanlardan biri və birincisidir. Bu günlərdə qəzetin 10.000-ci nömrəsi işıq üzü görüb. Bu münasibətlə qəzetin baş redaktoru, görkəmli jurnalist Bəxtiyar Sadıqov başda olmaqla bütün kollektivi ürəkdən təbrik edir və yeni-yeni uğurlar arzulayırıq.**

**Hörmətlə:**
**Aqil ABBAS,**
**yazıçı, millət vəkili**

## ATƏT Minsk prosesi başa çatdı




**ATƏT Minsk prosesi və onunla əlaqəli strukturların bağlanmasını başa çatdırıb.**

Adalet.az-ın məlumatına görə, bu barədə ATƏT-in bəyanatında deyilir.

## AFFA-nın TƏRLAN ƏHMƏDOVLA DÜŞMƏNÇİLİYİ



**Tərlan Əhmədov ölkəmizin ən bacarıqlı, təcrübəli, sözünün sahibi olan bir məşqçisidir. Zaman-zaman müəyyən komandaları sıfır xalla axırıncı yerdən götürüb və sonda mükafatçılar sırasına çıxarıb. Amma nədənsə xeyli zamandır Tərlan Əhmədov işsiz-gücsüz gəzir.**

AFFA isə "Neftçi"yə altı aydan bir xarici məşqçi tapıb gətirir. Samir Abbasovu da işləməyə qoymadılar. İndi yenə də Azərbaycan futbolundan xəbərsiz, Azərbaycan mentalitetindən xəbərsiz, futbolçularımızı tanımayan əcnəbi axtarışındadır. Yəqin ki, bu günlərdə gətirəcəklər.

Bütün sosial şəbəkələrdə "Neftçi"nin azarkeşləri və fanatları yazır ki, komandanı bu vəziyyətdən yalnız Tərlan Əhmədov çıxara bilər. Amma nədənsə AFFA rəhbərliyi ya bu şərhləri oxumur, sosial şəbəkələri izləmir, ya da Tərlan Əhmədovla düşmənçiliyi var.

## 2026-cı ilin bayram günləri



**2026-cı il üçün Novruz, Ramazan və Qurban bayramları günləri müəyyən edilib.**

Adalet.az xəbər verir ki, Nazirlər Kabineti bu barədə qərar verib. 2026-cı il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı, martın 20, 21-i Ramazan bayramı, mayın 27, 28-i Qurban bayramı günləri müəyyən edilib. Həmin günlər iş günü hesab edilmir.

## GÜNÜN LƏTİFƏSİ

Cavan tərbiyəçi otağa kompyüter gətirir. Çətinliklə əyilib onu yerə qoyub uşaqlardan soruşur:

**- Uşaqlar, deyin görüm, otaqda neçə kompyüter var?**

- Bir!

**- Düzdür, - tərbiyəçi çox çətinliklə ikinci sonra isə üçüncü kompyüteri gətirir:**

**- İndi neçə kompyüter oldu?**

Bu vaxt müdirə otağa gəlib soruşur:

**- Nə edirsən?**

**- Uşaqlara üçə qədər saymaq öyrədirəm!**

- Biz həmişə bunu alma ilə öyrədirik. Elə bil bunu sən də eləyə bilərdin!

- Axı kitabda kompyüter yazılıb.

**- Kitabın növbəti səhifəsində 10-a qədər saymağı avtobuslarla öyrədiblər. Ümidvaram otağa avtobus gətirməyə hazırlaşmırsan.**

# Prezident "Dövlət xidmətləri haqqında" Qanunu imzalayıb



**Prezident İlham Əliyev "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının Qanununu təsdiqləyib.**

Sənədə əsasən qanun dövlət xidmətləri sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir, həmçinin dövlət xidmətlərinin göstərilməsi sahəsində münasibətləri tənzimləyir.

# "AzerGold" QSC-nin Müşahidə Şurasının tərkibi dəyişdirilib

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibində dəyişiklik eidlib.**

Bu, Prezident İlham Əliyevin "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Sərəncama etdiyi dəyişiklikdə öz əksini tapıb.

Dəyişikliyə əsasən, Müşahidə Şurasının üzvü - Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyə şöbəsinin müdiri Vüqar Məcidli İnvestisiya layihələrinin və infrastrukturunun maliyyəsi şöbəsinin müdiri Mehman İsmayılovla, Azərbaycan İnvestisiya Holdinqinin Aktivlərin idarə olunması departamentinin Hasilat sənayesi və energetika şöbəsinin müdiri Rəşad İsmayılov isə Holdinqinin Baş icraçı direktorunun müavini Əli Cəfərovla əvəzlənib.

# İlham Əliyev Birləşmiş Krallığın müdafiə üzrə dövlət nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə üzrə dövlət naziri Lord Vernon Koakeri qəbul edib.**

Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu bildirən qonaq ilk növbədə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin salamlarını dövlətimizin başçısına çatdırdı. Lord Vernon Koaker ölkələrimiz arasında dostluq və etimada əsaslanan münasibətləri qeyd edərək əlaqələrimizin strateji tərəfdaşlıq müstəvisində inkişaf etdirilməsində maraqlı olduqlarını vurğuladı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Kir Starmerin COP29-da iştirakını və onunla görüşünü məmnunluqla xatırladı.

İkitərəfli münasibətlərimizin zəngin tarixinin olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın enerji sektorundan başladığını və daha sonra bir çox sahələri əhatə etdiyini vurğuladı. Prezident İlham Əliyev ticarət, investisiya və digər sahələrdə əməkdaşlığı daha da genişləndirmək üçün yaxşı imkanların olduğunu dedi. Dövlətimizin başçısı hazırda ölkələrimiz arasında müdafiə sənayesi sahəsində əməkdaşlıqla bağlı yeni səhifənin açılmasına toxunaraq, bunu qarşılıqlı etimadın göstəricisi kimi qiymətləndirdi.

Qonaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəli aparılması istiqamətində bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirərək, bütün bunların tarixi əhəmiyyət daşıdığını vurğuladı və bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi roluna toxundu. Dövlətimizin başçısı sülh gündəliyinin təşəbbüskarının məhz Azərbaycan olduğunu dedi və onun irəli aparılması üçün ölkəmizin bundan sonra da səylərini davam etdirəcəyini vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# 2026-cı ilin dövlət büdcəsi ikinci oxunuşda təsdiqləndi

**"Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisdə ikinci oxunuşda qəbul edilib. Adalet.az xəbər verir ki, qanun layihəsi parlamentin plenar iclasında müzakirəyə çıxarılıb.**

Məlumat üçün bildirək ki, 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38609,0 milyon manat proqnozlaşdırılır ki, bu da 2025-ci ilin proqnozu ilə müqayisədə 253,0 milyon manat və yaxud 0,7 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 1447,2 milyon manat və yaxud 3,9 faiz çoxdur. Dövlət büdcəsinin xərcləri 41703,6 milyon manat proqnozlaşdırılır ki, bu da 2025-ci ilin proqnozu ilə müqayisədə 296,0 milyon manat və yaxud 0,7 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 3990,0 milyon manat və yaxud 10,6 faiz çoxdur.

Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3094,6 milyon manat və ya ÜDM-in 2,3 faiz səviyyəsində proqnozlaşdırılır.

### *2026-cı il üçün dövlət büdcəsinin gəlirləri*

2026-cı il dövlət büdcəsinin gəlirləri 38609,0 milyon manat məbləğində nəzərdə tutulur ki, bu da ÜDM-in 28,8 faizi həcmində olmaqla, 2025-ci ilin proqnoz göstəricisi ilə müqayisədə 253,0 milyon manat və yaxud 0,7 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 1447,2 milyon manat və yaxud 3,9 faiz çoxdur. 2022-ci illə müqayisədə 2026-cı ildə dövlət büdcəsinin gəlirləri 7929,4 milyon manat və ya 25,8 faiz artıb. Dövlət Neft Fondundan dövlət büdcəsinə proqnozlaşdırılan transfert çıxılmaqla dövlət büdcəsinin gəlirləri 25774,0 milyon manat nəzərdə tutulur ki, bu da 2025- ci ilin müvafiq göstəricisi ilə müqayisədə 1899,0 milyon manat və ya 8,0 faiz, 2024-cü ilin icrası ilə müqayisədə 1393,2 milyon manat və ya 5,7 faiz çoxdur. Dövlət Neft Fondunun dövlət büdcəsinə transfertinin məbləği 2025-ci ilin səviyyəsindən 1646,0 milyon manat və ya 11,4 faiz az proqnozlaşdırılır. 2026-cı il üzrə proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin 42,6 faizi və ya 16435,0 milyon manatı neft-qaz sektorunun, 57,4 faizi və ya 22174,0 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşür. 2025-ci il dövlət büdcəsinin proqnoz göstəricisi ilə müqayisədə neft-qaz sektorunun gəlirləri (Dövlət Neft Fondundan transfert daxil olmaqla) 1876,0 milyon manat və ya 10,2 faiz az, qeyri-neft-qaz sektorunun gəlirləri isə 2129,0 milyon manat və ya 10,6 faiz çox olacaq. 2024-cü ilin icrası ilə müqayisədə neft-qaz sektorunun gəlirləri 1126,6 milyon manat və ya 6,4 faiz az, qeyri-neft-qaz sektorunun gəlirləri isə 2573,8 milyon manat və ya 13,1 faiz çox proqnozlaşdırılır.



### *2026-cı il üçün dövlət büdcəsinin xərcləri*

2026-cı il dövlət büdcəsinin xərcləri 41703,6 milyon manat nəzərdə tutulur ki, bu da 2025-ci illə müqayisədə 296,0 milyon manat və ya 0,7 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 3990,0 milyon manat və ya 10,6 faiz çoxdur. Dövlət büdcəsi xərclərinin ÜDM-də xüsusi çəkisi 31,1 faiz təşkil edəcək. 2022-ci illə müqayisədə 2026-cı ildə dövlət büdcəsinin xərcləri 9639,0 milyon manat və ya 30,1 faiz artıb. Növbəti ilin dövlət büdcəsi xərclərinin strukturunda cari xərclər 60,3 faiz və ya 25161,2 milyon manat (2025-ci illə müqayisədə 407,3 milyon manat və ya 1,6 faiz, 2024-cü ilin icrasına nisbətən 3817,2 milyon manat və ya 17,9 faiz çox), əsaslı xərclər 33,8 faiz və ya 14084,8 milyon manat, dövlət borcuna xidmətlə bağlı xərclər 5,9 faiz və ya 2457,6 milyon manat (2025-ci illə müqayisədə 58,0 milyon manat və ya 2,4 faiz, 2024-cü ilin icrasına nisbətən 1162,0 milyon manat və ya 89,7 faiz çox) təşkil edəcək. 2026-cı ilin dövlət büdcəsinin cari xərclərinin 88,1 faizi qeyri-neft-qaz sektoru üzrə daxilolmaların hesabına qarşılanacaq ki, bu da 2025-ci illə müqayisədə 7,1 faiz-bənd çoxdur. 2026-cı il dövlət büdcəsində əməyin ödənişi xərclərinə 10247,6 milyon manat (2025-ci illə müqayisədə 524,7 milyon manat və ya 5,4 faiz çox) və ya xərclərin 24,6 faizi həcmində, malların (işlərin və xidmətlərin) satın alınmasına 7038,5 milyon manat (2025-ci illə müqayisədə 1529,1 milyon manat və ya 27,8 faiz çox) və ya xərclərin 16,9 faizi həcmində, faizlər üzrə ödənişlərə 1380,6 milyon manat (2025-ci illə müqayisədə 80,6 milyon manat və ya 6,2 faiz çox) və ya xərclərin 3,3 faizi həcmində, subsidiyaların ödənilməsinə 1071,4 milyon manat və ya xərclərin 2,6 faizi həcmində, qrantlar və digər ödənişlərə 3308,1 milyon manat və ya xərclərin 7,9 faizi həcmində, sosial ödənişlərə 3433,6 milyon manat (2025-ci illə müqayisədə 68,9 milyon manat və ya 2,0 faiz çox) və ya xərclərin 8,2 faizi həcmində, dövlət icbari şəxsi sığorta xərclərinə 62,1 milyon manat (2025-ci illə müqayisədə 11,1 milyon manat və ya 21,6 faiz çox) və ya xərclərin 0,1 faizi həcmində, qeyri-maliyyə aktivlərinin alınmasına 13901,8 milyon manat və ya xərclərin 33,3 faizi həcmində, maliyyə aktivləri üzrə əməliyyatlara 183,0 milyon manat və ya xərclərin 0,4 faizi həcmində, öhdəliklər üzrə əməliyyatlara 1077,0 milyon manat və ya xərclərin 2,7 faizi həcmində vəsait nəzərdə tutulub. Xərclərin ünvanlılığının daha da artırılması və aidiyyəti xərc maddələrində proqnozlaşdırılması hesabına "Sair xərclər" maddəsi üzrə 2025-ci illə müqayisədə 2026-cı ilin dövlət büdcəsində 225,2 milyon manat və ya 17,6 faiz az vəsait proqnozlaşdırılır.

### *Dövlət büdcəsi kəsirinin yuxarı həddi və onun maliyyələşdirilməsi*

**2026-cı il üçün dövlət büdcəsi kəsirinin yuxarı həddi 3094,6 milyon manat məbləğində nəzərdə tutulur. Kəsirin ÜDM-də xüsusi çəkisi 2,3 faiz olmaqla cari ilin səviyyəsindədir. Kəsirin maliyyələşdirilməsi özəlləşdirmədən daxilolmalar, daxili və xarici borclanma və 2026- cı il 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı hesabına həyata keçiriləcək.**

# SƏN NƏ İSTƏYİRSƏN, RAMİZ MEHDİYEV?!

***Bir Meksika filmi var, çox maraqlı siyasi bir filmdi, Meksikanın azadlığına həsr olunub. İki qəhrəmanı var, biri xalq hərəkatından gəlib, oxuyub-yazmağı da bilmir, biri isə generaldı. Mübarizələri Meksikanın azadlığı ilə nəticələnir. İndi bir məsələ qalıb - kim prezident olsun? Xalq hərəkatından gələn generala deyir ki, mən oxuyub-yazmağı bilmirəm, sən prezident ol. General da yaşlanıb, gülür və deyir:***

***- Mənim arzum Meksikanın azad olması idi, oldu. Day mən qocalmışam, gedib kəndimizdə yaşamaq, inək sağmaq, qarğıdalı əkmək, nəvələrimlə oynamaq istəyirəm.***

***İndi yaşının bu çağında Ramiz Mehdiyev hər rayonda tikdirdiyi villaların həyətində gedib mer-meyvə ağacı əkməkdənsə...***

***... jurnalist Etibar Hüseynov Mehdiyevin Şabranda tikdirtdiyi villasından bir reportaj hazırlamışdı. Fikir verdinizsə çox böyük bir həyət idi. Və bütün həyətə də üzlük daşlar döşənmişdi. Bir dənə də ağac yoxuydu. Həyət helikopter meydançasına oxşayırdı, amma deyəsən, gözlədiyi helikopter gəlib çıxmadı...***

***... Bəli, ağac əkməkdənsə, nəvələriylə oynamaqdansa bu yaşında millətin heysiyyatı ilə oynadı. Torpaqlarını iki yüz illik bir işğaldan 44 günə azad etmiş dövlətlə çirkli oyun oynadı. Həmişə Azərbaycanda gözü olan Rusiyanın burdakı gözünə çevrildi. Çörəyini yediyi, milyardlarla pul qazandığı, bütün nəsil-nəcabətini, dostlarını yüksək dövlət vəzifələrinə yerləşdirdiyi dövlətə xəyanət etmək üçün şeytanlarla da işbirliyi bağladı.***

***Özü başda olmaqla yüksək vəzifələrdə çalışan adamlarıyla var gücüylə çalışdı ki, Cənab Prezident İlham Əliyev torpaqları müharibə yolu ilə azad etməsin və onun nüfuzuna zərbə endirsin.***

***Əgər "Tərtər işi"ni yaxşı araşdırsalar və yəqin ki, DTX bunu da araşdıracaq və "Tərtər işi"nin altından da Ramiz Mehdiyev çıxacaq. Eləcə də Aprel döyüşlərində general Polad Həşimovun və polkovniklərin həlak olmasında da Ramiz Mehdiyevin izi çıxacaq.***

***O, bununla ordunu İlham Əliyevin gözündən salır və Cənab Prezidenti inandırmağa çalışırdı ki, bu ordu ilə müharibə etmək olmaz.***

***Amma Cənab Prezidentin sözləri ilə desək, dövlət başçısı nəyi nə vaxt etməyi və deməyi gözəl bilirdi.***

***Ona görə də müharibə başlamamışdan bir il əvvəl, yəni 2019-cu ildə əl-ayağına dolaşanları, Ramiz Mehdiyevi və Ramiz Mehdiyevin ən yaxın adamı, Azərbaycan mətbuatını əlinə keçirərək kor qoyan Əli Həsənovu vəzifədən kənarlaşdırdı. Eləcə də Ramiz Mehdiyevə bağlı olan bəzi yüksək vəzifəli dövlət məmurlarını yola saldı.***

***2013-cü ildə prezident seçkiləri ərəfəsində "Milli Şura" deyilən bir təşkilat da Rusiyanın projesi idi və təbii ki, bu projedə Ramiz Mehdiyevin də əli vardı.***

***Düzdür, Cəmil Həsənli and içərək çörəyi qırıq-qırıq edir ki, bu, Rusiya projesi deyil, Abbas Abbasovla da əlaqəsi yoxdu, eləcə də "Milyarderlər İttifaqı"yla da. Bəs, onda kinorejissor, yazıçı Rüstəm İbrahimbəyov Moskvadan Tiflisə niyə gəlmişdi?***

***Amma Rusiyanın bu projesi baş tutmadı, iflasa uğradı. Üstündən illər keçəndən sonra Rusiyanın tapşırığı ilə Ramiz Mehdiyev bu dəfə "Milli Şura" deyil, "Dövlət Şurası" adlı yeni bir proje hazırladı.***

***Amma bir şeyi unudurdu. Unudurdu ki, Dövlət Təhlükəsizlik Xidmətinə rəis təyin olunandan sonra Əli Nağıyev bütün gücünü korrupsiyaya qarşı mübarizəyə və dövlətə xəyanət edənlərə qarşı yönəltmişdi. Dövlət Təhlükəsizlik Xidməti işləyirdi, özü də diqqətlə, dəqiq araşdırmalarla. Və Əli Nağıyevin rəhbərlik elədiyi DTX Ramiz Mehdiyevin bu projesini ifşa elədi, dəlil və sübutlarla. Ramiz Mehdiyevin həm Rusiya ilə, həm də Azərbaycan Xalq Cəbhəsinin sədri Əli Kərimli ilə əlaqələri tam çılpaqlığı ilə üzə çıxdı. Əli Kərimlinin evində axtarış zamanı Ramiz Mehdiyevin məlum məktubunun orijinalı da tapıldı.***

***Ramiz Mehdiyevin radikal müxalifətlə əlaqələri yeni deyil, bu, 2000-ci illərə və ondan əvvəllərə dayanır.***

***Hələ istintaq gedir. Çox cinayətlərin üstü açılacaq. Bir sözlə, Ramiz Mehdiyevin xəmiri hələ çox su aparacaq.***

**Aqil ABBAS**

## *Türkiyənin ilk pilotsuz döyüş təyyarəsi dünyada ilkə imza atdı*

**Türkiyənin ilk pilotsuz döyüş təyyarəsi Bayraktar KIZILELMA reaktiv mühərrikli hava hədəfini vuran dünyadakı ilk insansız döyüş təyyarəsi olub.**

Adalet.az xəbər verir ki, bu barədə TRT Haber məlumat yayıb. Dünya üzrə mövcud pilotsuz döyüş təyyarəsi layihələrinin əksəriyyəti əsasən hava-yer tapşırıqları üçün hazırlanır. Hələ dünyanın heç bir insansız platforması hava atış qabiliyyətinə nail olmamışkən, Bayraktar KIZILELMA bu atışla döyüş qabiliyyətinin daha yüksək olduğunu sübut edib. Beləliklə, dünyadakı ilk və yeganə platforma olaraq aviasiya tarixində yeni bir dövr başlayıb.

# Vətənə xəyanətin bəraəti yoxdur

**Ramiz Mehdiyev məsələsi arıq iki aya yaxındır ki, ölkədə hər kəsin müzakirə etdiyi mövzuya çevrilib. Bu təbiidir. Adam 25 il (1995-2019) Prezident Administrasiyasının rəhbəri olub. 2019-2022-ci illər arasında isə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsini icra edib. Niyə də gündəmdə olmasınki?**

Ölkənin əsas ictimai-siyasi gündəminə çevrilən cinayət işinə görə "boz kardinal" ləqəbi qazanan R. Mehdiyev hazırda dövlətə qarşı ağır ittihamlarla üz-üzədir. O Cinayət Məcəlləsinin 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər), 274 (dövlətə xəyanət) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) maddələri ilə ittiham olunur. Bakı şəhəri Səbail rayon məhkəməsi müvafiq cinayət işi ilə əlaqədar R.Mehdiyev barəsində 4 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri seçib.

Prosesin diqqətçəkən tərəfi isə odur ki, ittihamlar onun özü ilə məhdudlaşmır. Miqyas getdikcə böyüyür. Araşdırmalara artıq ailə üzvləri və yaxın qohumları da cəlb edilib. Oğlu general-mayor Teymur Mehdiyev fövqəladə hallar nazirinin müavini vəzifəsindən azad edilib. Hazırda böyük ehtimallar var ki, T.Mehdiyev də olayla bağlı həbs edilə bilər. Çünki İstintaq çərçivəsində oğul Mehdiyevin atasına bəzi məsələlərdə yardım etdiyi, eyni zamanda müəyyən şəxslərlə əlaqədə vasitəçilik funksiyasını yerinə yetirdiyi də üzə çıxıb.

Hazırda cinayət işi üzrə müxtəlif şəxslərin dindirildiyi də bəllidir. Mətbuata bu dindirilmələrdən sızan məlumatlara görə, ssenarisi Rusiyada yazılmış əsas şübhəli sövdələşmələr məhz 2012-2013-cü illərdə başlayıb.

Ramiz Mehdiyevin yaxın dostu, Azərbaycana qarşı fəaliyyəti dəfələrlə ifşa olunsa belə, müdafiə etdiyi Abbas Abbasov 2012-ci ildə Rusiyada hamının "Milyarderlər İttifaqı" kimi tanıdığı "Rusiya Azərbaycan Təşkilatları İttifaqı"nı yaradır. İB-RUS şirkətinin sahibi Rüstəm İbrahimbəyov isə (İB - İbrahimbəyov, RUS-Rustam) Abbas Abbasovla birgə "Milyarderlər İttifaqı"nın Koordinasiya Şurasının üzvü olur.

Bundan dərhal sonra, Rüstəm İbrahimbəyov missiyası üzrə Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəylini başına yığıb "Milyarderlər İttifaqı"nın kapitalı ətrafında "Milli Şura" yaradır. Əli Kərimli isə tənəzzül etmiş AXCP-ni (həyatının növbəti ciddi səhvini edərək) Rusiyada yaşayan Rüstəm İbrahimbəyovun yaratdığı "Milli Şura"nın alətinə çevirir. Hamıya məlum olan bu hadisələrin daha dərin dəlilləri isə şokedici telefon danışıqları üzə çıxdıqdan sonra araşdırılan Ramiz Mehdiyevin evindən çıxıb.

Məsələnin bir maraqlı tərəfi də odur ki, qeyd olunan kapital sonrakı illərdə də AXCP adından Əli Kərimlinin öz evinə axıb, bir qismi iğtişaşlara cəlb olunan şəxslərə təklif olunub və sair.




Xeyli vaxtdır çoxlarının diqqətini çəkirdi ki, Əli Kərimlinin fasiləsiz mitinqləri məhz Ramiz Mehdiyevin vəzifədən getməsi ilə eyni vaxtda tarixə qovuşub.

Daha əvvəl mətbuatda yayılan məlumata əsasən, DTX-nin AXCP sədri Əli Kərimlinin evində apardığı axtarış zamanı evdən "Milyarderlər İttifaqı" ilə əlaqəyə dair materiallar, Ramiz Mehdiyev tərəfindən yazılmış məktubun mediada olmayan ilkin redaktə variantı, sair sənədlər tapılıb.

DTX-nin faktlarla təsdiqlənməyən qeyri-ciddi söhbətlərə baş qoşmadığı məlumdur. Araşdırmalar zamanı o fakt da tam təsdiqini tapıb ki, Əli Kərimlidən geri qalmaq istəməyən Gültəkin Hacıbəyli də öz "haqqı"nı əldə etməyi bacarıb. Məsələn, Bakıda və Goranboyda daşınmaz əmlaklar formasında. Ramiz Mehdiyevin kürəkəni İlham Əlisəftər oğlu Əliyevin sahibi olduğu, sonuncunun qardaşı oğlu Orxan Fikrət oğlu Əliyevin isə qanuni təmsilçisi olduğu "NLT" MMC tərəfindən inşa edilmiş Bakı şəhəri Nəsimi rayonu Dilarə Əliyeva küçəsi 251A nömrəli 15 mərtəbəli binada Gültəkin Hacıbəyliyə gizli şəkildə 2 müasir mənzil hədiyyə edilib (və təbii ki təmir olunmuş vəziyyətdə).

Həmin mənzillərdən biri Gültəkin Hacıbəylinin atası Yunis Hacıyevin adındadır. Söhbət həmin ünvanda yerləşən 179.4 kv.m sahəsi olan 183 nömrəli mənzildən gedir.

Həmin binanın 13-cü mərtəbəsində G.Hacıbəyliyə xüsusi "xidmətlərinə" görə, "boz kardinal" tərəfindən bağışlanan digər mənzil isə Gültəkin Hacıbəylinin bacısı Aytən Hacıyevanın adına rəsmiləşdirilib. 178.18 kv.m sahəsi olan, 4 otaqlı mənzildə isə G.Hacıbəyli özü tək yaşayır.

**Görünən tərəf odur ki, bu xəmir hələ daha çox su aparacaq. Məsələnin miqyası onu deməyə əsas verir ki, istintaq prosesi çərçivəsində digər şəxslərin də məsuliyyətə cəlb olunacağı istisna olunmur. Dünən vəzifədə olanlardan və ya bu gün kresloda oturanlardan kimlərin xəyanət siyahısın da adıhallanacaq hələ ki, məlum deyil. Amma bir ona əminəm ki, kimlərinsə bu xəyanətlə bağlı hər hansı bir fəaliyyəti və ya fəaliyyətsizliyi varsa mütləq cəzasını alacaq. Çünki vətənə xəyanətin bəraəti yoxdur.**

**Nicat Novruzoğlu**

# "İranın təsir dairəsində olan güclərin İsraillə müharibəyə şərait yaratdığını..."

**"Yaxın Şərqdə durum demək olar ki, gərginliyini qoruyur. HƏMAS - İsrail arasındakı müharibə atəşkəs sayəsində səngisə də müharibədən sonrakı proseslərdə müxtəlif fikir ayrılıqları, ziddiyyətli məsələlər var. Habelə İsrailin Suriya və Livanla bağlı bir qədər sərt mövqeyi durumun gərgin olaraq davam etməsininə imkan yaradır".**

Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Tural İrfan deyib.

Onun sözlərinə görə, bölgədə region ölkələri artıq özlərini qorumaq, təhlükəsizliyini təmin etmək üçün müstəqil addımlar atmağa cəhd edirlər:

"Livan İsrailin bəhanəsini kəsmək üçün İranın müdaxiləsinə qarşı açıq çıxış edir. Belə ki, dünən Livanın xarici işlər naziri Yusif Raci İranın ali rəhbərinin müşaviri Əli Əkbər Vilayətinin son açıqlamalarına sərt reaksiya verib. Çünki Vilayəti "Hizbullahın varlığı Livan üçün çörəkdən daha vacibdir" deyib. Nazir X hesabında paylaşım edərək bildirib ki, Livanın suverenliyi, azadlığı və daxili qərarlarının müstəqilliyi ölkə xalqı üçün yemək və sudan daha önəmlidir. O, bu bəyanatı ilə İranın Livanın daxili işlərinə qarışdığını vurğulayıb. Artıq Livan xarici müdaxilələrin mümkün qədər minimuma endirilməsinə çalışır. Əsasən də İranın təsir dairəsində olan güclərin İsraillə müharibəyə şərait yaratdığını bir növü etiraf edir".

T.İrfan bildirib ki, ölkədəki İran təsirində olan qrupların deyil, dövlətin güclənməsinin və qorunmasının vacibliyi Livan hökuməti üçün prioritet təşkil edir:



"İran rəsmiləri ilə Livan rəsmiləri arasında bu cür siyasi toqquşmalar son zamanlar aktual xarakter alıb. İranın xarici işlər naziri Abbas Əraqçıya cavab verən Livan xarici işlər naziri Raci bəyan edib ki, Vilayətinin açıqlaması Tehran rəsmilərinin müdaxilə olmadığını iddia edən sözləri ilə ziddiyyət təşkil edir. Buradan da aydın olur ki, İran daxilində siyasi dövlət dairələrində xarici siyasətlə bağlı ziddiyyətlər var və islahatçılarla mühafizəkarların fərqli mövqeləri strateji məsələlərə sirayət edir. Bu da Prezidentin komandası ilə dini liderin dairəsi arasındakı mövqe fərqliliyini təzahür etdirir ki, bir dövlətin ikili münasibəti ortaya çıxmış olur. Lakin Livan rəsmisinin sözlərinə görə, ölkə üçün prioritet Hizbullah deyil, dövlətin suverenliyinin qorunmasıdır. Şübhəsiz ki, ölkə daxilindəki qrupların yalnız müstəqil siyasi fəaliyyətlə məşğul olması, dövlətin suverenliyinə təhlükə yaradacaq alternativ güc, təsir qüvvəsi yaratmaması halında Livan hökuməti onların fəaliyyətinə qarşı olmadığını da izhar edir. Fəqət İranın İsraillə gərgin münasibəti zəminində Livandakı təşkilatlar vasitəsilə ölkənin rəsmi mövqeyinə və müəyyən etdiyi siyasi strategiyaya alternativ mövqe sərgiləməsi, hətta xarici dövlət rəsmilərinin də buna qarışması artıq dövlət səviyyəsində ciddi etirazlara səbəb olur".

**Vasif ƏLİHÜSEYN**

## *Bütün şəhid ailələri və müharibə əlilləri evlə təmin olunacaqlar*



**"Birinci plenar iclasda sual qalxmışdı ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi şəhid ailələri və müharibə əlilləri üçün mənzil və yaxud fərdi evlərin inşasından maraqlı deyil. Bu belə deyil".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında çıxışı zamanı əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev deyib. Nazir bildirib ki, şəhid ailələrinin və müharibə əlillərinin mənzil, məişət şəraitinin yaxşılaşdırılması üçün 2 proqram icra edilir: "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu proqramları icra etmək üçün kifayət qədər vəsaitə malikdir, proqrmalar dayandırılmayıb və davam etdirilir. Nazirlik ölkə üzrə yeni inşa edilmiş çoxmənzilli binalarda mənzillərin alışını həyata keçirir və bu məqsədlə müvafiq tenderləri elan edirik. Ümumilikdə bu proqram çərçivəsində 15,7 min mənzil və fərdi evlərin verilməsi təmin edilib. 2018-2025-ci illərdən bu kateqoriyadan olan şəxslərə 10 min mənzil və fərdi evlərin verilməsini təmin etmişik. Post-müharibə dövründə 6,9 min mənzil verilməsini təmin etmişik. Cari ildə isə bu məqsədlər üçün 400-ə yaxına mənzilin alınmasını təmin edəcəyik.

Dağlıq və dağətəyi rayonlarda coğrafi çətinliklər nəzərə alınaraq növbəti ildən həmin rayonlarla bağlı xüsusi yanaşma tətbiq olunacaq. Mənzil-məişət şəraitin yaxşılaşdırılmasına ehtiyacı olan məznil növbəsində olan ölkə üzrə bütün şəhid ailələri və müharibə əlilləri mənzillə təmin olunacaqlar".

**Nicat**

## *Əhməd İsmayılov: Azərbaycan Türk dövlətləri ilə media sahəsində əməkdaşlığı dərinləşdirməyə çalışır*



**Azərbaycan Türk dövlətləri ilə media sahəsində əməkdaşlığı dərinləşdirməyə çalışır.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Türk Dövlətləri Təşkilatının (TDT) Media və İnformasiya üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin 7-ci toplantısında deyib. O qeyd edib ki, bugünkü tədbirdə iştirak Türk dünyasının media əməkdaşlığının gücləndirilməsinə xidmət edir:

"Azərbaycan Prezidentinin rəhbərliyi ilə media sahəsində inkişafa xüsusi diqqət göstəririk. Bu il Azərbaycan Milli Mətbuatının 150 illik yubileyi qeyd olundu. Media sahəsində xidmətlərinə görə bir sıra jurnalistlər təltif olunublar. Azərbaycan hər il Şuşa Media Forumunu həyata keçirir. Dövlət başçısının iştirakı ilə keçirilən bu tədbirdə Türk dövlətləri də aktiv iştirak edirlər. Həmçinin, hər il dekabr ayında "Media savadlılığı" layihəsi həyata keçirilir ki, bu da jurnalistlərin, media mütəxəssislərinin tənqidi düşüncəsinə, inkişafına mühüm töhfə verir".

Ə.İsmayılov əlavə edib ki, Azərbaycan TDT-ni təkcə iqtisadi-siyasi təşkilat kimi yox, həm də dezinformasiya, hibrid informasiya təhdidləri ilə mübarizə platforması kimi görür.

"İnformasiya suverenliyimizi qorumaq istiqamətində daim səy göstəririk. 2025-ci ildə Azərbaycanın digər Türk dövlətləri ilə media sahəsində əməkdaşlığı olduqca dərinləşib", - o qeyd edib.

## *İşğaldan azad olunan ərazilərə 22 milyard manat xərclənib*



**"Hazırda işğaldan azad edilən ərazilərdə 62 mindən çox insan yaşayır. Laçında isə 5 mindən çox sakinimiz var".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisdə 2026-cı ilin büdcə zərfinin ikinci oxunuşda müzakirəsi zamanı deputat Tahir Mirkişili deyib.

"Bu günə qədər Azərbaycan dövləti bu ərazilərin bərpa olunması üçün 22 milyard manata yaxın vəsait xərcləyib. Mən müqayisə üçün deyim ki, 22 milyard manat vəsait Ermənistan dövlət büdcəsinin gəlirlərindən 2 dəfə, Gürcüstanın dövlət büdcəsinin gəlirlərindən isə 1,4 dəfə çoxdur. Bu rəqəmlər onu göstərir ki, Azərbaycan dövləti həmin ərazilərin bərpası və inteqrasiyası üçün kifayət qədər böyük işlər görür", - deyə deputat bildirib.

## *Nazir kimlərin erkən pensiyaya çıxdığını açıqladı*



**”Erkən təqaüdə çıxmaq məsələsi böyük aktuallıq kəsb edir. Azərbaycanda güzəştli şərtlərlə erkən pensiyaya çıxmaq hüququna malik olan şəxslərin sayı və kateqoriyası sosialyönümlüdür. Erkən pensiyaya çıxmaq hüququ çoxuşaqlı analara, zərərli və ağır əmək şəraitində çalışanlara, pilotlara, ahıl və əlilliyi olan şəxslərə qulluq edənlərə şamil edilir”.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında çıxışı zamanı əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev deyib.

”Təkcə 200-dən çox sahə üzrə 4000-dən çox vəzifə və peşələr üzrə fəaliyyət göstərmiş şəxslərə yaşa görə 5 il erkən pensiya təyin olunur. Son dövrlər edilmiş dəyişikliklərə əsasən, güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən şəxslərin siyahısına 65 peşə və vəzifə əlavə edilib. Bu, erkən pensiya təyin olunan şəxslərin əhatə dairəsinin genişlənməsinə səbəb olub. Bu istiqamətdə mütəmadi olaraq təhlillər aparılır”, - deyə nazir bildirib.

## *Tənzilə Rüstəmxanlı: “Bəzi məktəblərdə pəncərələr naylon örtüklə əvəz edilib”*



**Təhsilə qoyulan hər manat ölkəmizə sərmayədir. Adalet.az xəbər verir ki, Milli Məclisin deputatı Tənzilə Rüstəmxanlı parlamentin plenar iclasında ”2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsinin ikinci oxunuşda müzakirəsi zamanı təhsilin həm maliyyəsi, həm də keyfiyyətinin diqqət mərkəzində olmalı olduğunu vurğulayıb. Deputat qeyd edib: ”Təhsilə ayrılan büdcədən savayı, onun keyfiyyəti də müzakirə mövzusu olmalıdır”.**

T.Rüstəmxanlı həmçinin öz seçildiyi bölgədəki vəziyyətə toxunub: ”Ölkəmizdə mənim seçildiyim bölgədə təhsildə ciddi problemlər mövcuddur. Bəzi məktəblərdə qış fəslində pəncərələrin naylon örtüklərlə əvəz olunduğunu görürük. Çətin şərtlərlə təhsil alan şagirdlərin qiymətləri yetərincə yüksəkdir. Neftçalanın qazlaşdırılması ilə bağlı da problemlər var. Yeni Qışlaq kəndində qadınların əli odun doğramaqdan əziyyət çəkir”.

**Nicat**

## *“Azərbaycan C6 Dəhlizinin Əsasını Qurmaq üçün Mərkəzi Asiyaya qoşulur”*

**”Mərkəzi Asiya liderləri 15-16 noyabr tarixlərində Daşkənddə Dövlət Başçılarının yeddinci Məşvərət iclası üçün görüşüblər və razılığa gəliblər ki, Azərbaycan bundan sonra tamhüquqlu üzv kimi iştirak edəcək. Yəni, C5-i C6-ya çevriləcək və rəsmi olaraq ”Mərkəzi Asiya Birliyi”nə yol açılır. Əvvəlcə 2018-ci ildə sərhədlər, su və təhlükəsizlik üzrə siyasi dialoq və etimadın qurulması üçün yaradılmış forumun mandatı hazırda iqtisadi inteqrasiya, təhlükəsizlik, ətraf mühit əməkdaşlığı, dəhliz və rəqəmsal idarəetməyə qədər genişləndirilir”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

O, bildirib ki, Prezident İlham Əliyev Azərbaycanı və Mərkəzi Asiyanı vahid geosiyasi və geoiqtisadi bölgə kimi təqdim edərək, bunu Ələt limanına çıxarmaq və sadələşdirilmiş gömrük və Xəzəryanı enerji və məlumat əlaqələri daxil olmaqla, Azərbaycan vasitəsilə konkret olaraq Orta Dəhlizi inkişaf etdirməyi hədəfləyir:

”Son görüşdə Prezident Qasım-Jomart Tokayev məsləhətləşmə formatında əsaslandırılmış hərtərəfli C6 nəqliyyat strategiyası, eləcə də süni intellektdən istifadə haqqında bəyannamənin qəbulunu təklif edib. C6 eyni altı dövləti birləşdirən və Transxəzər zonada məlumat və sənəd bazaları üçün etibarlı rəqəmsallaşdırma üçün yol xəritəsi yaratmağı düşünür. (mövcud BMT SPECA formatı ilə üst-üstə düşür.)

Politoloqun sözlərinə görə, Avropa İttifaqı öz maliyyəsinin əhəmiyyətli dərəcədə bir hissəsini Qazaxıstanda cəmləşdirməyə hazırlaşır:

”Azərbaycan isə öz daşınma, boru kəməri və rəqəmsal kabel üstünlüklərindən istifadə edərək dəhlizun idarəetməsinə nəzarət rejimi qurmağa çalışır və artıq buna çox yaxındır. C6 indi bu Xəzər nüvəsini CKU və Trans-Əfqan dəmir yolları və yeni Türkmənbaşı ilə əlaqəli təşəbbüslər kimi alternativ marşrutlara qoşmalıdır ki, xarici layihələrdən daha çox regional prioritetlər vacub seçimlər formalaşdırsın”.

**Ömər**

# "Hökuməti turistlərin sayının azalması narahat etməlidir"

**”Azərbaycanda gələn il dövlət büdcəsindən beynəlxalq tədbirlərin keçirilməsinə 239 milyon manat vəsait ayrılacaq. Bu, elmə ayrılan vəsaitdən 10 milyon manat artıqdır. Çox təəssüf ki, bu beynəlxalq tədbirlərin bir çoxunun effektivliyi çox aşağıdır”.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisdə 2026-cı ilin büdcə zərfinin ikinci oxunuşda müzakirəsi zamanı deputat Qüdrət Həsənquliyev deyib. O bildirib ki, hökuməti ötən illə müqayisədə turistlərin sayının azalması narahat etməlidir:



”Əgər bu ilin 10 ayında ölkəmizə 2 milyon 171 min turist gəlibsə (illik müqayisədə 1,7 % az), bizdən çox kiçik Gürcüstana 4 milyon 307 min turist gəlib (2 dəfə çox). Bunun səbəbləri araşdırılmalıdır”.

Onun sözlərinə görə, Azərbaycan ilk növbədə çalışmalıdır ki, Amerika Birləşmiş Ştatları, Avropa ölkələri və İran vətəndaşları üçün viza rejimini aradan qaldırsın: ”Eyni zamanda araşdırma aparılsın ki, niyə turistlər Azərbaycana gəlməkdən imtina eləyirlər. Bu, həm də bizdə xidmətlərin baha olması ilə bağlıdır. Təyyarə biletlərinin, ictimai-iaşə obyektlərindəki xidmətlərin qiymətləri çox yüksəkdir. Azərbaycanda ucuz hotellər yoxdur. Bu da turistlərin sayına birbaşa təsir edir. Hesab eləmirəm ki, biz yerli hotelləri büdcədən ayrılan vəsaitlə - beynəlxalq tədbirlər keçirməklə dəstəkləməliyik”.

**Nicat**

# *«Ermənistanda parlament seçkilərindən sonra prosesin başlanması gözlənilir...»*

**”Ermənistanla -Azərbaycan Birgə komissiyanın iclası Qəbələdə baş tutdu. Ötən həftə Ermənistanın Baş nazirinin müavini M. Qriqoryanın başçılıq etdiyi nümayəndə heyəti iki ölkə arasında delimitasiya -demarkasiya komissiyasının növbəti iclasında iştirak etmək üçün Azərbaycana səfər etdi. İki ölkə arasında sayca 12-ci iclasın sərhəddə deyil, Qəbələdə keçirilməsi iki ölkə arasında əlaqələrin inkişafında mühüm addım kimi xarakterizə etmək olar. Eyni gündə Türkiyə -Ermənistan nümayəndələri də görüş keçirib”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd



Əsədullazadə deyib. O, bildirib ki, Azərbaycan və Türkiyə prosesi paralel aparır:

”Bu da tərəflər arasında qarşılıqlı etimadı inkişaf etdirir. Növbəti birgə komissiyanın növbəti iclası Ermənistanda keçiriləcək. Azərbaycan nümayəndə heyətinin bu ölkəyə səfər etməsi gözlənilir. Qarşılıqlı səfərlərin təşkili Rusiyanın proseslərə mane olmasını neytrallaşdırır. Hazırda Rusiya Ermənistana ”demokratik” imicinə girmiş ictimai şəxsləri göndərərək Qarabağ məsələsini ”unutmamağı” təbliğatını aparır.

Bir növ Rusiya öz ənənəvi siyasətindən geri addım atmaq istəmir. İki ölkə arasında sülh prosesinə zərbə vurmağa çalışır. Azərbaycan və Ermənistan Rusiyanın regionda mövqeyini zəifləmək üçün ciddi addımlar atacaqsa, ”Yekun sülh” sülh müqaviləsinin imzalanması prosesi tez baş tutacaq. Təbii ki, Ermənistanda keçiriləcək parlament və konustitusiya referendumundan sonra baş tutacaq.

Azərbaycan və Ermənistan arasında dövlətlər arasında xeyli irəliləyiş əldə edilir. İki ölkə arasında anklavlarla bağlı məsələlər də prinsipcə həllini tapıb. Ermənistanda parlament seçkilərindən sonra prosesin başlanması gözlənilir”.

**Vasif**

# ABŞ-də danışıqlar, Ukraynada müharibə davam edir

**ABŞ prezidenti Donald Tramp, bu ilin sonunadək Ukrayna müharibəsini bitirmək cəhdləri alınmaya bilər. Xəbər verildiyi kimi, bu genlərdə Ukraynanın nümayədə heyyəti, ABŞ prezidentinin münaqişənin sülh yolu ilə həlli ilə bağlı 28 bəndlik təklifini müzakirə etmək üçün, ABŞ-ın dövlət katibi ilə danışıqlar aparıb.**

Dövlət katibi Marko Rubio bəyan edib ki, ABŞ və Ukrayna arasında aoarılan danışıqlar səmərəli keçib, lakin, münaqişənin həlli ilə bağlı çox çalışmalar aparılmalıdır.

”Bu gün səmərəli sessiya apardıq, qarşıdakı aylarda hələ çox işlər görməliyik”- deyə ABŞ-ın dövlət katibi bildirib. Trampın məsələni tezliklə bitirmək üçün tələsməyinə baxmayaraq, görünən odur ki, ”bu xəmirdə hələ çox su aparacaq”.



Əvvala, ABŞ prezidentinin ”sülh planı” daha çox ”Ukraynanın kapitulyasiya planına” uyğun gəlir və yalnız Donald Trampın rəhbərlik etdiyi administrasiyanın mənafelərinə xidmət edir. Dörd ilə yaxındır ağır itkilər bahasına torpaqlarının müdafiəsinə qalxan Kiyev hakimiyyəti, həm işğal llunmuş ərazilətinin itirilməsiylə və zorla təklif olunan alçaldıcı məğlubiyyətlə razılaşmağa məcbur edilir və əks halda Ağ Evin dəstəyindən məhrum ediləcəyi ilə təhdid edilir. Trampın ”sülh planı” həm NATO-nu, həm də Avropa dövlətlərini təşvişə salıb.

Şimali Atlantika alyansını Ukraynanın məğlub olacağından çox, özlərinin gələcək taleyi maraqlandırır. Rusiya-Ukrayna müharibəsinin gedişatı göstərir ki, NATO Ukraynadan sonra, Putinin hərbi bloka üzv dövlətlərə mümkün hərbi hücumlarından müdafiə olmağa hazır deyil. Böyük Britaniya, Amaniya, Fransa və bir sıra ölkələrin liderləri ABŞ prezidentinə birgə məktubla müraciət ediblər.

Lakin, görünən odur ki, Tramp, hələ ki, daha çox Putinlə Alyaskadakı görüşündə əldə olunan razılaşmaya əməl etməkdə israrlılıq nümayiş etdirir.

Bu arada Ukrayna prezidenti Volodimir Zelenskinin yeni ildə istefa verəcəyi barədə xəbərlər yayılıb. Xəbərin nə dərəcədə doğru olduğunu deyə bilmərəm, amma Zelenskinin artlq Qərbin oyunlarından bezdiyini yorğun üz cizgilərindən sezmək olar...

**Rüstəm Hacıyev**

# Alimlər bunu Marsda ilk dəfə müşahidə etdilər

**Alimlər ilk dəfə Mars atmosferində elektrik boşalmalarını müşahidə ediblər - bu fenomen onilliklər boyu yalnız nəzəri olaraq mövcud idi.**

Adalet.az xəbər verir ki, siqnallar təsadüfən Perseverance roverindəki SuperCam cihazının mikrofonu tərəfindən qeydə alınıb. Marsda işləyən yeganə mikrofon olan SuperCam, rover iki toz fırtınasının mərkəzinə daxil olanda külək və toz hərəkətinin səsini qeyd edib. Tuluza və Parisdən olan alimlər qeydlərdə qeyri-adi akustik və elektromaqnit impulsları aşkar ediblər. Təhlillər göstərib ki, bunlar quru havada metal səthə toxunduqda hiss etdiyiniz statik şoka bənzər miniatür elektrik boşalmalarıdır. Bu fenomen müşahidələrlə ilk dəfə təsdiqlənir; əvvəllər bu, yalnız modelləşdirmə mövzusu idi. Mars tozunun kiçik hissəcikləri burulğan içində bir-birinə sürtündükdə elektronlarla yüklənirlər. Nazik Mars atmosferində Yer kürəsində olduğundan daha az elektrik enerjisi tələb olunur. Buna görə də, yığılmış yüklər bir neçə santimetr uzunluğunda mini-qığılcımlar şəklində sərbəst buraxılır və çətinliklə eşidilən şok dalğası ilə müşayiət olunur.

# Nazir kimlərin 16 manat ödəməyəcəyini açıqladı

**"Biz deyirik ki, bəlli bir kateqoriya insanların hamısı, yəni uşaqlar, pensiyaçılar, əlilliyi olan insanlar, əmək qabiliyyətsiz şəxslər, işsizlər dövlət tərəfindən sığorta olunacaq. Nəyəsə görə, bu, tam əks formada başa düşülür ki, işsizlər sığortalanmayacaq. Əksinə, ilk dəfə olaraq qanunvericilikdə birbaşa göstərilir ki, işsizlər də dövlət tərəfindən sığorta olunacaq".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında çıxışı zamanı maliyyə naziri Sahil Babayev deyib. Nazir bildirib ki, dövlət büdcəsində bu məqsəd üçün 900 milyon manat vəsait qoyulub:

"Bu, təqribən 3-7,5 milyon insanımızın sığorta haqqıdır. Əlavə olaraq, təqribən 2 milyon insanımız muzdlu əmək qabiliyyəti ilə çalışır. Onların da sığortası, əmək qabiliyyətli şəxslərin uyğun olaraq, işçi və işəgötürən tərəfindən qarşılanır. Fərdi sahibkarlarımızın da sığortası onlar tərəfindən qarşılanır".

"Kim kənara qalır? Yalnız işləyən, gəliri olan, bu gəlirini gizlədən, qeyri-



formal məşğul olan şəxslər. Qeyri-formal fəaliyyət göstərmək özü qanunvericiliklə qadağan edilmiş bir fəaliyyətdir. Biz deyirik ki, yalnız qanunvericiliklə qadağan edilmiş şəkildə fəaliyyət göstərən insanların sığortasını özləri ödəyəcək", - deyə nazir bildirib.

Onun sözlərinə görə, xüsusi qaydalar olacaq və qeyri-formal məşğul olan şəxslərin müəyyən edilmə meyarları elektron şəkildə aparılacaq:

"Fərdiləşmiş məlumat əsasında, təqdim olunan şəxsin vəziyyətinə uyğun olaraq müəyyən ediləcək ki, bu insanlar hansı kateqoriyaya düşür. O kateqoriyaya düşməyən insanların da gəlirinin mənbəyi soruşulacaq və onlar da sığortadan kənar qalmayacaq. Əksinə, onlar üçün də imkan yaradılır ki, bir də əlavə sığorta haqqı ödəməklə, istənilən məbləğdə olan tibbi xidmətdən yararlansınlar. Yəni, təqdim olunan bu yenilik əhalimizin sosial sığorta ilə əhatə olunması istiqamətində növbəti güzəşli və müsbət bir addımdır. Bu gün qeyri-qanuni şəkildə fəaliyyət göstərən insanlardan savayı hər kəsi tam şəkildə əhatə edir. Ona görə də məsələnin "işsizlərdən aylıq sığorta vəsaiti alınacaq, işsizləri sığorta hüququndan məhrum edəcəklər" kimi şərh edilməsini anlamadıq və bunu qanun layihəsini tanımayan insanlar tərəfindən ortaya atılmış dezinformasiya hesab edirik", - deyə maliyyə naziri bildirib.

**Nicat**

# Azərbaycanda bu şəxslər yüksək pensiya məbləği seçə biləcəklər

**"Nazirlər Kabineti "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda edilən yeni dəyişiklikləri təsdiq edib. Yeni qaydalara ilə daha tez pensiyaya çıxmaqla bağlı proseduralar daha da sadələşib və əlçatanlıq artırılıb".**

Adalet.az xəbər verir ki, bu sözləri deputat Vüqar Bayramov deyib.

""Əmək pensiyaları" haqqında Qanunun 9-cu maddəsinə əsasən, axırıncı iş yerindən asılı olmayaraq, güzəştli şərtlərlə yaşa görə əmək pensiyası almaq hüququ verən incəsənətin xüsusi sahələrinin, yeraltı, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərin Nazirlər Kabinetinin təsdiq etdiyi siyahısında nəzərdə tutulan siyahıda azı 12 il 6 ay çalışmış kişilərin və azı 10 il çalışmış qadınların yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ vardır. Bu hüququn reallaşması üçün isə həmin vətəndaşlarımızın işlədiyi müəssisə üzrə işəgötürən tərəfindən arayışa təqdim edilməsinə ehtiyac vardı.

Ancaq bəzi hallarda, xüsusən həmin müəssisələrin fəaliyyətlərini dayandırması səbəbindən belə arayışların alınmasında çətinliklər oldu.

Nəticədə, bəzi hallarda vətəndaşlarımız öz pensiya hüquqlarından daha tez



istifadədə çətinliklər ilə üzləşirdilər. Yeni dəyişikliyə əsasən, qeyd edilən səbəbdən həmin arayışın təqdim edilməsi mümkün olmadıqda, şəxsin işləmiş olduğu peşənin Nazirlər Kabinetinin təsdiq etdiyi "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"na uyğun olması əsasında onun müvafiq iş dövrü güzəştli iş stajına daxil ediləcək və erkən pensiya hüququ qazanacaq. Bu zaman, güzəştli sahədə iş stajının hesablanması isə "Əmək və Məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarışda olan qeydə əsasən aparılacaq. Bununla yanaşı, əmək kitabçasında olan qeydə və ya dövlət arxivinin arayışına əsasən də təyinat mümkün olacaq.

Yeni dəyişikliklər ilə qulluq əlavəsi alan və işləməyə davam edən şəxsin əmək pensiyası hesablanarkən əməkhaqqı və ya pensiya kapitalı əsasında hesablanan pensiya məbləğlərindən hansı yüksək olarsa, vətəndaşa həmin məbləğ təyin olunacaq. Yəni, bu hallarda vətəndaşın gözlənilən pensiya məbləğində artımlar olacaq. Daha sadə izah etsək: güzəştli şərtlər ilə pensiya hüququ olan vətəndaşımızın əvvəllər işlədiyi iş yeri bağlanıbsa və arayış ala bilmirsə yeni qaydalardan sonra əmək kitabçasında qeyd və ya arxiv sənədi ilə təyinat mümkün olacaq və hansı pensiya növü üzrə məbləğ yüksək olarsa vətəndaşımızın daha çox olanı seçmək hüququna malik olacaq. Bu isə, pensiya təyinatının asanlaşdırılmasına və bir sıra hallarda isə pensiya məbləğlərinin artmasına xidmət edəcək", - deyə o qeyd edib.

**Sübhan**

# Politoloq: «Qərb Ukraynanın arxasından çəkilir»

**"Andrey Yermak klassik rüşvətxor idi, Volodimir Zelenskinin sağ əli idi. Onu çıxardılar, cəbhəyə getdiyini elan etdi. Əslində baş verənlər Yermakdan asılı deyil. Ümumiyyətlə, qüvvələr nisbətinə baxanda Rusiyanın əhalisi 40, Ukraynanın isə əhalisi 25-30 milyondur. Rusiyanın nəhəng təbii ehtiyatları var. Ukraynada isə illər ərzində silahları oğurlayıb satdılar və izi itirmək üçün silah anbarlarını partlatdılar".**

Bunu Adalet.az-a açıqlamasında politoloq Zərdüşt Əlizadə deyib. Onun sözləri-



nə görə, Ukrayna indi bunun acısını çəkir:

"Əlbəttə ki, əgər Qərb Ukraynaya kifayət qədər kömək etsəydi, Rusiyanı geri oturda bilərdi. Amma Qərb Ukraynanı müdafiə etmək fikrində deyil. Qərbin çox sadə düşünə bilən insanlar üçün bəlli olan məqsədi var. Birinci məqsəd odur ki, Ukrayna və Rusiyanı əbədi, əzəli düşmən etmək, ikinci məsələ isə ondan ibarətdir ki, hər ikisini zəiflətmək. Qərb hazırda məqsədinə çatır. Artıq üç ildir ki, Rusiya və Ukrayna xalqları bir-birilərini qırırlar. İndi də Ukraynanın imkanları tükənir. 10 milyondan çox insan ölkəni tərk edib. Artıq müqavimət qüvvəsini itirib. Rusiya da zəifləyib, amma bir məsəl var deyir ki, "gombul arıqlayınca, arıq acından ölər". İndi yavaş-yavaş Rusiyanın hərbi üstünlüyü özünü göstərir. Ukrayna ərazisinin iyirmi faizini tutub, Ukrayna ordusu müqavimət göstərir, amma müqavimət imkanları məhdudlaşıb. Eyni zamanda da Qərb Ukraynanın arxasından çəkilir. Donalt Trampın son 28 maddəlik təklifi o demək idi ki, Ukrayna ərazilərini Rusiyaya versin. Ukrayna isə bunu etiraz edə bilmir, çünki Qərbdən asılıdır. Hələlik Rusiya ordusunun müəyyən üstünlüyü var, amma son nəticəni heç kim deyə bilməz".

**Eldar**

Rüstəm Hacıyev

# Kiyev ərazi məsələsində kompramissə getmir...



***Xəbər verdiyimiz kimi, Ukraynanın rəsmi nümayəndələri noyabrın 30-da Floridada Ağ Ev administrasiyasının nümayəndələri ilə, prezident Donal Trampın "sülh planını" (əslində kapimulyasiya planını) müzakirə ediblər.***

***Ağ Evin mətbuat katibi Kerolayn Livittin sözlərinə görə, Ukrayna münaqişəsinin həlli ilə bağlı Tramp planına ciddi dəyişiklər edilib. Livittin bildirdiyinə görə, Donald Trampın administrasiyası , sülh razılsşmasının əldə edilməsi perspektivinə optimist yanaşır.***

***"Dövlət katibi Marko Rubio, xüsusi elçi Stiv Uitkoff, vitse-prezident cey Di Vens, hətta prezident Donald Tramp və Pentaqonun şefi Pit Xersetdə daxil olmaqla, prezident apparatı , məsələnin həlli ilə bağlı həddindən artıq iş görüblər"-deyə Kerolayn Livitt jurnalistlərlə keçirdiyi mətbuat konfrandında bildirib.***

***Ağ Evin mətbuat katibinin spzlərinə görə, mümkün razılaşmanın əsas müddəaları artıq kağız üzərindədir. Livittin fikirincə, Vaşinqtonun diplomatiyası menaqişə tərəfləriylə danışıqlar prossesini aparmaq ümkanına malikdir.***

***Danışıqlarda iştirak edən Ukrayna prezidentinin nümayəndələri isə, hesab edirlər ki, sülh danışıqları müvəffəqiyyərlə keçsə də, ən çox vaxt aparan ərazi məsələləri ilə bağlı kompramiss əldə olunmayıb. Yəni, gözlənildiyi kimi, Ukrayna tərəfi Rusiya tərəfindən işğal olunmuş ərazilərdən imtina eməyəcəklərində israrlı olduqlarını bəyan ediblər.***

***Avropa ölkələrinin liderləri də, Trampın "sülh planından" narazılıqlarını bildirirlər. Onlar aydın şəkildə anlayırlar ki, Ukraynadan sonra, Putinin hədəfi Avropadır. Dünən, dekabrın 1-də Fransa prezidenti Emmanuel Makron, ABŞ prezidenti Donald Trampla telefin danışıülarl zamanı narahçılıqlarlnı onun nəzərinə çatdırıb. Fransa prezidenti dialoq zamanı qeyd edib ki, bütün hallarda Kiyevin təhlükəsizlinin təmin olunması mütləq nəzərə alınmalıdır.***

***Makron, əslində Ukraynadan çox Avropanın təhlükəsizliyindən narahatdır. Çünki, Rusiya prdzidenti Vladimir Putin, Macarıstan xaric, bu müharibədə Ukraynaya hərbi dəstək göstərən digər Avropa dövlətlərinə- xüsusiylədə Polşaya bunu bağışlamayacağını yaxşı bilir.***

***Məhz bu səbəbdən Rusiya prezidenti Vladimir Putin bəyan edir ki, münaqişənin sülh yolu ilə həlli istiqamətində ABŞ planı əsas götürülməlidir.***

***Yəni, Ukrayna işğal edilmiş ərazilərini Rusiyaya verməli, hərbi qüvvələrini məhdudlaşdırmalı, NATO və Avropa İttifaqlna üzvlükdən imtina etməli, Ukraynanın yeni seçiləcək prezidenliyə namizədləri Kremllə razılaşdırılmalı, bir sözlə Rusiyanın vassalına çevrilməlidir kimi, qəbul olunması mümkün olmayan absurd tələblər.***

***ABŞ prezidrntinin xüsusi elçisi Stiv Uitkoff, Florida danışıqları zamanı, Ağ Evin mətbuat katibinin də bəyan etdiyi kimi, "ciddi dəyişiklərə məruz qalmış" "sülh planını" Rusiya prezidenti ilə yenidən müzakirə etmək üçün Moskvaya gedir. Çox güman ki, prezident Putin, Ukrayna nümayəndələrinin işğal edilmiş ərazi məsələlərində kompramissə gəlməməsini bəhanə gətirətək, "sülh planını" geri çevirəcək.***

***Görünən odur ki, Trampın "sülh planı" hələ uzun müddət müzakirə olunacaq.***

***Ukraynada isə zaman gözləmir, şiddətli müharibə davam edir, Trampın bütün cəhdlərinə rəğmən, tezliklə bitəcəyinə ümidlər azalmaqdadır...***

## "Rusiya rəhbərliyi çalışır ki, Qərb koalisiyasını parçalayıb..."

**"Rusiya ABŞ və Avropa arasında koalisiyasını parçalamağa çalışır. Rusiya Avropanın təhlükəsizliyini təhdid edir. Hər gün bir ya iki Pua Avropa hava məkanında görünür. Avropa liderləri konkret qərarlar verib, Rusiyanın artan təxribatlarına kompleks müqavimət göstərmək əvəzinə, məsləhətləşirlər".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, demək olar ki, Putin ABŞ ilə Avropa arasında fikir ayrılıqlarına nail olur:

"Təssüf ki, ABŞ administrasiyası Moskvanın narrativlərini qəbul edir. Rusiya rəhbərliyi çalışır ki, Qərb koalisiyasını parçalayıb, Ukraynada istəyinə nail olduqdan sonra, Cənubi Qafqaza və Mərkəzi Asiyaya təzyiqlər artırsın. Hazırda, bu təzyiqlər vaxtaşırı edilir. Qərb koalisiyasının parçalanması, Rusiyanın fövqəl dövlət olması deməkdir. Həmçinin Ukraynanı öz ərazilərindən imtinaya məcbur edilməsi, Moskvanin Qərb üzərində taktiki qələbəsi və güc yolu ilə sərhədlərin dəyişilməsinin əsasının qoyulmasıdır. Bununla da beynəlxalq müstəvidə yeni prsedentlər yarana bilər. D. Tramp Kanadanı və Qrenlandiyanı işğal etməklə hədələməsi bu avantüranın tərkib hissəsi idi. Qərb Rusiya təcavüzünü durdurmaq gücündədir. Amma, bunun üçün siyasi iradə nümayiş etdirmir. Avropa Ukraynada döyüşməyə çəkinirsə, Rusiya sabah Polşanın qapısını döyə bilər. Bunun baş verməməsi üçün Almaniya, Böyük Britaniya, Fransa və Polşa Rusiyanı durdurmaq gücündədir".

**Vasif**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Seyid Əli Ağanın oğlu Əbdürrəhim...

**... Hər elin, obanın hamı tərəfindən hörmət edilən və sevilən insanları var. Və o insanları digərlərindən fərqləndirən onların mərdliyi, ağayanalığı, alicənablığı, səmimiyyətidir. Belə adamlar heç vaxt camaatın ağır və çətin günündə kənarda durub, hadisələrə laqeyd yanaşa bilmirlər. Bizim Bəhmənlidə də belə ailələr, belə insanlar var. Onlar elin-obanın dərdini-qəmini, sevincini, xoş anlarını özlərinki biliblər.**

**Bax, Bəhmənlidə belə ailələrdən biri də Seyid Əli Ağanın ailəsidi, balalarıdı, nəvələridi... O Seyid Əli Ağanın ki, Bəhmənlinin məmə deyənindən, pəpə yeyəninə qədər ona və ocağına hörmət edib və edir. Çünki Seyid Əli Ağa tək seyid deyildi, həm də çox böyük ziyalı, çox böyük ağsaqqal və çox böyük insan idi. Kənddə ağır bir qan davası olanda o qapıya barışıq üçün heç kim gedə bilməzdi, ancaq Seyid Əli Ağa və kəndin bir-iki ağsaqqalı gedərdi və barışıq olardı, məsələ də bununla bitərdi...**



**Atam 54 yaşında qəflətən rəhmətə getmişdi və bizim ən kəsərli, ağır anımız idi. Bax onda səhər sübhdən Seyid Əli Ağa bizim qapıya gəldi, biz üç qardaşın üçünü də bağrına basdı və dedi ki, mən sizin yanınızdayam, qorxmayın! Onda onun qəlbinin, ürəyinin böyüklüyünü bir daha hiss etdik, dağ boyda dərdimiz azaldı... O, tək bizə yox, bütün Bəhmənli camaatına qarşı belə məhəbbət göstərirdi... Biz yüz ilə yaxındır ki, Seyid Əli Ağagillə qonşuyuq. Heç aramızda başqa qonşular kimi nə hasar, nə də çəpər var... O, Allahın dərgahına qovuşanda bütün kənd ağlayırdı...**

**Hərçənd ki, Seyid Əli Ağa heç kimin ağlamağın istəməzdi... Yeri Cənnət olsun! Bu yurdda onun çox hörmətli və elin-obanın xeyir-şərinə yarayan, ağayana övladları var: Seyid Əbdürrəhim, Seyid Əsgər, Seyid Mirəziz, Seyid Novruz...**

**Seyid Əbdürrəhim eynən Seyid Əli Ağadır. Onun kimi ağsaqqal, onun kimi mərd, onun kimi səmimi və onun kimi qanbarışdıran! Həm də Seyid Əbdürrəhim mənim rəhmətlik dayım qızı, gözəl insan Xuraman xanımın həyat yoldaşı olub. Allah Xuraman dayı qızıya da rəhmət eləsin! Yeri Cənnət olsun. Seyid Əbdürrəhim elə bir insandır ki, bütün qohum-əqrəbaya arxa durub, kömək edib. Və mənim də çətin günümdə o, həmişə bizim yanımızda olub. Və bir dəfə də deməyib ki, mən filankəsə kömək eləmişəm**

**Bu insan o qədər səmimi, o qədər halal adamdır ki, heç kimin varında-dövlətində gözü olmayıb. Və bir də onun böyüklüyü odur ki, qardaşı da olsa, haqq-ədaləti ona verən deyil. Hətta kiminsə xətrinə dəysə belə və həmin adam gözünün işığı da olsa, həqiqəti deyəcək! Həqiqətsə, acı olur, axı! Bax bu dəyərlərə görə də, camaat Seyid Əbdürrəhimi çox istəyir. Bəhmənlinin xeyir-şərindən qaldı deyil. Onun çox böyük maddi imkanları olub. Amma özündən çox camaata əl tutub. Bir dəfə dedim ki, Seyid, sənin yaxsı imkanların olub, niyə bir ev tikdirmədin? Dedi ki, Faiq müəllim, Bəhmənlinin bütün evləri mənim evimdir. Əsas odur ki, kəndə bağlı olasan və kənd səni yaddan çıxarmasın və bir də ata evimiz var! Min şükür. Allah qismət eləyər ev də tikərik!**

**Seyid Əbdürrəhim Birinci Qarabağ müharibəsində iştirak edib. Elə İkinci Qarabağ Savaşında da bir ayağı Bəhmənlidə, Füzulidə idi. Çünki bu adam təpədən - dırnağa qədər öz elinə-obasına, Bəhmənliyə bağlı insandı. Bax, ona görə mən də Seyid Əbdürrəhimi çox istəyirəm!!! Və bir də yadımdan çıxmamış deyim. O, dostluğa və qohumluğa da çox sadiq insandı. Yaxın dostu, uzun müddət prokurorluq orqanlarında məsul vəzifələrdə çalışmış, hüquq elmləri doktoru, Bəhmənlinin böyük ziyalısı Şirxan Yusif oğlu Adıgözəlovun məzarını həm anadan olan gün, həm də rəhmətə gedən gün ziyarət edir.**

**Seyid Əbdürrəhim dünyanın ən yaxşı adamlarından biridir. Allah dünyanın bütün yaxşı adamlarını qorusun, o cümlədən də Əbdürrəhim qardaşımızı!!!**

## Partlayışlar nədən baş verir?



**Son bir neçə gündə Bakıda bir -birinin ardınca partlayışlar baş verib. Təbii ki, bu da cəmiyyətin, insanların böyük narahatlığına səbəb olur. O partlayışların, yanğının biri Yasamal rayonunda çoxmərtəbəli binan 17- ci mərtəbəsində olub. Nəticədə 3 nəfər ölüb və 17 nəfər xəsarət alıb, hələ də ağır vəziyyətində olan insanlar var. Digər partlayış isə Nərimanov rayonunda yaşayış binalarının birində yaranıb.**

Burada da qaz sızmasında partlayış olub.aydındındır ki, hadisə nəticəsində 5 nəfər müxtəlif dərəcəli xəsarət alıb.Və insanlar da aidiyyəti üzrə xəstəxanaya yerləşdirilib.Bəs görəsən , bu hadisələrə səbəb nədir? Bitmənalı olaraq məsuliyyətsizlik!

Yaşayış binasının altında restoran olar? Heç harda olmasa da, ancaq bizdə olar? Qanunu, qanunsuz kim nə istəyir, yaşayış binalarının altında istənilən obyekti çox asanlıqla açır. Təki pulun olsun və o varsa, bütün qapılar üzünə açılar. Amma bax belə də faciələr baş verir. Ona görə də , aidiyyəti qurumlar binaların təhlükəsizliyi ilə bağlı ciddi adamlar atmalıdır. Yəni qanunu pozan fiziki, hüquqi, vəzifələr şəxslər cinayət və inzibati məsuliyyətə cəlb edilməlidir.Əgər belə olmasa, bax bu cür bədbəxt hadisələr ölkə ərazisində hələ çox ola bilər!!!

## Harada gəldi avtomobil saxlamaq olmaz!



**Bu gün Bakıda " dayanma"', " durma" qaydaları ilə bağlı sürücülər çox narazılıq edir. Onlar deyirlər ki, taksi fəaliyyəti ilə məşğul olduğumuz üçün şəhərin müxtəlif yerlərindən sərnişin götürür, sərnişin düşürürlər.**

Amma belə anda onlar çətinliklər yaşayır.Avtobus yolunda saxlamaq olmur, eləcə də qadağanedici nişanlar olan yerdə də dayanmaq olmaz! Bəs onda bu yazıq taksi sürücüsü maşını harda saxlasın ki, sərnişini düşürsün , yaxud da mindirsin! Bax elə əsas məsələ də elə budur! Sürücülər qanunu pozursa, 60 manat cərimə və 3 balla çəzalanır. Ona görə də , Yerüstü Nəqliyyat Agentliyi və eləcə də digər qurumlar bu barədə ciddi düşünməlidir.

Taksi sürücüləri üçün şərait yaradılmalıdır ki, onlar lazımi yerlərdə sərnişinləri düşürsün və mindirsin! Lakin səkidə sürücü avtomobili saxlayırsa, bunu görə, birmənalı olaraq cərimə olunmalıdır. Gərək sürücülər də birmənalı olaraq yol hərəkəti qaydalarına əməl etməlidir ki,qəzalar baş verməsin və nəticədə ölən , xəsarət alanlar olmasın!!!

## Bu, mənim haqqımdı...



**Avtobusların birində qəribə bir hadisə ilə rastlaşdım.**

Əlində əsa olan axsayan təxminən 75 yaşlı bir kişi avtobusa daxil oldu və əyləşmək üçün yer axtardı. Oturacaqların hamısında sərnişinlər əyləşmişdi və boş yer yox idi. Kişi ətrafa göz gəzdirdi və əsaya sökənib bir təhər dayandı. Kimsə , 23-24 yaşlı oğlana dedi ki, qalx, qoca kişiyə yer ver, ayaqüstə dayana bilmir.

Oğlan isə çox laqeydliklə dedi:" Burda əyləşmək mənim haqqımdır, ürəyin yanırsa, özün yer ver!" Qoça kişi isə dillendi ki, heç sənin verdiyin yerdə əyləşmərəm.Onsuz da , əsaya sökənib birtəhər dayanmışam! Bir qadınsa oturduğu yerdən ayağa qalxıb dillendi:" Ağsaqqal buyurun, əyləşin! Onsuz da indiki cavanların çox belədir. Aralarında tək- tük qanacağı, mərifəti olan var, amma onlar da azdır. Kişi əyləşmək istəmirdi, ancaq qadının dəfələrlə təkidindən sonra onun verdiyi yerdə əyləşdi və xanıma " çoxsağol" dedi! Nə isə ... Amma gənclər bir həqiqəti bilməlidir ki, oturacaqlarda xəstə , qoca və bir də uşaqlar əyləşməlidirlər.Boş yer olsa, onlar da otura bilərlər.Və Allah qoysa, kişiyə yer verməyən oğlan da qocalacaq , bax onda ona cavanlar yer verməyəndə o da bu hisləri keçirəcək!!!

## Polietilen paketlərə "yox!" deyək...

**Bu gün dünyada ekologiyanı korlayan bir çox səbəblər var.Təbii ki, havanı, suyu , torpağı yad və zərərli vasitələrdən qorumaq üçün böyük layihələr həyata keçirilir. Onlardan biri də, torpağa atılan polietilen paketlərdir.**

Artıq bir neçə ildir ki,bu məsələni həll etmək üçün ölkəmizdə bir çox layihələr gerçəkləşdirilir.Bu məqsədlə təbliğat , təşviqat və maarifləndirmə işləri aparılır. Hətta belə bir deviz var:" Polietilen paketlərə " yox!" deyək.Düzdür, bu məqsədlə əksər market və mağazalarda polietilen paketlərin satışı dayandırıldı. Mütəxəssislərin dediyinə görə, bu paketlər torpağa atılandan sonra 400- 1000 il çürümür bə torpağı ekoloji cəhətdən çirkləndirir.Amma aparılan maarifləndirmə işlərinə baxmayaraq, yeni market və mağazalarda polietilen paketlərin satışı təşkil edilir, onu istifadə etdikdən sonra hara gəldi atırlar.Bu paketlər ən azından istifadə edildikdən sonra, zibil qutularına atılmalıdır. Təəssüf ki, onu zibil qutusundan çox yolun ortasına, parka, xiyabana, ağacların arasına, torpağın üstünə atırlar. Bir neçə saat bundan əvvəl " Ballı" marketin yanından keçirdim , yerə çoxlu polietilen paketlərin atıldığını gördüm və bir daha yəqin etdim ki, insanlar belə hərəkətləri ilə torpağı, ekologiyanı çirkləndirməkdə davam edir! Təəssüf, min təəssüf!



## "Rahat" da 59 manat 60 qəpik, "Ballı" da 78 manat




**İndi bir çox ticarət obyektləri nəzarətsizlikdən istifadə edərək süni qiymət artımına yol verirlər. Təbii ki, bundan əziyyət çəkən və ziyan görən istehlakçılardır.Bu həm də birmənalı olaraq qanun pozuntusu deməkdir.**

Çox təəsüf ki, bu qanun pozuntusuna aidiyyəti orqanlar bəzən göz yumurlar.Məsələn , Yeni Günəşlinin " D " massivində fəaliyyət göstərən " Rahat" marketdə " Verir Greco" zeytun yağı 59 manat 60 qəpiyə, " Ballı " marketdə isə 78 manata satılır. A kişilər, bu qədər də qiymət fərqi olar??? Bəs bu, iqtisadi sabotaj deyil , deyil, nədir? Görünür, " Ballı " marketin arxasında çox güclü bir qüvvə var ! Onlar sahibkara deyir ki, qorxma , baha qiymətə sat, camaatın sözünü kimdir eşidən! Hər halda , istehlakçıların səsini eşidən sağlam qüvvələr tapılar. Və bir də " Ballı" marketdə belə qanun pozuntuları tez -- tez olur. İnanmırsınız aidiyyəti qurumlar gəlib baxsın. Vaxtı keçmiş qida və ərzaq məhsulları, bəzən də qapqara mal əti satılır. Bilirlər ki, hər gün burda şıdırğı alver gedir, camaat ağına-bozuna baxmadan bu keyfiyyətsiz məhsulları alacaq! Bir sözlə, " Ballı" marketdə zeytun yağının satışındakı süni qiymət artımının qarşısı tezliklə alınmalıdır.Əks - təqdirdə süni qiymət artımında istehlakçılar çox narazılıq edəcək!

## Cibgirlər azalıb...



**Dünyanın hər yerində oğuru,quldur, cibgir adamlar var . Aydındır ki, belə kriminal elementlər də özlərəinə həmişə münasib yer axtarırlar. Yəni onlar insanların sıx olduğu avtobuslarda , metro stansiyalarındakı qatarlarda özləri üçün əlverişli yer axtarıb tapırlar!**

Əlbəttə, belə yerlərdə " işləmək" onlar üçün daha rahat və daha yaxşıdır.Uzun müddət ölkəmizdə bu cür kriminal elementlər müxtəlif insanların ciblərini soyublar. Amma artıq müddətdir ki, avtobuslarda, metro stansiyalarındakı qatarlarda kameralar quraşdırılandan sonra belə oğurluqla məşğul olanların kürkünə birə düşüb.

Belə ki, o oğurular kamera vasitəsilə çox asanlıqla axtarılıb, tapılır.

Ancaq buna baxmayaraq, yenə cibgirliklə məşğul olan adamlar var. Təbii ki, dediyimiz kimi onlar da polis tərəfindən tezliklə axtarılıb tapılır və saxlanılırlar. Və bir də teztez polis avtobus və metroda bu növ cinayətlə bağlı profilaktik axtarış tədbirləri həyata keçirir və bu əməliyyatlar zamanı da cibgirlər saxlanılır.

Ona görə də, son illər ölkəmizdə əvvəlki vaxtlarla müqayisədə bu qəbil cinayətlər azalıb!



**EMİL FAİQOĞLU**



*Arif Səlimov*
*Əməkdar elm xadimi, Fizika-riyaziyyat elmləri doktoru, professor, BDU-nun "Cəbr və həndəsə" kafedrasının müdiri*

# Susuruq, susuruq, ağ eləyirlər və bu şəkildə açıqlamalar eləməyə məcbur oluruq!

**Beynəlxalq indeksli (Web of Science və Scopus) jurnallarda məqalə çap etdirmək istəyənlərə sadə və hər bir kəsin anlayacağı şəkildə açıqlamalar:**

1. MƏSLƏHƏT OLUNUR: On-line səhfələrindən bütün məqalələri pulsuz endirib oxumaq mümkün olan jurnallar. Bu jurnallara bəzən PULSUZ "Open Access" ( Açıq daxilolma) jurnallar da deyirlər, hətta web səhfələrində bu jurnallar qeyd yazırlar ki, jurnalımız pulsuz açıq daxiloma jurnalıdır;

2. MƏSLƏHƏT OLUNUR: Hibrid jurnallar, bunlarda məqalələrin əksəriyyəti pulsuz çap olunur və onlara abunəliyi olan qurumlardan və kitabxanalardan pulsuz oxumaq olur. Amma alternativ olaraq bu hybrid jurnallarda az sayda müəllifin istəyinə bağlı olaraq pullu "Open Access" variantı ilə də çap olunmaq var (əgər müəllif elmi işini dünyaya kitabxanara ehtiyac duymadan həmən açmaq istəyirsə). Hybrid jurnallar variantını əsasən Springer, Elsevier, World Scientific və s. kimi məşhur şirkətlərin nəşriyyatları tətbiq edir;

3. MƏSLƏHƏT DEYİL: Tam pullu "Open Access" olan jurnallar. Bu jurnallar bütün məqalələri pul ilə çap edirlər. Bu jurnalar hüquqi olaraq öz işlərini dəqiq qururlar, səhfəlirində yazırlar ki, biz məqalələri pul ilə çap edirik. Bu pulu müəllif, ya da onun sponsor təşkilatı ödəyir.

Belə jurnallar səhfələrində məqalələrin çapında "Article Processing Charge" yazaraq, vergilərini ödəyirlər, hüqui olaraq özlərini təmizə çıxarırlar. Belə jurnallarda yüksək səviyyəli məqalələrə rast gəlmək qeyri- mümkündür. Burada çap olunan müəlifin məqsədi indeksli jurnala düşməkdir;

4. MƏSLƏHƏT DEYİL: Bu jurnallar web səhfələrində "Article Processing Charge" (Məqalə çap olunma prosesi qiyməti) yazmayır, amma müəlliflərdən məqalə üçün qeyri-leqal şəkildə pul tələb edir, yəni hüquqi şərtlərə əməl etmir. Bu çox təhlükəlidir.

Bu jurnallardan da yüksək keyfiyyətli məqalə gözləmək qeyri- mümkündür. Burada müəllifin məqsədi ancaq indeksli jurnala düşməkdir.

***P.S.** 3-cü və 4-cü bənddəki jurnallar ümumiyyətlə fake (bəziləri buna yırtıcı deyir) jurnallar deyil, amma olmaq "potensialları" var, misallar mövcuddur.*

# "Zorakılıq bir anda psixoloji partlayış nəticəsində baş verir..."

**"Kişi evə işdən və ya məclisdən alkoqollu halda qayıdır. Qadın onu yeməyin hazır olmaması, ya da uşaqların səs-küy salması ilə qarşılayır. Kişi ani şəkildə qəzəblənir, səslənən hər sözə hörmətsizlik kimi reaksiya verir. Qadına qarşı fiziki zorakılıq (vurmaq, itələmək) və ya psixoloji təqhir (söymək, alçatlmaq) tətbiq edir".**



Bunu Adalet.az-a açıqlamasında "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova deyib. Ekspertin sözlərinə görə, mövcud vəziyyətdə kişidə planlı nəzarət yoxdur:

"Bu, nəzarətçi-dominant tipdən fərqlidir. Zorakılıq bir anda psixoloji partlayış nəticəsində baş verir. Zərərçəkmiş qadın çox vaxt deyir: "Normal vaxtı mehriban insandır, amma əsəbləşəndə özünü idarə edə bilmir".

Sosial kontekstdən nəzər salsaq, kənd yerlərində bu tip zorakılıq çox vaxt məişət səbəbləri ilə baş verir. Məsələn, çay isti olmadı, uşaq sakit dayanmadı. Şəhərdə isə daha çox işsizlik, maddi sıxıntılar və stress fonunda müşahidə olunur. Bəzi hallarda kişi qəzəb partlayışından sonra üzr istəyir, hətta qadına hədiyyələr alır, amma bir müddət sonra zorakılıq təkrarlanır.

Bir qadın bizə ifadəsində bunları deyir:

"Ərim əsəbləşəndə gözümün içinə baxmır, bir anda qışqırır, qabları sındırır, uşaqlar qorxudan ağlayır. Əsəbi keçəndən sonra deyir ki, "mən elə demək istəmirdim, əsəbləşdim". Mən bilirəm ki, o, məni planla incitmir, amma özünü saxlaya bilmir. Elə buna görə də hər dəfə qorxu içində yaşayıram"".

**Vasif ƏLİHÜSEYN**

## *İnterpol xətti ilə axtarışda olan 12 nəfəri Türkiyəyə ekstradisiya edilib*




**Gürcüstan, Almaniya, Avstriya və Fransa İnterpolun qırmızı bildirişləri ilə beynəlxalq axtarışda olan 12 nəfəri Türkiyəyə təhvil verib.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyənin daxili işlər naziri Ali Yerlikaya məlumat yayıb. Qeyd edilib ki, təhvil verilənlərin əksəriyyəti Gürcüstandan (yeddi nəfər) ölkəyə gətirilib. Almaniya hakimiyyəti axtarışda olan üç nəfəri, Avstriya və Fransa isə hər biri bir nəfəri Türkiyəyə təhvil verib. "Bu kateqoriyadan olan şəxslər qəsdən adam öldürmə, oğurluq, fırıldaqçılıq, soyğunçuluq, narkotik qaçaqmalçılığı və digər cinayətlərdə ittihamlar ilə axtarışda idilər", - deyə türk nazir bildirib. Türkiyənin daxili işlər naziri əməkdaşlığa görə İnterpola və Avropa İttifaqı Polis Xidmətinə (Avropol) minnətdarlığını bildirib.

# "Heç bir halda qızılın ilin əvvəlidəki qiymətinə qədər enəcəyini gözləmirəm..."

**"Bu il qızıl sıçrayışla təxminən 4 380 dollara qədər yüksəldi, amma sonra artım dayandı və cüzi geri addımlasa da ciddi eniş baş vermədi. Bunun səbəbi qızılın bahalaşmasını dəstəkləyən fundamental faktorların hələ də qüvvədə qalmasıdır. Ona görə də qızıl nə kəskin geri çəkilir, nə də yeni güclü yüksəlişə başlayır. O "yatır", amma "yuxulamayıb" və növbəti mərhələni gözləyir".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

İqtisadçı bildirib ki, bu vəziyyəti belə təsvir edək:

"Təsəvvür edin, minalar qurulub, amma yeni qurulan minalar hələ partlamayıb. İndi isə bu minaların nələr olmasına baxaq:

Çin-ABŞ rəqabəti günü gündən kəskinləşir.

Çin və ABŞ-nin Venesuela üzərində təsir savaşı və bu ölkəyə müdaxilə ehtimalı qalır.

Qlobal borc böhranı riskləri artır.

Mərkəzi bankların, xüsusilə Çin, Türkiyənin, Rusiyanın, Hindistan və Yaxın Şərq



ölkələrinin rekord həcmdə qızıl alışı davam edir.

Dolların qlobal dəyər itirmə riski artır və onun dünya rezerv valyutası kimi rolu zəifləyir. İtaliyanın Avropa Mərkəzi Bankından öz qızıl ehtiyatlarının geri qaytarılmasını tələb edir. Bu isə Avropada qızıl siyasətinin dəyişməsinə işarədir. Deməli, qızılı bu səviyyələrə qaldıran səbəb minaların partlaması yox, onların bir-birinə yaxın məsafədə qurulması idi. Yəni risklərin artması artıq qiymətə daxil olub".

O, bildirib ki, yaxın Şərqdə baş verənlər və Rusiya-Ukrayna müharibəsi isə minaların qurulmasına şərait yaradaraq qızılın hazırkı qiymətində tam əks olunub:

"2026-cı ildə bu minalar zərərsizləşdirilsə, qızılda müəyyən eniş ola bilər. Amma heç bir halda qızılın ilin əvvəlidəki qiymətinə qədər enəcəyini gözləmirəm. Yox, əgər bu minalardan biri belə partlasa qızıl sürətlə arta bilər. Artımın hara qədər davam etməsi isə hansı minanın və ya hansı minaların partlamasından asılıdır. Qısası, qızıl bu gün gözləmə mərhələsindədir. Minalar yerindədir, sadəcə hansısa hadisənin onun üzərinə toxunmasını gözləyir. Amma 2026-cı ildə bu minalardan hansısa birinin zərərsizləşdirilməsi və ya partladılması ehtimalı çox aşağıdır. Böyük ehtimal ki, 2025-ci ildə olan qeyri-müəyyənlik və geosiyasi xaotiklik 2026-cı ildə də davam edəcək. Üstəlik, ABŞ-nin kəskin xarici siyasəti bu qeyri-müəyyənliyi təkcə 2026-da deyil, böyük ehtimalla 2027-də də davam etdirəcək. Odur ki, qızıl (investisiya qızılı, zərgərlik deyil) yenə də uzunmüddətli investisiya məqsədləri üçün ən etibarlı investisiya aləti olaraq qalacaqdır".

**Vasif**

## *"Bu mənada Türk dövlətləri birliyini tarixin ən böyük sınağı gözləyir..."*



**"Putin Bişkekdə dedi ki, onun Ukraynada döyüşən ordularının Avropaya girmək niyyəti yoxdur və bu haqda o, yazılı zəmanət sənədi də ortaya qoya bilər. Putinin məqsədi, əlbəttə, Ukraynaya yardım edən Avropanı aldatmaqdır. Ona elə gəlir ki, Trampın simasında artıq ABŞ-ni aldadıb qurtarıb. Avropada yaxşı başa düşürlər ki, iştah diş altındadır. Ukraynanı işğal etsə, Rusiya ən azı keçmiş sovet məkanını, ən çoxu Avropanın da yarısını yenidən öz siyasi və iqtisadi orbitinə qaytarmağa ciddi cəhd edəcək. Açıq desək, işğal edəcək".**

Adalet.az xəbər verir ki, bunu yazıçı Səfər Alışarlı deyib. Onun sözlərinə görə, Putinin göz dikdiyi əsas regionlar Cənubi Qafqaz və Türküstandır:

"Moldovanın, ya Estoniyanın nəyini işğal edəcək?! Xəbər agentlikləri guya Putinə cavab vermiş Ərdoğanın "ordu göndərə bilərik" sözlərini sitat gətirirlər. Ancaq başa düşmək olmur bunun necə, nə üçün deyildiyini. Deyilibsə, anlaşılmaz deyilib.

Deyilməyibsə, ondan da pis. Çünki Putinin əsas hədəfi türk dövlətlərini işğal etməklə Rusiya daxilindəki labüd parçalanmanın qarşısını almaq və sovet hakimiyyətini yeni sümürgəçi funksionallıqda bərpa etməkdir. Rusiya bu qaçılmaz cəhdi Ukraynada qalib gəlsə də edəcək, məğlub olsa da. Digər tərəfdən məhz bu territoriyalar uğrunda Rusiyanın hərraca qoymağa, daha doğrusu, ABŞ-yə və yaxud Çinə peşkəş etməyə çoxlu resursları var.

Bu mənada Türk dövlətləri birliyini tarixin ən böyük sınağı gözləyir. Qırğızıstan rəhbəri Cabbarov rezidensiyasının qabağına tələm-tələsik dağ boyda bir reklam şiti tikdirdi ki, ora gələn Putin qarşıdakı Ukrayna səfirliyinin binasını görməsin. Bu səbətla türk birliyi yaratmağın çətinliyini başa düşmək lazımdır. Bu Cabbarovları vahid vertikala düzmədən onlara inanmaq və etibar etmək olmaz.

Tarixi zərurət yetişmişkən, Türk birliyi NATO ilə bərabər Ukraynaya hər cür yardım yardım etməlidir ki, Rusiya imperiyası dağılsın. Kənardan dağıtmayınca o duracaq. O dağılmayınca nə Avropanın, nə də bütün dünya türklərinin dincliyi olacaq".

**Eldar**

## *Ədalət Verdiyev: "Düşmən buna görə Laçını döyüşsüz qaytarmağa məcbur oldu..."*



**"Laçın Azərbaycan üçün daim böyük strateji əhəmiyyət kəsb edib. Bura sadəcə bir rayon ərazisi deyil. Laçın Ermənistanla sərhəddə yerləşən və otuz ildən artıq davam edən işğal dövründə məhz Ermənistanın Qarabağ ilə əlaqəsini təmin edən bir coğrafi məkan idi. Bu ərazinin böyük bir hissəsinin bir güllə atılmadan belə Azərbaycanın nəzarətinə keçməsi qəhrəman ordumuzun müharibədə götərdiyi böyük fədakarlığın, qəhrəmanlığın nəticəsi idi ki, düşmən digər iki rayonumuzla bərabər Laçını da Azərbaycana qaytarmağa məcbur oldu".**

Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev Laçının işğaldan azad olunması haqda danışarkən deyib.

O, bildirib ki, Laçının işğal tarixini deyil, işğaldan azad edilməsi gününü qeyd etdiyimiz üçün çox xoşbəxtik:

"Bu gün Laçın dağlarında Azərbaycan bayrağı dalğalanır. Laçının azad olunması və Laçında sərhəd-keçid məntəqəsinin qurulması birmənalı olaraq Azərbaycanın sərhəd bötövlüyünün təmin olunması ilə başa çatdı. Bu gün biz Laçında hərbi infrastrukturlar yaratmışıq, kifayət qədər ciddi sayda hərbi hissələr yerləşdirmişik, əsgərimiz Laçın dağlarından tarixi torpaqlarımızı müşahidə altında saxlayır".

Ekspert deyib ki, bu gün ermənilər artıq əmin olublar ki, Azərbaycan əsgərinə qarşı istənilən fəaliyyət onlar üçün çox böyük fəlakətlərə gətirib çıxara bilər:

"Digər azad olunmuş ərazilər kimi Laçın dağlarında üçrəngli bayrağımız qürurla dalğalanır və hər bir Azərbaycan vətəndaşı, ordusuyla, bayrağıyla, azad edilmiş əraziləri ilə, o cümlədən Laçını ilə qürur duyur və fəxr edir. Bu gün dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməkdə olan Laçının hər dağında, hər daşında, hər qayasında qəhrəman Azərbaycan əsgərinin nəfəsi duyulur. Biz bu torpaqları şəhidlərimizin qanı və canı bahasına azad etmişik və bu torpaqlarda əbədi yaşayacağıq".

**Sübhan**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# QARABAĞ HAVALI İLLƏR

## Akademik, Xalq yazıçısı Kamal Abdullanın doğum gününə

**Boynuma məsuliyyətli bir iş götürmüşəm. Amma könüllü. Necə deyərlər, ürəyimin hökmü ilə. Bunu ona görə xüsusi vurğulayıram ki, Azərbaycanda və bütövlükdə onun sərhədlərindən kənarda oxucunun tanıdığı bir imza sahibi barəsində düşüncələrimi ifadə etmək istəyirəm. Bu istək də elə-belə yaranmayıb. Hələ tələbəlik illərindən tanıdığım və daha çox ədəbi tənqidi yazılarını izlədiyim müəllifin şeirlərinə rast gələndə daxilən öz-özümə belə bir açıqlama verdim. Yəni özümə dedim ki, ədəbiyyatın hər üzünü bilən, onu tənqid və təbliğ edən bir ədəbiyyatşünasın şeirə könül verməsi - bu, mənə görə İlahi bir pıçıltıdır. O pıçıltı gəlib dilin ucuna çatanda şeirə çevrilir. Zaman şəxsən mənə sübut etdi ki, "Kədərli seçmələr"dəki şeirlərlə müəllif oxucu duyğularını necə də ələ almağı bacarır, onlarla necə həmsöhbət olur və öz hisslərini həmin hisslərin fonunda kədər donundan çıxarıb ümid, istək, vüsal biçimində ortaya qoyur.**

İllər mənə fürsət verdi ki, barəsində yazdığım bu müəllifin bir-birindən sanballı hekayə, povest və romanlarını da oxuyum. Elə buradaca xüsusi vurğulamalıyam ki, mən "Sehrbazlar dərəsi", eləcə də "Nar çiçəkləri" kitablarını özümə yol yoldaşı da etdim. O kitablarla uzaq səfərə də çıxdım. Çünki ayrıla bilmirdim, sözün həqiqi mənasında, "Sehrbazlar dərəsi" məni sehrləmişdi. "Nar çiçəkləri" məni otuz il həsrətini çəkdiyim kəndimə çəkib aparmışdı. Və günlərin birində də böyük Füzuli barəsində esselərdən ibarət kitab çıxdı qarşıma. Təvazökarlıqdan uzaq olsa da vurğulamalıyam ki, bu esselər məni təkcə Füzuli ilə yox, həm də bu esselərin müəllifi ilə həmsöhbət etdi. Esseləri oxuduqca Füzulini yenidən tanıdım, yenidən öyrəndim, öncə görmədiyim tərəflərini gördüm. Tanıdığım Füzulini filologiya elmləri doktoru, professor, akademik, Xalq yazıçısı Kamal Abdulla mənə yeni bir dünyanın seyrangahında təqdim etdi. O təqdimatı oxuya-oxuya mən də qələmə sarıldım, mən də içimdə pıçıldadım.

Bəlkə də sizə qəribə gələcək. Hardasa məni qınayanlar da olacaq. Amma necə deyərlər, vecimə də deyil. Çünki mən ilk dəfə "Deyildim mən sənə mail..." fəlsəfəsini Kamal Abdullanın yozumunda bütünlüklə həzm elədim. Anladım ki, mənim, yəni Füzulinin "sənə mail deyiləm" etirafı adi şeir misrası deyil, adi qəzəl misrası kimi yaddaşa yazılmır. Burda necə qat dərinlik var... burda neçə qat əlçatmazlıq var... Və mail olmayanın yerlə göy arasında, nəhayət ki, tapdığı bir nöqtə var. Ona görə də o, Füzuli fövqüylə, Füzuli hayqırtısıyla çox rahat şəkildə pıçıldayır. Siz o pıçıltıya fikir verin...

...Deyildim mən sənə mail...

Eşidə bildinizmi? Əgər eşitdinizsə, onda akademik Kamal Abdullayla, daha doğrusu, onun şərhiylə həmfikir olacaqsınız. Necə ki, mən bu pıçıltıdan doğulan, boy göstərən Füzulini bütöv halda gördüm, dinlədim. Həmin o işığın içində bir ağ yol da var idi. Orada hər kəsin getmək istədiyi, amma gedə bilmədiyi, hər kəsin olmaq istədiyi, amma ola bilmədiyi ilahi bir aşiqlik var. O aşiqlik akademik Kamal Abdullanın şərhindən sonra mənə Füzulini ruh kimi göstərdi. Hamıya nüfuz edə bilən, özü də hamıda zərrələri olan ruh kimi. Düşündüm və inandım ki, akademik Kamal Abdullanın Füzulini Allah bəndəsi - insan kimi deyil, yerlə göyün arasındakı ruh kimi görməsi ən böyük tapıntıdı.

"Mənim Füzulim"in bir nüansı da yaxamı buraxmır. O da akademik Kamal Abdullanın məni inandırdığı daha bir gerçəkdir. O gerçəyin adı Füzulinin Səyyah olmasıdır. Elə bir Səyyah ki, hər yerə gedə bilir... hər məqamı dəyərləndirməyi bacarır... hər mənzərəni özünə və özünü də ona köçürməyi diqqətindən yayındırmır... Eyni zamanda, bu Səyyah dayanmır, yatmır, dincəlmir. Həyatın özünü də özündə görür. Ona "tən eyləyən" qafili də, onun"əqlini zair" edəni də tanıyır. Bunların heç birinə isə iynə ucu boyda da olsun təpki gəlmir, acı münasibət göstərmir. Çünki o, Füzulidi! İnsan kimi, bəndə kimi çoxdan Yer üzündən köçmüş, amma şeyx kimi, ruh kimi, ŞAİR kimi bütün zamanları keçib gələn və keçib getməkdə də davam edən Füzuli!



***

"Tifl həm cövlan edər, amma ağacdan atı var..."

Misraya fikir verin. Onda müəllifin Füzuli qəsidəsindən götürdüyü bu misranın nəyə istinad nöqtəsi olduğunu yavaş-yavaş duymağa, anlamağa başlayacaqsınız. Ona görə yavaş-yavaş deyirəm ki, bu misranın tutumu, həcmi və bir də onun insanın duyğularına olan təsiri o qədər böyükdür ki, onu dərhal həzm etmək, dərhal özününküləşdirmək mümkün deyil. Bunun üçün mütləq Füzulinin bir zərrəsinə çevrilməlisən. Müəllifin dediyi kimi, öncə özünü xatırlayacaqsan, öz xatirələrinə baş vuracaqsan... Və bir də baxıb görəcəksən ki, uşaqlığın düz orta göbəyində dayanmısan.

***

Mən Məcnundan artıq aşiqliyi olan Füzulinin dünyalarca dərdi çəkmək gücünə qadir olduğuna bütün varlığımla artıq birmənalı inanıram. Və bir də akademik Kamal Abdullanın bu essesinin işığında görürəm ki, Füzulinin təəssüfünün özü də hardasa bir tərənnümdü, bir səmimi etirafdı. Yaşamın Füzuli kimi, Füzuli adlı etirafı!..

***

Hər kəs fərd olduğu kimi, onun fikirləri də fərdidir və fərqlidir. Yəni demək istəyirəm ki, mənim "Bir dərdli macəra imiş eşq..." essesinə baxışım da özümünküdür. Ona görə də elə fikirlərimi bir növü öz macəram kimi şərh etmək niyyətindəyəm. Demək istəyirəm ki, qəlbində sevgi adlanan duyğunun hansı ölçüdə olmasından asılı olmayaraq, onun özəl macərası da var. Çünki sevgi, eşq bir aşiqin yaşamıdı. Və bu yaşamın da adı macəradı. Ona görə ki, burda həqiqətən MACƏRA var. Macəra həm gerçəklikdi, həm də xəyal... həm olmuşdu, həm olan və hətta olacaq... həm yuxudu, həm reallıq... Deməli, bütün bunlar bir ömürdü - Eşq adlanan ömür. Füzulinin də dərdli macəra adlandırdığı eşq, hörmətli Kamal Abdullanın vurğuladığı kimi, həm də yaşamın tarixidi. Axı, həqiqətən eşq yaşanır. Yaşanılan isə ömrə, günə çevrilir. Ömür-gün də öz növbəsində bir insan həyatıdır. Və bu həyat da elə tarix deməkdir. Onu biz xatırlayırıqsa, onu biz yaddaşımızda təzələyiriksə, onun acısını, şirinini unuda bilmiriksə, buna "Tarix"dən başqa bir ad vermək mümkündürmü?

***

Kamal müəllim deyir ki, "Füzuli başdan-başa Səsdi". Mənim də eşitdiyim səs Füzulinin səsidi. O qədər doğmadır ki, canımdan artıq sevdiyim insanın səsinə bənzəyir, ruhumu oxşayır - anamın laylası kimi... sevdiyimin pıçıltısı kimi... nəvəmin qığıltısı kimi... və bir az da Tanrı sədası kimi... Bu bənzətmələrim söz xatirinə deyil. Əksinə, bu bənzətmələr Göy üzündən gələn, şimşəkləri, buludları çəkib yerə gətirən, ulduzları axmağa məcbur edən, Ayı bədirləndirən səsdi... Və bu səs həm də Məcnunun səsidi... Leylinin hıçqırtısıdı... Və nəhayət, elə bu səs, Kamal müəllim dediyi kimi, Füzulinin özüdü...

***

Deməli, sevginin, vüsalın evi olan ürəyimiz bu nöqtədə səsin işıqlandırdığı saray qədər möhtəşəmdir. Bu möhtəşəm saraydan gələn səs Məcnundan artıq aşiqliyi olan bir şairin, yəni Füzulinin əl çatmayan ucalığıdır. Sadəcə olaraq, biz o ucalığı görür, dinləyirik. Məndən və bir çoxlarımızdan fərqli olaraq, müəllif o ucalığa neçə köynək yaxın, neçə qat doğmadır.

***

Mən bir oxucu olaraq Kamal Abdullanın təqdimatında dərk etdim ki, Füzuli son məqama qədər Məcnunla ya yanaşı dayanır, ya özü Məcnunu kənardan izləyir. Yalnız Məcnun Leylinin anası vasitəsilə göndərdiyi məktubu oxuyub ona qovuşmaq üçün Ölümü seçib qəbul edəndən sonra Füzuli bir şair kimi sanki silkələnir. Hiss edir ki, Məcnun onu üstələdi, özünü sevgisinə qurban verdi. Leyliyə qovuşmaq üçün ölüm ona vüsal yolu oldu. Bax, burda Füzuli dözmür. Özünü artıq Məcnunu yaradan, idarə edən, təqdim edən müəllif hüququndan istifadə edərək vurğulayır ki, "Məndə Məcnundan füzun aşiqlik istedadı var"! Və ardınca da vurğulayır ki, aşiq elə mən özüməm, Məcnunun isə adı var. Deməli, Füzuli bu etirafıyla həm müəllif hüququnu qorumuş olur, həm də özünün bir sevdalı qısqanclığını dilə gətirir. Oxucunun Məcnuna olan sevgisini özünə yönəldir, diqqəti özünə çəkir.

***

Müəyyən hissələrini təqdim etdiyim və ürəyimdə yaranıb yazılmasına "Mənim Füzulim" esselərinin səbəb olduğu silsilə yazılarımı həyatımın həm Füzuli ilə, həm böyük sevgi ilə, həm də buna vəsilə olan müəlliflə doğmalıq müstəvisində yaşadım. Özümü onların çevrəsində gördüm. Bu da mənə inam, ümid verdi ki, işığa doğru, dərinliklərə doğru getmək nə qədər çətin olsa da, amma iradə nümayiş etdirmək, məqsəd ortaya qoymaq nə faciə deyil, nə də tərki-dünyalıq. Bu, ən pis halda özünü pərvanə kimi şamın çevrəsində görməkdir. Deməli, söhbət NURdan gedir. O NURu da mən oxucuya "Mənim Füzulim"in müəllifi nişan verdi.

Burda bir haşiyə çıxmaq istəyirəm. Bir mətbuat işçisi olaraq dəfələrlə akademik Kamal Abdulla ilə görüşmüşəm, müsahibə də almışam, fikirlərini də öyrənmişəm, məsləhətlərini də dinləmişəm. Onun səmimiyyətini, həmsöhbətinə necə açıq olduğunu, fikirlərini zərgər dəqiqliyi ilə ifadə etməsini də çox izləmişəm. Bunlar ola bilsin ki, digər həmkarlarım üçün də bu və ya digər formada olub. Amma mənim həyatımda elə bir an, elə bir məqam var ki, onu qiymətləndirməyə bəzən ifadə tapmıram. Bu da yaradıcılığımla bağlı Kamal müəllimin mətbuatda oxuculara təqdim etdiyi fikirlərdir. Doğrusunu deyim ki, həyatımın bir yazı adamı kimi ilk böyük mükafatını Xalq şairi Bəxtiyar Vahabzadədən və Xalq yazıçısı Elçin Əfəndiyevdən almışdım. Bu unudulmaz simaların, söz xiridarlarının verdiyi mükafatı Kamal müəllim "Qarabağ havası" adlı yazı ilə daha da şərəfləndirdi, daha da möhtəşəm etdi. Heç vaxt ağlıma gətirmədiyim bu mükafat mənim üçün yaradıcılığıma böyük ədəbiyyat adamının baxışı idi

Oxuculardan üzr istəyirəm ki, gündəmə gətirdim, amma yazmaya bilməzdim. Çünki bu, Kamal Abdullanın sadəliyinin, səmimiyyətinin, qələm adamlarına sayqı və diqqətinin göstəricisidir. Mən bu diqqəti öz həyatımda unudulmaz bir an kimi yaşadım və yaşayıram. Və

Bu gün ömrünün 75-ci ilini tamamlayan, əsərləri dünyanın bir çox dillərinə tərcümə olunmuş, yaradıcılığı geniş tədqiqat mövzusu olan, fəaliyyəti nümunə göstərilən Kamal müəllimin yubileyi ilə bağlı zaman-zaman içimdə yazıb hazırladığım fikirləri, diləkləri bu gün elə içimdə də saxladım. Çünki mən özümü onları yaşadığım kimi, yazdığım kimi təqdim etməyə tam hazır görmədim, tərəddüd etdim. Biraz da düşündüm ki, mənim içimdə olanları ifadə etməyim nə qədər doğru ola bilər?..

**Bəli, elə bu düşüncə ilə Kamal müəllimə Qarabağ havalı günlər arzumu, yaradıcılıq uğurlarının tükənməzliyini kağıza köçürürəm. Düşünür və inanıram ki, Kamal Abdulla qazandığı öz zirvəsindən üzü Qarabağa baxanda mənim ürəyimdəkiləri görəcək. Yubileyiniz mübarək, Kamal müəllim!**

# Müqəddəs borcun kölgəsində



*Arzu NEHRƏMLİ,*
*Şair, yazıçı,*
*tarix üzrə fəlsəfə doktoru*

**Xatiri mənə öz dünyam qədər əziz olan Zemfira xanım Məhərrəmlinin yazıçı kimi də, jurnalist kimi də yaradıcılığının əhatə dairəsi kifayət qədər genişdir. Onun qələmindən çıxan publisistik yazılarda hadisələrin ictimai fonu, bədii əsərlərində isə insan talelərinin duyğu, həssaslıq dolu dil ilə danışan obrazlar aləmi diqqət çəkir. Bu əsərlərdə mənim ruhuma və ürəyimə daha yaxın olanlar isə müharibə mövzusuna həsr olunmuş sənədli hekayələrdir. Həmin hekayələrdə dramatik tarixi hadisələrlə bərabər, insanların qəlbindəki ağrı, qürur, itki və ümid bir-birinə qarışır, bir-birini tamamlayır.**

Buna da heç şübhəniz olmasın ki, bu yaxınlığın səbəbi təkcə ədəbi zövq, bəyənib-bəyənməmək seçimi deyil. Burada mühüm rol oynayan müharibə mövzusunda yazılmış əsərlərlə mənim "tale qohumluğumdur". Müharibənin qanlı əlləri mənim də taleyimin bir parçasını qoparıb əlimdən aldı. Bunu Zemfira xanımın özü də bilir. Ona görə bu hekayələrdə təqdim olunan hər qadın, hər ana, hər döyüşçü mənim üçün kitabda yaşayan obraz deyil, biz az da mən özüməm. Sətirlərin arasından yüksələn səslər, qırılmış talelərin əks-sədası mənimlə o qədər can-ciyər, cici-bacıdır ki...

Zemfira Məhərrəmlinin müharibə mövzulu əsərlərinin böyük əksəriyyəti qəhrəman Ordumuzun Vətən müharibəsində qazandığı şanlı zəfərdən əvvəl yazılıb. Mən bunu yazıçının mənəvi cəsarətinin, milli dəyərlərimizə sədaqətinin göstəricisi hesab edirəm. Düşünürəm ki, bu ağrılı əsərlərin fərqli cəhəti onların xalqın ruhunun ən dərin qatlarından süzülüb gəlməsindədir. Həmin əsərlər yazılan illərdə hər birimiz torpaq itkisini bədənimizdə qəlpə kimi gəzdirir, qan sızan yara kimi daşıyırdıq. Hər yazı, hər xatirə, hər hekayə həmin açıq yaranın üstündən basan bir barmaq idi, yaranı qaysaq bağlamağa qoymurdu. Çünki belə lazım idi: unutmamaq, vərdiş etməmək, barışmamaq üçün!

Zemfira Məhərrəmlinin o dövrdə yazdığı sənədli hekayələr tarixin dərinliklərindən gələn səsi, harayı qoruyurdu. Yazıçı bizə xatırladırdı ki, o səs kəsilsə, ayağımızın altındakı torpaq bizdən üz döndərə bilər.

Zemfira xanımın qəhrəmanları həyatdan gələn, lakin zaman keçdikcə əfsanələrə qarışan insanlardır: ağrının içində Vətənlə bütövləşən analar, şəhid qardaşının, sevgilisinin yolunu davam etdirən qızlar, ocağın odunu sönməyə qoymayan, külü yelləyib altındakı qoru alovlandıran qadınlar. "Ağ atlı qız" hekayəsi sənədli-sübutlu dəqiqliklə yazılsa da, dəqiqliyə poetik ruh hopduran mətndir. Burada müəllif oxucunu hadisələrin arxasınca aparmır, ruhun dərinliyinə qovuşdurur. Hekayənin qəhrəmanı - ön cəbhənin əsgəri Nərmin həm şəfqətin, həm də insan iradəsinin təcəssümüdür. Müəllif onun içindəki qadın zərifliyini və qorxunu yenən, qorxudan yüksəyə qalxan mərdliyi oxucunun gözləri önünə gətirir.

Nərminin başına gələnlər əslində qadın ruhunun sükunətdən döyüşə, mərhəmətdən müqavimətə keçidinin hekayəsidir. Qardaşının şəhid olması ilə onun içindəki dünyanın iqlimi dəyişir, qardaş itkisinin ağrısı çağırışa çevrilir, onu döyüşə aparır. Amma bu hər kəsin içində baş qaldıra biləcək qisasın çağırışı deyil, vicdanın harayıdır. Hər döyüş səhnəsində, hər yaralının qanı içində o həm düşmənlə, həm də taleyin amansızlığı ilə vuruşur...

Hekayədəki ağ at obrazı həm təmizlik, həm azadlıq, həm də müqəddəslik simvoludur. Ağ köhlən belində döyüşə gedən qız oxucu ilə nağıllarımızdakı qəhrəmanlıq ruhu arasında körpü salır. Zemfira Məhərrəmli sanki "Ağ atlı oğlan" nağılını yenidən yazır: darda qalan insanın dadında çatan igidi, igidliyi qadın simasında, şəfqət və mərdliyin birləşdiyi varlıqda göstərir. Beləliklə, "Ağ atlı qız" torpağın dərdini daşıyan yaddaş abidəsinə çevrilir. Hekayənin sonundakı səhnə - baş həkimin "sizin ağ atlı qızınız yaşayacaq" cümləsi həm təsəlli, həm də dua kimi səslənir. Nərmin döyüşdən sağ çıxır, lakin içindəki döyüş səngimir.

"Rəhilə və Həsən Qorxmaz əfsanəsi" hekayəsi isə sənədli faktların dilində yazılmış sevgi və qəhrəmanlıq poeması. Bu hekayədə həyatla ölüm, sevgi ilə Vətən, qadınlıqla döyüşçülük bir-birindən ayrılmır. Onlar bir yerdə: eyni səngərdə, eyni torpağın nəfəsində, eyni iqlimin havasındadır. Zemfira xanımın sənədli hekayələri içində bu əsər əfsanəyə çevrilmiş reallığın hekayəsi kimi maraq doğurur. Burada hadisələr yaddaşın dərinliyindən səslənən xalq əfsanəsi kimi təqdim olunur. İlk cümlə - "Biri varıydı, biri yoxuydu" oxucunu yaddaşı ilə yaşıd olan nağıl dünyasının sehrinə salır.

Müharibə deyəndə ilk növbədə təsəvvürümüzə ölümlə üz-üzə olan, öldürən, ölən kişi dünyası gəlir. Rəhilə isə müharibənin kişi dünyasında öz qadın kimliyini itirmədən qəhrəmanlaşan bir insandır. Rəhiləni müharibəyə getməyə heç kim məcbur etməyib, bu addımı atmaqla o, vicdanın çağırışını yerinə yetirib. Müəllifin təqdimatında bizim müasirimiz olan Rəhilə qəhrəmanlığın rəmzinə çevrilir: Qubadlı döyüşlərində vuruşan bu gənc qadın Azərbaycan qadınının ümumiləşdirilmiş rəmzi - Ana Torpağın qızı, Qarabağ namusunun qoruyucusu kimi yüksəlir.

Rəhilə ilə Həsənin sevgisi bu hekayədə insanın insana deyil, vətəndaşın Vətənə, doğma torpağa sevgisinin ifadəsi kimi təqdim olunur. Onların səngərdə doğulan, odun, alovun içində bişib bərkiyən sevgisi şəhidliklə tamamlanır. Bu, hekayəyə sonsuz bir dərinlik qazandırır, sanki torpaq bu iki gənci öz qoynuna sevgililər kimi deyil, müqəddəs əhdpeymana sədaqətin daşıyıcıları kimi alır.

Zemfira Məhərrəmli bu hekayədə oxucunun duyğuları ilə oynamır, şəhidliyin ucalığını göstərir. Həsənin döyüşçü dostunun xatirəsinə "Qorxmaz" adını götürməsi, Rəhilənin isə onun təxəllüsünü öz adına əlavə etməsi ("Rəhilə Qorxmaz") qəhrəmanlığın əfsanələşməsini təmin edir. Burada adla insanın taleyi birləşir, ad ölümün içində ölümsüzlüyə çevrilir.



Əsərin dili səmimi və təbiidir. Müəllif çox zaman xalq danışığının ritmini qoruyur, hadisələri qəhrəmanların ruhuna uyğun təqdim edir. Bu, əsərin sənədlilik əsasına bədii nəfəs verir. Zaman-zaman sanki müəllif deyil, öz övladlarını döyüşə yola salan, sonra da əfsanə kimi geri qaytaran xalq danışır. Hekayənin sonunda Rəhilənin ölüm səhnəsi faciə deyil, yüksəlişdir. Müəllif onun şəhidliyini sonluq kimi deyil, başlanğıc kimi təqdim edir. Həsənlə birləşən ruhlar artıq "Rəhilə və Həsən Qorxmaz əfsanəsi" kimi xalq yaddaşında yaşayır.

Bu hekayə müharibənin yalnız məğlubiyyət və ya qələbə ölçüsü ilə deyil, insanın mənəvi ölçüsü ilə dəyərləndirildiyi mətnlərdəndir. Rəhilə və Həsənin obrazında biz sadəcə iki gənci deyil, xalqın məğlubiyyətlə barışmamaq ruhunu, Vətən sevgisinin ölməzliyini görürük. Onlar torpağın altında deyil, torpağın üstündə yaşayan sözün qəhrəmanları kimi yadda qalır.

"Əbədiyyət nəğməsi"ndə obraz və üslub bir-birini tamamlayır: burada həm bir qadının qəhrəmanlıq portreti çəkilir, həm də bu portretin xalq yaddaşında necə əfsanələşdiyi göstərilir. Mətndəki ünvanlı müraciət - "Amma sən bu nəğməni heç vaxt eşitməyəcəksən, Qaratel!" oxucunu şəhidin ruhu ilə birbaşa söhbətə, həsrət və nigaranlıq dolu dialoqa çəkir.

Mətnin düzümündə nəğmə, nağıl və sənəd bir-birini tamamlayır. Qaratelin üçrəngli bayrağı tikməsi, mitinqdə dalğalandırması və həmin bayrağın anaya təhvil verilməsi konkret xatirələr olmaqla yanaşı, həm də dərin rəmzi məna daşıyır. Burada bayraq fərdi qəhrəmanlığı və milli oyanışı ifadə edir.

Qaratelin obrazında gündəlik həyatdan doğan cəsarət insani ölçülərdən yüksəyə qalxır. Müəllif onun "avtomat qundağının zərbəsini daddığı" anı xüsusi vurğulayır, bu, qadınlıq ilə döyüşçülük arasındakı sərhədlərin pozulmasıdır. Müəllif göstərir ki, qəhrəmanlıq şüurlu seçimdir, vicdanın və mərdliyin nəticəsidir. Qaratelin "Döyüş zamanı yalnız qorxaqlar ölüm barədə düşünürlər" sözləri onun mənəvi dünyasına işıq salır: onun üçün ölüm qorxunun deyil, Vətən yolundakı müqəddəs borcun kölgəsindədir.

14 iyun 1992-ci il epizodu mətnin dramatik zirvəsidir. Qumbaraatanı götürüb komandirə çatdırması, səngərdən çıxaraq düşmənə qarşı atılması ilə o həm döyüşçü vəzifəsini yerinə yetirir, həm də qəhrəmanlıq nümunəsi yaradır. Avtomat şaqqıltısı, qışqırıq, gözlərin qaralması, uzaqdan eşidilən nəğmə ilə müşayiət olunan səhnənin təsviri oxucuda çoxqatlı təəssürat yaradır. Ölümün gəlişi uşaqlıq çağından gələn nəğmə ilə əlaqələndirilir; son səhnədə sanki qəhrəmanın uşaqlıqdan yaddaşı ilə yoldaşlıq edən səs, həyat nəğməsi zilə yüksəlir.

Qaratelin adı, qəhrəmanlıq hekayələri, mitinqlərdə tutduğu bayraq və sonradan ona qoyulan büst fərdi taleyinin mərhələ-mərhələ milli rəmzə çevrilməsidir. Abidə önündə dayananların "tunc abidədən nəğmə dinləməsi" ilə müəllif onu demək istəyir ki, qəhrəmana qoyulan abidə adi yadigar deyil, xalqı hərəkətə çağıran, ona öz keçmişini xatırladan mətndir.

"Əbədiyyət nəğməsi"ndəki Qaratel tək bir insanın obrazı deyil. O bu gün gözlərimizdə bir qəhrəmanlıq nümunəsi və milli yaddaşın abidəsi kimi ucalır. Zemfira Məhərrəmlinin bu yazısı şəhidlik ilə yaddaşı bir araya gətirərək oxucuda həm dərin kədər, həm də daim eşidilən bir çağırış duyğusu yaradır.

Müəllifin bütün əsərlərinin dili sadədir və bu sadəlikdə təcrübə ilə ağrıdan süzülmüş bir həzinlik var. Hər cümlədən gerçək bir xatirənin nəfəsi duyulur. Oxucu gərgin hadisələrə aludə olmur, xatirənin nəfəsini hiss edir. Oxucunun gözü qarşısında mərmi partlayışının arasında uşaq həsrəti, kazarma sükutunda ananın göz yaşı, hospital işığında həyatla ölüm arasındakı məsafənin bir addım olduğu canlanır.

**Zemfira Məhərrəmlinin müharibə qəhrəmanı həm yaşayır, həm yaşadır; həm ağrını daşıyır, həm də onu sözə çevirir. Bu əsərlər müharibənin qadın ruhunda buraxdığı izlərin od-alov içində doğulan, qanla yazılan, sevgi ilə yoğrulan poetik salnaməsidir...**

# "ChatGPT"də reklamlar olacaq

**OpenAI-nin "ChatGPT" tətbiqinin Android beta versiyasında reklam xüsusiyyətlərinə dair kod sətirləri aşkar edilib.**

Adalet.az xəbər verir ki, 1.2025.329 beta versiyasında "reklam xüsusiyyəti", "axtarış reklamı" və "bazar məzmunu" qeydləri mövcuddur.

Bu, hələ ictimaiyyət üçün əlçatan olmasa da, OpenAI-nin platformada reklam təqdim etməyə hazırlaşdığını göstərir.




Aylar əvvəl "The Information" nəşri OpenAI-nin yaddaş və istifadəçi söhbətlərinə əsaslanan reklamları ChatGPT-də sınaqdan keçirməyi düşündüyünü xəbər vermişdi. Güman edilir ki, ilkin mərhələdə reklam modulları yalnız axtarış funksiyalarına inteqrasiya olunacaq, lakin gələcəkdə bu, süni intellekt ilə digər qarşılıqlı əlaqə növlərinə də şamil oluna bilər.

**Son məlumatlara əsasən, hər həftə təxminən 800 milyon insan "ChatGPT"dən istifadə edir, gündəlik sorğu sayı isə təxminən 2.5 milyarddır. Ən böyük istifadəçi bazasına malik ölkə Hindistandır və o, bu göstəricidə ABŞ-ni geridə qoyub.**

## *Gənc alim, peşəkar neftçi müşavir təyin olundu*



**Bu günlər də Dövlət Neft Şirkətində (SOCAR) yeni təyinat olub.**

Naxçıvan MR -nın Culfa rayonunun Göydərə kəndindən olan gənc alim, peşəkar neftçi Vəliyev Racu Həsən oğlu SOCAR Prezidentinin müşaviri vəzifəsinə təyin edilib. O, bu vəzifəyə təyin olunana qədər SOCAR-ın vitse-prezidentinin müavini vəzifəsində çalışırdı.

## *Bu qidaları qəbul edirsinizsə, ürəyiniz sağlam olacaq*



**Çay, qəhvə, giləmeyvə, qoz-fındıq, kakao, taxıl məhsulları və zeytun yağı ilə zəngin bir qida rasionu uzun müddət ərzində ürək sağlamlığını əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər.**

Adalet.az xəbər verir ki, belə bir nəticəyə London Kral Kollecinin tədqiqatçıları gəlib. On ildən çoxdur ki, alimlər 3100-dən çox iştirakçını izləyiblər. Polifenollarla zəngin bir pəhriz saxlayanların qan təzyiqi və xolesterol səviyyəsi daha yaxşı olub ki, bu da ürək-damar riskinin daha aşağı proqnozlaşdırılmasına gətirib çıxarıb. İlk dəfə olaraq bu məlumatlar polifenol metabolitlərinin - polifenolların bədəndə parçalanması zamanı əmələ gələn molekulların turşululuq səviyyələri ilə müqayisə edilib. Bu birləşmələrin, xüsusən də flavonoid törəmələrinin və fenolik turşuların daha yüksək konsentrasiyası olan insanlarda ürək-damar riski daha aşağı və "yaxşı" xolesterol səviyyəsi daha yüksək olub.

Professor Ana Rodriguez-Mateosun sözlərinə görə, polifenollarla zəngin bir pəhrizə uzun müddət riayət etmək ürək-damar riskinin yaşla bağlı artımını əhəmiyyətli dərəcədə yavaşlada bilər və hətta kiçik, lakin ardıcıl pəhriz dəyişiklikləri - məsələn, giləmeyvə, qoz-fındıq və ya çayın daha tez-tez istehlakı - əhəmiyyətli faydalar verir.



*Sona Çərkəz*
*Yazıçı-publisist,*
*AYB-nin üzvü*

# Həyat imtahandır...

## və ya nə yaxşı ki, yaxşılar var

**Həyat həqiqətən də imtahan, dünya qonaq evidir. İnsanlar bunu dərk edərək yaşamağı bacarırsa, sanıram, minnətdarlıq hissini əsla itirməz, hətta onu itirməkdən qorxarlar. Çörəyi öpüb yerdən qaldıraraq ucaya qoyuruq, çünki çörək tutar insanı, onu yerə atanı, onu itirəni və ya yerdə görüb yanından ötüb keçəni. Bizlərin dar günlərimizdə, acı anlarımızda, yanımızda olub təsəlli verəni, küsdüyümüz dünyanın üzünə baxmağa yönəldəni, əlimizdən tutub, əlimizə çörək verənləri unutsaq, gözlərimizə qan damar. Elə anlar, elə aylar, illər olur ki, insan əllərini həyatdan ümidsiz halda üzərək bu əzəli var, sonu yox dünyadan bezir. Elə anlarda ürəklərimiz sapdan asılı qalar kimi çırpınır. Ölümün uzaqda olmadığını dərk edirik, dünyanın əbədi olmadığını duyaraq yaşasaq da, yenə bəziləri bu dünyanı əbədi bilir, dəyər verməyi bacarmır, dəyər verməkdən ehtiyat edir. Uca Yaradan o zaman adamın qarşısına elə böyük insanı çıxardır ki, elə bir insanla üz-üzə gətirir ki, yenidən dünyayla barışıb üz-üzə dayanırsan.**

**Bu ilin noyabr ayının son günlərində mən də o anları əvvəllər çox yaşasam da, bir daha yaşadım. Bir daha düşündüklərimin və Allahımızın qarşımıza həqiqətən 5-3 pis əvəzinə çıxardığı minlərlə, sözün böyük mənasında, yaxşıların yaxşısı, xeyirxahların xeyirxahı, dünyanın özündən böyük sevgiyə layiq olanı və mələk kimi çiyinlərimizə qonaraq bizə əl uzadanı, dəfələrlə ömrümüzdə mühüm, unudulmaz yeri olanı yetirir ki, yuxarıda dediklərimə, dəyişməyən düşüncəmə, fikirlərimə bir daha sadiq qalaraq sakit olur, əsəblərimi cilovlayıram. Kaş həyatda pislər, ağıldan kəmlər, içi zığlılar (anamın sözüdür) olmayaydılar. Amma nə etmək olar ki, ən gözəl çəməndə də çiçəklər arasında qanqal bitir.**

**Xəstəxana divarları arasında başladığım bu kiçik yazımı, təşəkkür məktubumu və ya minnətdarlıq adlı məqaləmi indi evdə davam etdirirəm... Nə vaxt bu dünyada əllərimi qoynuma qoyub, acizlik hiss etsəm, mütləq bir neçə qeyri-adi, gözəl, dəyərli insan ağlıma gələr və ya qarşıma çıxar. Onu tanıyanlar, səmimiliyinə vurulanlar, insanpərvərliyinə məftun olanlar minlərlədir desəm, daha doğru olar. Bu, mələk üzlü, geniş qəlbli, həkim, dost, ana, ailə xanımı, qohum və qeyri adi insan - əzizim Yazgül xanım Abdiyevadır. Məlahətli səsi, sonsuz etibarı, cəfakeşliyi, ləyaqəti və bütün aləmə güvən verə biləcək qədər mərhəmətliliyini qələmə almaq, əslində, az-çox söz adamı olsam da, mənə asan gəlmir. Onu tanıyıb görəndən bəri anladım ki, sadəlik, əlçatanlıq, mərhəmət, ətrafa qarşı sonsuz sevgi bəsləmək qabiliyyəti hər kəsə verilməzmiş. Bu da onu tanıyanlara Allahın gözəl bir töhfəsidir və belə insanlara "Əsl Allah adamıdır!"- demək gərəkdir. İkinci dəfədir ağır anımda mənə əl uzadır Yazgül xanım ülvi münasibəti, qayğısı ilə.**

**İnanın ki, sözlərə sığışdırmaqda çətinlik çəkirəm onun mənə etibarlı davranışlarını. Düşünürəm ki, görəsən bu səmimi həkimin, qız övladımın yoxluğunu mənə unutduran Yazgül xanımın mənə olan diqqətini qələmə alıb, yerinə yetirə biləcəyəmmi, ürəyimdəkilərin hamısını ifadə edə biləcəyəmmi? Yaxşı sözü bəzən yetərli olmur insanların xarakterini və bütövlüyünü tam şəkildə çatdırmağa...**

**Yaxşıların yaxşısı, tibb elmləri doktoru Yazgül xanım Abdiyeva, olduqca vətənpərvər, peşəsinə vurğun, ətrafındakılara daima xoş əhval-ruhiyyə bəxş edərək qayğıkeşliyin zirvəsini fəth etmiş, insanlığın aliliyini öz sahəsində yüksəklərə qaldıran çox vəfalı, az-az görünən insanlardandır. Nə xoş ki, mənim bu xəstəxanaya məsləhət bildiyi, yönəltdiyi andan elə Yazgül xanımın özü haqqında dediklərimi tam şəkildə ünvanlaya biləcəyim həkimlərlə də doğmalaşdım. Bu həkimlərdən Ürəyin İşemik Xəstəlikləri şöbəsinin rəhbəri xanımlar xanımı Mədinə xanım Əzimova, Sona xanım, illərdir tanıdığım Nailə xanım, Təranə xanım hər zaman ağlımda, düşüncələrimdə və fikrimdədirlər. Burada, bu kollektivdə o qədər sadəlik, etibar (xüsusən də özüm yatdığım şöbədə - S.Ç.) gördüm ki, düşündüm pisləri, namərdləri, dönükləri unudub yaşamağa dəyər hələ.**

**Həyatımın tələtümləri məni imtahan etdikcə, yaxşıların münasibəti mənim ayaqda durmama səbəb olub hər zaman. Odur ki, bu günlər bir daha yaşadım və anladım ki, mən bu həqiqəti öz həyatımda gördüm, təsdiq etdim və bu mənim həyat kredoma çevrildi. Bu yaşda bu qədər alicənab insanlar yenə qolumdan tutdular. Yenə yıxılmama imkan vermədilər.**

**Bu xəstəxanada ikinci dəfədir ki, müayinə və müalicə oluram. Yayda və bugünlərdə mənim burada müayinə və müalicə olunmamı o vaxt da əzizim Yazgül xanım tövsiyə etmişdi və yönəltmişdi məni bura. Elə bu dəfə də onun məsləhətini dinləyərək üz tutdum yenə Kardiologiya İnstitutuna və nə yaxşı ki, bu qeyri-adi, dəyərli xanımı, həkimi dinləyib, bu qeyri-adi insanların hamısını sevdim. Burada da bu insanların gülərüzlülüyü və mehribanlığı məni həqiqətən sözün tam mənasında valeh etdi. Düşündüm ki, nə qədər sevgi dolu, əmək sevən, gülərüz insanlar var bu həyatda, İlahi. Salamı da təbəssüm dolu məhəbbətlə verirlər bir-birilərinə. Xəstələrə öz əzizləri kimi isti və doğma yanaşaraq xidmət edirlər.**

**Şöbə müdiri əzizim Mədinə xanımın mədəniyyəti, həlim, gülərüz, mehriban rəftarı sanki o insanların hamısının qəlbinə köçərək üzlərində, gözlərində bərqərar olub. Məncə, elə bu münasibətlər özü bir məktəbdir ki, bu şöbədə də var. Burada çalışanların üzündəki təbəssüm səmimiyyət dolu idi, onları heç kim məcbur etmirdi ki, belə davranın, onlar gördüklərini götürənlər idilər.**

**Həkimim (Sirdaşım, adaşım deyərək ilk gündən ona belə müraciət etdim - S. Ç.) Sona xanım haqqında da bir neçə cümlə demək fikrindəyəm. Gülər üzlü, səmimi, bir gündə dəfələrlə mənim palatama gələrək verdiyi məsləhətləri, min doğmadan doğma olan münasibəti, dərindən anlatdığı, izah etdiyi, dərmanların qəbulu, səhhətim haqqında məlumatlar həqiqətən məni məndən almışdır. Bunlar o qədər geniş mövzudur ki, bir məqaləyə, bir təşəkkür məktubuna sığışdırmaq mümkün deyil.**

**Bu şöbədə çalışanların münasibətindən demək olar ki, dirçəldim, sevdim və əsla unutmayacağıma özüm-özümdə əminlik hiss etdim.**

**Burada təmizlik, tibb bacılarının hər bir xəstə ilə hörmətlə davranmaqları, onları dindirmək bacarığı tək bir cümlə ilə deyə bilərəm ki, heç yerdə görmədiyim mənzərə idi. Ayrı-ayrılıqda bu mükəmməl və ehtirama layiq insanların hamısına deyirəm ki, var olun, yaxşı ki, sizləri tanıdım. Bunun üçün bir daha əzizim Yazgül xanıma sonsuz və əbədi minnətdarlığımı bildirmək istəyirəm ki, mən Mədinə xanımı, Sona xanımı, Samirə xanımı, Fatma həkimi yaxından tanıdım.**

**Hər gün bir otağa şöbə müdiri və həkimlər neçə dəfə gələ bilər, neçə dəfə xəstəni ayrı-ayrılıqda ziyarət edər, hər xəstənin hal-əhvalını bilər, bilmirəm, gördüklərim önündə söz bəzən aciz qalır, inanın. Minnətdaram əzizlərim, Allah sizi var eləsin.**

**Bu böyük tibb mərkəzinin direktoru, dəyərli baş həkim Gülnaz xanıma, BDU-dan tanıdığım həmkarım Əlövsət doktora və ümumiyyətlə, burada çalışan, bir dəfə gördüyüm, beş dəfə gördüyüm kimi qəbul etdiyim insanların hər birinə təşəkkür edirəm, minnətdarlığımı bildirirəm və bir daha əminəm ki, yolum bura düşərsə, doğma ata evinə gəldiyim kimi gələcəyəm...**

**Təşəkkür edirəm hər birinizə, əzizlərim. Var olun, insanların keşiyində sizin kimilər durduqca bizlər yıxılmarıq!**

# MOLLA CÜMƏ - 171

**Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsi və Şəkinin Turan qəsəbəsində fəaliyyət göstərən uşaq musiqi məktəbinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Molla Cümənin anadan olmasının 171 illiyi qeyd edilmişdir. Tədbirin aparıcısı Nakam adına Mərkəzi kitabxananın bölmə müdiri Dilbər xanım Yaqubova ilk sözü Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin direktoru Ülkər Mahmudovaya verdi. O, Bakıdan və respublikamızın müxtəlif rayonlarından gələn Molla Cümə sevərləri salamladı. Sonra söz verildi Azərbaycan Yazıçılar Birliyi Şəki Bölməsinin rəhbəri, tanınmış şair, el ağsaqqalı Vaqif Aslana.**

Vaqif Aslan Molla Cümənin yaradıcılığı haqqında danışanda qeyd etdi ki, Azərbaycanda klassik aşıq poeziyasının görkəmli nümayəndələrindən biri də Molla Cümədir. Onun həyatı və yaradıcılığı, poetik aləmi olduqca maraqlıdır. Bu onu çox sənət adamlarından fərqləndirir. Molla Cümə Azərbaycan xalqına zəngin irs qoyub getmişdir. Təəssüf ki, bu irs çox gec öyrənilməyə başlanmışdır. Molla Cümənin yaradıcılığını əks etdirən mindən çox özünün əli ilə yazılan nümunələr vardır. Amma yazılmayan, məclislərdə bədahətən deyilən, bir müddət sonra yaddaşlarda yaşayan, bir çox hallarda deformasiyaya uğrayan şeirləri toplanmışdır. Bütün bu faktlar onu göstərir ki, Molla Cümə çox məhsuldar bir sənətkar olmuşdur. Onun yaradıcılığı o qədər zəngindir ki, bu çoxlarını təəccübləndirir. Belə ki, Molla Cümə aşıq poeziyasının bütün janrlarında yazıb yaratmış və ustadnamələr qoyub getmişdir.

Sonra söz verildi Molla Cümənin həmkəndlisi, tanınmış hüquqşünas, böyük ziyalı, Molla Cümə irsinin nəşrinə dəfələrlə hamilik edən Abdulla Yusifliyə. Abdulla müəllim qeyd etdi ki, Molla Cümənin yaradıcılığında əsas yeri nakam məhəbbət lirikası tutur. Molla Cümənin şeirlərində insanın mənəvi gözəlliyi böyük səmimiyyətlə vəsf edilib. Molla cümənin ilk və son sevgilisi "İsmi pünhan"dır və onun yaradıcılığında bu ad dəyişilməz, əvəz olunmaz xətlə davam etmişdir. Aşıq şeirlərində yüzlərlə gözəlin adını müxtəlif formada, bəzən əbcəd hesabı ilə, bəzən də gözəlin adında olan hərfləri şeirin vəzninə uyğunlaşdırıb söyləmişdir. Bir neçə şeirində isə "İsmi pünhan"ın adında 4 hərfin olduğunu aşkar etmişdir. Lakin Molla Cümə öz yaradıcılıq illərində kamilləşdikcə "İsmi pünhan" da onun aləmində ülviləşib, poetikləşib və ümumiləşərək bütün əsərlərində əks olunmuşdur. Molla Cümənin öz sözü ilə desək, "İsmi pünhan üstündədir xeyri-şərim".



Molla Cümənin dünyagörüşünü öyrənmək üçün onun şeirlərini oxumaq, təhlil etmək gərəkdir. Molla Cümə öz yaradıcılığı ilə çox sevdiyi xalqının zövqünü oxşamış, ona ilahi sevgi yolları göstərmişdir. O, həm də insanlara sevinc bəxş etməklə, dünyanı dərk etmək üçün sevgi ilə yaşamaq nümunəsi göstərmişdir. Bu sevgi hələ çox əsrlər də insanlara mayak olacaqdır.

Söz verildi Molla Cümənin pərəstişkarı, onun külliyyatının yarıdan çoxunu əzbər bilən Hacı Ömərə. O da öz çıxışında Molla Cümə yaradıcılığının müxtəlif formaları haqqında danışdı.

Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsi Həmkarlar İttifaqı Rayon Komitəsinin sədri Nəzakət Əliyeva çıxış etdi.

Tədbirdə Turan qəsəbə uşaq musiqi məktəbinin aşıqlar ansanblı, "Koroğlu" nağara ansanblı və Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin musiqi kollektivi Molla Cümənin sözlərinə yazılmış mahnılar ifa etdilər.

**Tədbirin sonunda Molla Cümənin ailəsi adından nəticələri Nahib və Elman Əzizovlar çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürlərini bildirdilər.**

**Çingiz NAĞIYEV,**
**Şəki**

# Bu ölkələr aclıq təhlükəsi ilə üz-üzədir



**Dünyanın 5 ölkəsində aclıq təhlükəsi var.**

Adalet.az xəbər verir ki, bu haqda BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Rusiya ilə əlaqələr üzrə ofisinin direktoru Oleq Kobyakov bildirib.

Kobyakovun sözlərinə görə, bu problem Qəzza zolağı, Sudan, Cənubi Sudan, Mali və Haitidə müşahidə olunur.

Ümumilikdə bu il dünya əhalisinin 9,1 faizi aclıqla üzləşib ki, bu da təxminən 735 milyon insan deməkdir.

Kobyakov xəbərdarlıq edib ki, bu insanlar orqanizmin ən azı əsas fizioloji ehtiyaclarını ödəmək üçün kifayət qədər qidaya malik deyillər.

**Onun sözlərinə görə, konkret olaraq Qəzza zolağına gəlincə, orada iki milyona yaxın insan hazırda aclıq təhlükəsi ilə üz-üzədir.**

# Amerikada bu insanlar niyə bomj həyatı yaşayırlar?

**Dünyanın ən zəngin ölkələrindən olan ABŞ-da bomjların sayı getdikcə artır. Qeyri-rəsmi statistikaya görə ölkədə 5 milyona yaxın evsiz-eşksiz, küçələrdə yaşayan sakin var.**

Evsizlərin sayı rekord həddə olduğundan, mətbuat Los-Anceles, Nyu-York, Çikaqo və San-Fransisko kimi şəhərləri "evsizlik epidemiyası yayılan bölgələr" adlandırır.

Küçələrdə gecələyən evsizlərin təxminən 30%-i uşaqlar və yeniyetmələr, qalan 70%-i isə qadınlar, kişilər və əlilliyi olan şəxslərdir.

Evsiz şəxslərin daha çox sürətlə artan kateqoriyası uşaqlı analardır. Bu qadınlar əsasən, alkoqolik ərlərinin zorakılığından canlarını qurtarıb evdən qaçanlardı. Doğrudur, ABŞ hökuməti onları sığınacaqlarla təmin edir, lakin sığınacaqlarda da vəziyyət elə ürəkaçan deyil. Sosial evlərdəki ciddi rejim azad həyat arzulayan insanlar üçün çox darıxıdırıcıdır. Beləliklə, təkbaşına ev kirayələyib övladına baxa bilməyən ana, pulsuzluqdan hansısa bələdiyyənin həyətində çadır quraraq yaşamağa üstünlük verir. Rəsmi hesabatlarda məmurlar evsizliyin artmasının üç səbəbini göstərirlər: ucuz mənzillərin olmaması, yoxsulluq və işsizlik. Əslində isə bu səbəblər müxtəlifdir. Məsələn, 50-ci illərdən başlayaraq, ABŞ hakimiyyəti ruhi-əsəb dispanserlərini maliyyələşdirməyi dayandırıb. Nəticədə, psixi xəstələrin əksəriyyəti küçələrə tökülüşdülər. Beləliklə də, şəxsi evi olmayan, qohumlarının imtina etdiyi ruhi xəstələrdən ibarət bomj koloniyaları yaranıb.

Küçə sakinlərinin arasında veteranlar da az deyil. ABŞ Veteranlarla İş Departamenti əhalinin bu həssas təbəqəsini sosial mənzil və tibbi xidmətlərlə lazımi səviyyədə təmin edə bilmir.



Bomj həyatı yaşayanlar arasında yetim, eləcə də valideynlərinin imtina etdiyi azyaşlılar da var. Narkomanlar, alkoqoliklər, həbsdən çıxan keçmiş cinayətkarlar da küçələrdə yaşayanlar sırasındadır. Bu cür şəxslərin mədəni kollektivdə çalışmaq, yaxşı maaşlı işə düzəlmək və ya mənzil kirayələmək şansı, demək olar ki, yoxdu.

Ancaq ABŞ hakimiyyəti müxtəlif layihələrlə bu problemləri aradan qaldırmağa çalışır. Çünki dövlət hər evsiz, işsiz vətəndaşının yaşaması üçün ona aylıq sosial müavinətlər ödəməli olur.

Nümunə üçün deyək ki, Florida ştatının verdiyi hesabata görə hər bir evsiz şəxsə ildə təxminən 31.000 dollar xərclənib. Bu məbləğə küçədə yaşayan şəxsi sığınacağa gətirən polisə ödəniş, şəxsin sığınacaqda saxlanması, xəstəxanaya yerləşdirilməsi və digər xərclər daxildir. Beş milyon evsiz şəxsin hər birinin saxlanması üçün adambaşına 31 min dolların ödənilməsi dövlət üçün həqiqətən böyük məsrəfdir. Ölkədə kimsəsizlərin müalicə alacağı və yaşayacağı komplekslərin tikilməsi barədə qanun layihəsi hazırlansa da nədənsə, qanunun qəbulu yubadılır.

ABŞ hakimiyyəti fikirləşməkdə olsun, sizə xəbər verək ölkədə fəaliyyət göstərən özəl təşkilatlardan, QHT və fondlardan. Hökumətdən fərqli olaraq, ölkədəki QHT-lər bu sahədə xeyli təqdirəlayiq işlər görürlər. Yerli kapitalistlərin maliyyə yardımları hesabına formalaşan xeyriyyə fondları, cəmiyyətlər evsiz şəxslərə, həssas təbəqədən olan insanlara yardımlarını əsirgəmirlər. Bu məsələdə kilsələr xüsusi fəallıq göstərir.

Ayrı-ayrı imkanlı şəxslər və özəl qurumlar tərəfindən yaradılan sığınacaqlarda pulsuz gecələmək, duş almaq və yeməklə təmin olunmaq mümkündür. Kilsələr mütəmadi olaraq, bu imkansızlara pulsuz nahar yeməyi verir.

**Murad Köhnəqala**

# Aral dənizinin faciəsi və Qazaxıstanın xilaskar çabaları

**Dünya xəritəsində parlaq mavi məkan kimi görünən Aral dənizi bu gün planetin ekoloji faciələrindən birinə çevrilib. Bu dəniz XX əsrin ortalarında dünyanın dördüncü ən böyük su hövzəsi idi. Lakin Sovet dövründə pambıq plantasiyalarını böyütmək üçün Amudərya və Sırdərya çaylarının suyunun kütləvi şəkildə əkin sahələrinə yönəldilməsi Aralın taleyini dəyişdi. Su**



**azalması tədricən fəlakətə çevrildi və dəniz bir neçə onillik ərzində demək olar ki, yox olmağa başladı.**

Su çəkildikcə Aralın dibində gizlənən duz və kimyəvi maddələr küləklə ətrafa yayıldı. Bu bölgədə yaşayan insanlar tənəffüs xəstəliklərinə düçar oldu, torpaqlar zəhərləndi, əkinçilik tənəzzülə uğradı, balıqçılıq isə tamamilə məhv oldu. Bir vaxtlar sahillərində həyat qaynayan liman şəhərləri dənizdən kilometrlərlə uzaqda qaldı. Son illərdə Qazaxıstanın bu faciəni qismən də olsa geri döndürmək cəhdləri xüsusi maraq doğurur. Ölkə əsas diqqətini Şimali Arala yönəldib. Burada Qozanorda vilayətində yerləşən Sırdərya çayı Aralın yeganə ümid mənbəyinə çevrilib.

Qazaxıstan hökuməti və beynəlxalq təşkilatların dəstəyi ilə Kokaral bəndi inşa edildi. Bu bənd dənizin şimal hissəsini cənubdan ayırdı və şimaldakı suyun daha sürətlə yığılmasına şərait yaratdı. Nəticə gözlənilməndən daha uğurlu oldu. Suyun səviyyəsi qalxdı, balıq növləri geri qayıtmağa başladı, hətta balıqçılıq kəndlərindən bəzilərində həyat yenidən canlandı. Bu, Aral dənizinin tam bərpası demək olmasa da, tarix göstərdi ki, insan əli ilə məhv edilən ekosistem müəyyən şərtlərdə yenidən nəfəs ala bilər. Qazaxıstanın hazırkı planları daha genişdir. Burada ikinci bəndin inşası, çayların su idarəçiliyinin yaxşılaşdırılması, su itkisini minimuma endirmək üçün yeni kanalların çəkilməsi və kənd təsərrüfatında suya qənaət edən texnologiyaların tətbiqi kimi addımlar nəzərdə tutulur. Məqsəd Şimali Aralı daha davamlı bir şəkildə qorumaq və tədricən sahilboyu iqtisadiyyatı dirçəltməkdir.

Bununla belə, Cənubi Aralın taleyi daha ağırdır. Özbəkistan tərəfdə su istifadəsi hələ də böyük ölçüdə pambıqçılığa bağlıdır. Qazaxıstanın müsbət nəticələri göstərir ki, siyasi iradə və düzgün su idarəçiliyi ilə ən ağır ekoloji problemlərin belə, müəyyən hissəsini həll etmək mümkündür. Lakin mütəxəssislərin fikrincə Aral dənizinin tam xilas olması üçün region ölkələrinin ümumi qərarı və koordinasiyalı addımları lazımdır.

**Aral faciəsi bizə bir həqiqəti xatırladır: təbiət insanın ən böyük sərvətidir və onunla rəqabətə girmək yox, harmoniyada yaşamaq lazımdır. Qazaxıstan isə bu gün Aralın sahilində təkcə dənizin sularını deyil, həm də insanların gələcəyi üçün ümidin özünü bərpa etməyə çalışır.**

**Murad Köhnəqala**

# Zəkası yol gedən alim

**Bəkir Nəbiyev qəbirüstü mitinqdə deyib ki, Azərbaycan ədəbiyyatşünaslığının günəşi söndü. Bu, aksiomdur. Tələbələri onu "filologiya fakültəsinin günəşi" adlandırırdılar.**

Xeyrulla Məmmədov barədə birinci olaraq Lerikin Şingədulan kəndində yaşayarkən müəllimi və qohumu olmuş Hacıbaba Mirzəyevdən eşitmişdim. Elə ürəkdən, şövqlə danışırdı ki, Xeyrulla müəllimin xarakter cizgiləri, söhbətləri, tələbələrinə olan münasibəti, elmə fədaisi kimi yaddaşıma həkk olurdu. Düşünürdüm ki, yəni bir vaxtlar mənə də bu istedadlı, alimlə görüşüb söhbət etmək qismən olacaqmı?

Hacıbaba əziz müəllimi barədə belə deyərdi:

-Mən Azərbaycan Pedaqoji İnstitutunda oxuyanda digər tanınmış alimlər kimi filologiya elmləri doktoru, professor Xeyrulla Məmmədov mənə dərs deyib. O, auditoriyaya daxil olan kimi vaxt itirmədən davamiyyəti yoxlayar, bir dəfə gördüyü tələbənin ad-familiyasını əzbər deyərdi. Sonra otaqda o baş, bu başa gedərək natiqliklə mühazirə deyərdi: Onun söylədikləri elmi kitablarda, dərsliklərdə mənə rast gələrdi. Xaraktercə çox tələbkar idi, tələbələri öyrətmək üçün onlarla sərt davranar, hələm-hələm güzəşt etməzdi. Bizə deyərdi ki, siz pedaqoji təhsil alırsınız, siz şagirdlərə elm, təhsil və tərbiyə öyrədəcəksiniz. İnstitutda bunları əxz eləməlisiniz ki, şagirdlər də sizdən öyrənə, görüb-götürə...



Xeyrulla Məmmədovun məqalələrini mətbuata oxuyardım, çoxu da ədəbiyyatşünaslığa, korifeylərin qatı açılmamış əsərlərinə, ədəbi tənqidə, şəxsiyyətlərə, onların yaşadığı mühitə dair olardı. Elmi məqalələrində müqayisəli təhlilləri, mənbələrdəki faktlara əsaslanaraq müstəqil və dürüst fikir yürütməsi mənim marağıma səbəb olardı. Xüsusilə də alimin mətbuat tarixinə dair məqalələri karıma gəlirdi. Eyni zamanda, qeyd elədiyim kimi təhsil və elm fədaisinin televiziyada natiq ustalığı ilə söylədiklərini, mühakimələrini dinləmişəm.

O, "Azərbaycan" nəşriyyatına gələndə biz onunla rastlaşarkən, salamlaşırdıq. Qəzetə məqalə gətirdiyini deyirdi. Bir qədər yubandım deyər, instituta tələsərdi. Qısa da olsa rayonu, bəzi adamları, camaatın vəziyyətini soruşardı. Onun bu qısa söhbətləri çox dəyərli idi.

Bir gün Lerikdəki evin həyətində nəsə bir işlə məşğul idim. Evdən məni çağırdılar:

-Telefonda Nemətulla səninlə danışmaq istəyir.

Tez evə keçdim. Salamlaşdıqdan sonra Nemətulla dedi:

-Xeyrulla müəllim bizdədir, səninlə görüşmək istəyir. Bizə gəlin, o səni gözləyir.

-Oldu, - dedim, - 10-15 dəqiqəyə sizdəyəm.

Görüşdük, çay içib söhbət elədik. Özümlə gətirdiyim "Bolluq uğrunda" (indiki "Lerik") qəzetinin seçmə nömrələrini, şəhidlər haqqında yazdığım kitabı Xeyrulla müəllimə təqdim etdim. O, çay içə-içə qəzetləri varaqlamağa başladı. Sonra üzünü mənə tərəf tutub dedi:

-Mikayıl Müşfiq, Əliağa Vahid, Böyükağa Mirsalayev, Bala Məmməd, Əli Hüseynov, Qız qalası barədə yazdığın məqalələr maraqlıdır. Mənim Lerikin ilk məktəbli barədə yazdığım məqaləmi çap etmisən, sağ ol. Görünür, işlədiyin qəzetdə təsərrüfat xarakterli yazılarla kifayətlənmirsən, arayıb-axtarırsan, tanıtdırırsan. Bakı mətbuatında da yazıların mənə rast gəlir. Bu, çox yaxşıdır. Qələmin, jurnalistin vəzifəsi xalqa xidmət etməkdir. Gördüm, professor məni çox tərifləyir, utandım, araya söz qatdım:

-Xeyrulla müəllim "Əkinçi" qəzeti, "Molla Nəsrəddin" jurnalı və mətbuat tarixinə, maarifçiliyin təbliğinə dair məqalələriniz çox aktualdır, bizə lazım olur. Əsl elmi əsəri siz yazırsınız: "Əkinçi"dən "Molla Nəsrəddin"ədək adlanır.

-Hər yazının öz yeri var. Oğul, ömür vəfa qılsa mətbuatı əhatə edən kitabım çıxacaq... Hər bir qələm sahibi öz məsləkinə qulluq eləməli, salnamə yazmalıdır. Biz gedərik, kitablarımızı, əsərlərimiz qalar...

Sonrakı illərdə də Xeyrulla müəllimlə görüşlərimiz olurdu. Təəssüratlarım genişdir, bir kitablıqdır. Universitetin yaxınlığında yerləşən evinə dəvət etdi məni. Evdə Xeyrulla müəllim mənə belə dedi:

-Heyf ki, bu gün ancaq səni dadlı borşa qonaq edə biləcəyəm. Lida xərçəngdən əziyyət çəkir. Həkim duru xörəkləri məsləhət bilir.

Xeyli söhbət etdik. O, instituta getdi, mən isə nəşriyyata. Orada "Azərbaycan təbiəti" jurnalına məqaləni təhvil verməliydim...

Xeyrulla Məmmədova həsr olunmuş və onun bacısı oğlu, Xalq artisti Ramiz Novruzun tərtib etdiyi "Dünyada qala bilmək"..." kitabı həmişə stolumun üstündədir. 2012-ci ildə nəşr olunan bu kitabda olduqca maraqlı xatirələr diqqəti cəlb edir. Kitabda çap olunmuş yazısında filologiya üzrə fəlsəfə doktoru, ADPU-nun müəllimi Sakibə Əsgərovanın (Xeyrulla müəllim onun elmi rəhbəri olub) qiymətli fikirlər deyib.

Kitabda Sakibə xanım məqaləsində qeyd edib ki, akademik Bəkir Nəbiyev qəbirüstü mitinqdə deyib: Azərbaycan ədəbiyyatşünaslığının günəşi söndü. Bu, aksiomdur. Tələbələri onu "filologiya fakültəsinin günəşi" adlandırırdılar.

Xoş o kəslərin halına ki, o günəşin işığında qızındı...

Filologiya elmləri doktoru, professor İslam Qəribli "Ensiklopedik təfəkkürlü ziyalı" (2025), şair-publisist Ağacəfər Həsənli "Bənzərsiz xarakter sahibi" (2012) adlı oçerklərdə professor Xeyrulla Məmmədovun xarakteristikasını dəqiq vermişlər. Akademiklərdən İsa Həbibbəyli, Vəli Əliyev, Teymur Kərimli, Xalq şairi Sabir Rüstəmxanlı, professorlar: Nizami Xudiyev, Nizaməddin Şəmsizadə, Elman Quliyev, Himalay Ənvəroğlu, Asəf İsgəndərov, Xalq artisti Nurəddin Mehdixanlı və onlarla digər dostları Xeyrulla müəllimin itkisini, ona məhəbbəti ürək yanğısı ilə "Dünyada qala bilmək..." kitabında məqalələrində yazmışlar.

Bəlli olduğu kimi, Xeyrulla Məmmədov ensiklopediya təfəkkürlü ziyalı idi, ömrünün 70 ilindən 45-ni çağdaş ədəbiyyatın problemlərinin öyrənilməsinə, elmi fikirlərin ilkin mənbələr əsasında formalaşmasına, bir sıra ədəbi nümunələrin toplanıb nəşr olunmasına, dövrün problemlərindən irəli gələn bir sıra elmi mübahisələrə son qoyulmasına sərf etmişdi.

Ədəbiyyatşünaslıq tarixində özünəməxsus dəst- xətti ilə seçilən alim bir sıra dərsliklərin, monoqrafiya və elmi-nəzəri, bədii-publisistik əsərlərin müəllifi idi.O, tədqiqatçı alim olmaqla yanaşı, mətnşünas kimi hər iki istiqamətin dolğun vəhdətini yaratmağa nail olmuşdu, bütün yazılarında İlkin mənbələrdən istifadə etmişdi.İstedadlı alim təkcə ədəbiyyatşünaslıq elmində deyil, elmi-pedaqoji kadarların hazırlanmasında, metodoloji Xeyrulla Məmmədov məktəbinin yaradılmasında, bir sıra yüksək insani xüsusiyyətlərin formalaşmasında öz töhfəsini vermişdir.

Xeyrulla müəllimin 90 illik yubiley ilidir. Dostları, qohumları, tələbələri onu ürəkdən yad edirlər.

Xeyrulla müəllim neçə-neçə kitablara sığacaq bir alim, bir insan, nur parçası idi.

**Sanki xatirələrdən təbəssümlə boylanan alim "mən burdayam" deyir.**

**İdris Şükürlü,**
**Əməkdar jurnalist**



Ələmdar MƏMMƏDOV

# Mən bu zamana sığmazam

## Zirvəyə doğru: İlyas - İlahi qüvvə, köməyə gələn

**(əvvəli ötən saylarımızda)**

### *Müstəqillik illərində*

SSRİ dağıldıqdan sonra Rusiya Baş prokurorluğunda iş təklif olunsa da O, vətənə qayıtdı.

**Haşiyə:** Bəzi qaragüruhçular İlyas müəllimi Moskvanın adamı hesab edirlər. Görkəmli partiya işçisi Sabir Hüseynovun "Biz hamımız Moskvanın adamı olmuşuq" sözləri ilə razılaşmamaq mümkün deyil. Belə ki, bütün hakimiyyət strukturları idarə və müəssisələr, o cümlədən, prokurorluq əsasları Moskvada hazırlanan qanun və qərarlarla işləyir, vəzifə təyinatları Moskvada təsdiq olunurdu. Məsələn, Yardımlı rayon prokuroru vəzifəsinə əməkdaşı Respublika prokuroru təyin edir, SSRİ Baş pokuroru təsdiq edirdi.

Lakin Moskvanın əleyhinə hər rəhbər gedə bilməzdi. İlyas müəllim qanun və vətən naminə, kitabın əvvəlində qeyd edildiyi kimi, Moskvanın iradəsi əleyhinə gedən nadir kişilərdən olub.

İlyas müəllimin öz sözləri ilə desək, Moskvada nə qədər çox adam işləsə, bir o qədər Azərbaycanımıza xeyri olardı.

Vətənə döndükdən sonra həmin vaxt Prezident səlahiyyətlərini icra edən Ali Sovetin sədri Yaqub Məmmədovun Sərəncamı ilə İlyas İsmayılov müstəqil Azərbaycan Respublikasının ilk Ədliyyə Naziri oldu.

Hakimlər korpusu İlyas müəllimin təyinatını sevinclə qarşıladı. Daha hakimlərin işinə həbs faizinə görə qiymət verilmir, lüzumsuz yoxlamalar keçirilmir, yuxarıların deyil, qanunun tələbi əsas götürülürdü. Bu barədə uzun illər hakim mantosu daşımış Tofiq Quliyevin fikirləri maraqlıdır: "İlyas İsmayılov yeganə Ədliyyə naziridir ki, həm özündən əvvəlki, həm də özündən sonrakı bütün Ədliyyə nazirlərindən peşəkarlıq və insani keyfiyyətlərinə görə üstündür".

Nazir işlədiyi dövrdə yüksək ranqlı məmurlardan biri İlyas müəllimə deyir:

**- Sizin iqtidara və dövlətçiliyə köməyiniz nədən ibarətdir?**

İlyas müəllim cavabında:

**- Rüşvət almıram.Bundan artıq nə kömək olar...**

Burada böyük alimimiz Şirməmməd Hüseynovun mühazirələrində tez-tez təkrar etdiyi sözlər yada düşür: "Mənim bu xalqa xidmətim ən azı odur ki, 45 il dərs dediyim Universitetdə bir qəpik də rüşvət almamışam".

1994-cü illdə Prezident Heydər Əliyevin sərəncamı ilə İlyas İsmayılov Ədliyyə naziri vəzifəsindən azad edildi.

Məlimdur ki, Ulu Öndər ictimai rəyə xüsusi diqqət yetirirdi. Vəzifədən çıxarılan şəxslərin fəaliyyəti müzakirə olunur, televiziya ekranlarında minlərlə tamaşaçı müzakirənin gedişini izləyirdi.İqtidarda olan şou həvəskarları İ.İsmayılovu da müzakirə mövzusuna çevirmək istəsələr də, müdrik insan olan Heydər Əliyev buna imkan verməmişdi.

30 mart 1996-cı ildə sabiq Ədliyyə naziri İlyas İsmayılovun rəhbərlik etdiyi Ədalət Partiyası və Azərbaycan Demokrat Partiyası III Növbədənkənar (Birləşdirici) Qurultayda birləşdilər. Birləşmiş partiyanın sədri İlyas İsmayılov seçildi.

29 noyabr 1998-ci ildə keçirilən Azərbaycan Demokrat Partiyasının VI (Birləşdirici) Qurultay səlahiyyətli Konfransında onun rəhbərlik etdiyi Beynəlxalq Demokratiya və Ekologiya Fondu və Aydın Quliyevin rəhbərlik etdiyi Demokratik Azərbaycan Partiyası Azərbaycan Demokrat Partiyasına birləşdi. Birləşmədən sonra partiyada həmsədrlik postu təsis edilmiş, İlyas İsmayılov və Rəsul Quliyev partiyanın həmsədrləri seçilmişdir.

1995-ci ildə İlyas müəllim parlament seçkilərində iştirak etdi. Eyni dairədən tanınmış hüquqşünas, uzun illər prokurorluq orqanlarında müstəntiq, rayon prokuroru, Respublika Prokurorluğunda şöbə rəisi və Respublika prokurorunun müavini vəzifəsinədək yüksəlmiş, hüquq elmləri namizədi alimlik dərəcəsi almış, İlyas müəllimin həmyerlisi və qrup yoldaşı Zakir Zeynalovun da namizədliyi irəli sürülmüşdü. Seçki Z.Zeynalovun qələbəsi ilə başa çatsa da, bu, onu sevindirməmişdi.

5 noyabr 2000-ci il parlament seçkilərində həm majoritar, həm proporsional seçki sistemi üzrə seçkilərə qatılmış Azərbaycan Demokrat Partiyası uğur qazana bilmədi. Çoxdan fikir ayrılığına baxmayaraq, İlyas müəllim siyasi ədəb göstərərək 1 gün sonra, yəni 6 noyabr 2000-ci ildə partiyanın həmsədri kimi Azərbaycan Demokrat Partiyasından istefa verdi. İlyas İsmayılov tərəfdarları ilə Ədalət Partiyasının bərpası üçün müvafiq orqanlara müraciət etmiş və 2 iyul 2001-ci ildə bərpa qurultayı ilə partiyanı yenidən təsis etmişdi.

İlyas İsmayılov 2006-cı il mayın 13-də 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsindən deputat seçildi. Milli Məclisin İnsan Hüquqları Daimi Komissiyasının, Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-İtaliya, Azərbaycan-Latviya, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarınının və Avropa İttifaqı - Azərbaycan parlament əməkdaşlığı komitəsinin üzvü olmuşdur.




...Ilyas müəllim partiya sədri və millət vəkili kimi özünəməxsus ağıllı və sanballı davranışı ilə ölkəmizdən kənarda da hörmət və nüfuz qazanmışdır.

Məsələn, 2000-ci ildə Türkiyədə səfərdə olan zaman doqquz nazirlə, o cümlədən, Daxili İşlər naziri Sadətdin Tantan və Müdafiə Naziri Səbahəddin Çoxmaqoğlu, Milliyyətçi Hərəkat Partiyasının sədri, Baş nazirin müavini Dövlət Baxçalı ilə görüşməsi və TQRT televiziyası ilə bir saatlıq çıxışının təşkil olunması, Türkiyə Böyük Millət Məclisinin 80 illik yubileyinə isə Azərbaycan müxalifətindən yalnız onun rəsmi dəvət alması, İ.İsmayılov şəxsiyyətinə olan maraq və hörmətin təzahürüdür.

İran Islam Respublikasına səfərində Təbrizdə olmağı şərt kimi irəli sürən İ.İsmayılov görüşlərin birində Heydər Əliyev haqqında sualı cavablandırarkən, Onu türk-müsəlman dünyasının ən görkəmli şəxsiyyəti kimi xarakterizə etmişdi.

Şəxsiyyət kimi hamı tərəfindən qəbul edilən İlyas müəllim müxalifət olaraq da öz müdrikliyini nümayiş etdirirdi.

İlyas müəllim müsahibələrinin birində müxalifət iqtidar münasibətlərində öz arzusunu dilə gətirərək deyir: "Biz müxalifət partiyası olsaq da, cəmiyyətdəki mövcud problemlərin zor, qarşıdurma müstəvisində deyil, sivil qaydada, danışıqlar, dialoqlar vasitəsilə həll olunmasının tərəfdarıyıq. Çünki dialoq, vaxtilə Sokratın çox sərrastlıqla dediyi kimi, "mərifətin inkişaf yolu", həm də müxtəlif fikirliliyə hörmət deməkdir. Bütün müşkül, mübahisəli məsələlər həqiqətən də masa ətrafında, dialoq vasitəsilə müzakirə olunmalıdır ki, hərtərəfli götür-qoy etmək, ortaq nəticəyə gəlmək mümkün olsun. Üstəlik nəzərə alsaq ki, dialoq həm də ölkədəki gərginliyi azaltmaq və bununla cəmiyyətə barışıq və əmin-amanlıq gətirmək yoludur, deməli, onun baş tutmasında və əməli nəticə verməsində hamımız maraqlı olmalıyıq".

...İlyas İsmayılov hüquq alimi kimi daim öz üzərində çalışır, yeni-yeni fikir və mülahizələri ilə elmə böyük töhfə verirdi. Onun 9 monoqrafiyası, 200 dən artıq elmi və publisistik məqalələri işıq üzü görmüşdür.

İlyas müəllim xüsusi qürur və fərəh hissi ilə qeyd edirdi ki, o yeganə azərbaycanlıdır ki, keçmiş SSRİ-nin bütün hüquq təhsili sistemində əsas dərsliklər sırasında yer alan "Osnovı uqolovnoqo zakonodatelğstva SSSR" (SSRİ nin Cinayət qanunvericiliyinin əsasları) adlı kitabda Leninqrad Universitetinin hüquq fakültəsində aspirant olarkən yazdığı elmi əsərlərindən birinə istinad edilmişdir.

### *Etimad dərdi*

**"Fərhad tək dağları yarıb gəlmişdin,**
**Ancaq dözəmmədin övlad dağına!"**

**M.Ələkbərli**

20 mart 2018-ci ildə İlyas müəllimin 80 yaşı tamam oldu. Bu münasibətlə onun ünvanına yüzlərlə teleqram və telefon zəngləri gəldi. Saytlarda onlarla publisistik yazılar dərc olundu. Bu yazılara sadə vətəndaşların, tanınmış insanların bildirdiyi rəylər adamı heyrətə salırdı. Bir nəfər də olsun mənfi rəy yazana rast gəlmədim.

Bir neçə gündən sonra, yaxın dostlarımızla yubiley münasibətilə təşkil edilmiş məclisdə İlyas müəllim olduqca gümrah, şən, əsl gənclik ruhu ilə həmişəki kimi şirin söhbətlər edir, gələcək planlarından danışırdı.

Hər şey yaxşı gedirdi.

Lakin...

...19 sentyabr 2018-ci il tarixi İlyas müəllimin ən ağır, acılı, çəkilməsi mümkün olmayan dərdli günü kimi həyatına daxil oldu. İstanbulda yaşayan, iş adamı kimi tanınan, böyük oğlu Etimad xaincəsinə öldürüldü...

Haşiyə: İlyas İsmayılov Sankt-Peterburqda aspiranturada təhsil aldığı zaman həmyerlisi Zəkiyyə xanımla tanış olur. 1968-ci ildə ailə həyatı quran cütlüyün 1969-cu ildə Etimad, 1970-ci ildə Mətin adlı iki övladı dünyaya gəlir.

Qeyd etmək yerinə düşərdi ki, Zəkiyyə xanım tibb ictimaiyyətində tanınmış imza sahibi, tibb elmləri doktoru, professordur.

İlyas müəllimə həyat yoldaşı ilə bağlı sual veriləndə, o, belə bir cavab vermişdi: "Bunu demək istəmirəm. Ancaq onu deyə bilərəm ki, özüm sevib-seçib ailə qurmuşam. Həyat yoldaşım Zəkiyyə xanım tibb elmləri doktorudur. Bu gün mənim üçün həyatda ondan əziz adam yoxdu. Övladlarımı, nəvələrimi də çox istəyirəm. Amma həyat yoldaşım mənə daha əzizdir. Çünki o, övladlarımın anasıdır. Mən öz anamı da hər kəsdən çox istəmişəm. Bu dünyada bircə anama borcum var..."

Etimad - İlyas İsmayılovun oğlu olmaqla fəxr etsə də, həmişə bu adın məsuliyyətini hiss edib, yükünü çəkib. Dostlarına deyərmiş ki, bu ad onun sərbəst hərəkət etməsinə mane olur.

Atasının siyasi həyatında fəal iştirak edən, bir müddət Ədalət Partiyasında rəhbərlikdə təmsil olunan, partiya işinə mütəmadi maddi yardım edən Etimad İsmayılov kimlərinsə məkrli planına görə Moskvada həbs edilərək 39 ay Rusiyada məhbus həyatı yaşamışdı.

Etimadın həbsxanada ruhən dəyişməsini Onun partiyadaşı və yaxın dostu Elxan Şükürlü yazılarının birində belə təsvir edir: "O, həbsxanada olaola dinimizi dərindən öyənmək, araşdırmaq imkanı əldə etdi və 2011-ci ilin avqustunda həbsxanadan həm də bir "İslam mücahidi" olaraq çıxdı Və beləcə, əvvəllər "Harda bir azərbaycanlı var, onun haqqını qorumaq borcumdur" deyən Etimad, İmam Hüseyn (ə.s.) məktəbinin devizini özünə amal seçərək, "Harda bir müsəlmana zülm edilir, bundan sonra mən onun yanında olacağam" - dedi..."

**(ardı var)**

## *"Bakı Metropoliteni" işçilərini kütləvi ixtisar edir?*

**"Bakı Metropoliteni" QSC-də əməkdaşların kütləvi ixtisarı ilə bağlı məlumat yayılıb.**

QSC-dən Adalet.az-a bildirilib ki, mövcud əmək münasibətlərinə məcburi şəkildə xitam verilməsi ilə bağlı yayılmış məlumatlar həqiqəti əks etdirmir:

"Qurumda aparılmış səmərəlilik qiymətləndirmələri nəticəsində metro fəaliyyətinin əsas əməliyyatlarından kənarda olan bəzi xidmətlərin - o cümlədən təmizlik və yaşıllaşdırma işlərinin - bazarda bu sahə üzrə ixtisaslaşmış müəssisələr tərəfindən daha effektiv şəkildə həyata keçirilə biləcəyi müəyyən edilib. Bu səbəbdən metroda əməliyyat səmərəliliyini artırmaq, resursları birbaşa sərnişindaşıma təhlükəsizliyinə və əsas istehsalat proseslərinə yönəltmək məqsədilə həmin xidmətlərin kənar ixtisaslaşmış şirkətlər tərəfindən göstərilməsi barədə qərar qəbul olunub. Cəmiyyətin müvafiq təmizlik və yaşıllaşdırma xidmətinin fəaliyyətinin dayandırılmasından sonra işçilərin əmək münasibətlərinin davamlılığının təmin edilməsi üçün qurum tərəfindən bir sıra addımlar atılıb. Belə ki, bu sahələrdə çalışan şəxslərlə əmək münasibətləri tam olaraq əmək qanunvericiliyinin tələblərinə uyğun şəkildə tənzimlənəcək. Bu əməkdaşlar üçün aşağıdakı seçimlər təklif olunur:

- Xidmətləri icra edəcək ixtisaslaşmış şirkətlərdə işlə təmin olunmaq;
- "Bakı Metropoliteni" QSC-də mövcud olan digər iş yerləri üzrə uyğun alternativ iş təklifi;
- Qanunvericiliyin tələb etdiyi hallarda müvafiq kompensasiya və müavinətlərin ödənilməsi".

## *6 min hektardan çox ərazi minalardan təmizləndi*

**Azad olunan ərazilərdə noyabr ayında 208 tank əleyhinə mina, 575 piyada əleyhinə mina, 6510 partlamamış hərbi sursat (PHS) aşkarlanıb və zərərsizləşdirilib.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) azad edilmiş ərazilərdə həyata keçirilən humanitar minatəmizləmə əməliyyatları ilə bağlı aylıq məlumatında deyilir. Məlumata əsasən, 6432,9 hektar ərazi minalardan təmizlənib.

Qeyd edək ki, minatəmizləmə əməliyyatlarını ANAMA, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi (FHN) və Dövlət Sərhəd Xidməti (DSX) və dörd özəl şirkət Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Şuşa, Xocavənd, Laçın, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan ərazilərində həyata keçirib.

# Vahid Əzizin poetik yaradıcılığına ədəbi-nəzəri ekskurs...



*Qurban Bayramov,*
*tənqidçi-ədəbiyyatşünas,*
*Səməd Vurğun mükafatı*
*laueratı...*

**(əvvəli ötən sayımızda)**

**Vahid Əziz bədii yaradıcılığa 1967-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çıxan ilk şeirindən sonra başlamışdır. Həmin vaxtdan dövri mətbuatda müntəzəm çıxış edir. Son illər 200-dən çox publisistik məqaləsi və müsahibəsi dərc olunmuşdur. Yeni şeirlərlə vaxtaşırı çıxış etmişdir. Sözlərinə bəstələnmiş mahnıların diski buraxılmışdır. "Mən küləyi görürəm" (1969), "Aylı pəncərə" (1974), "İllərin baharı" (1980), "Əllərimin kölgəsi" (1985), "Tenğ moix ruk." (Moskva, "Sovetskiy pisatelğ", 1988), "Dözmək olmur" (1997), "Şeirlər" (2005), "Yarım əsrin çiçəkləri. Səninlə... Seçilmişlərdən seçmələr.-1963-2023)"- (2023), "Param parça illər" ("Qarabağ dəftərindən" seçmələr - 2020) şeirlər və poemalar kitabları rəğbətlə qarşılanmışdır. Təxmini, Vahid Əzizin indiyə kimi yazdığı 15 mindən çox şeiri, 10-dan çox şeirlər kitabı, 15 poeması var... Bədii tərcümə ilə də məşğul olur. Məsələn, ruscadan tərcümə elədiyi "Aqustino Netto. Azadlıq nəğmələri" ( Bakı: Yazıçı, 1981, 84 səh.) göstərə bilərik. 50-dən çox mahnısına musiqi bəstələnmişdir. Azərbaycanın rəsmi nümayəndə heyətinin tərkibində dəfələrlə xarici ölkələrdə olmuşdur.**

Dörd cildlik "Şeirlər, poemalar, tərcümələr, publisitika mətnlərindən ibarət " seçilmiş əsərləri "Gənclik" nəşriyyatında nəşr edilmişdir... Əsərləri dünya xalqlarının dillərinə tərcümə edilərək yayılmış, özünün də dünya ədəbiyyatı klassikasından tərcümələri mövcuddur...

Azərbaycan Respublikası Prezidentinin 24 may 2019-cu il tarixli Sərəncamı" ilə Azərbaycan poeziyasının inkişafında böyük xidmətlərinə, xalqın böyük rəğbətini qazanmış yüksək ideyalı və bədii cəhətdən dəyərli ədəbi əsərlər yaratmağa görə "Azərbaycan Respublikasının xalq şairi" fəxri adına layiq görülmüşdür. Bu, Qarabağ fatehi, Respublikanın Prezidenti İlham Əliyevin Vahid Əziz şəxsiyyətinə və yaradıcılığına verdiyi rəsmi dövlət qiymətidir... Xalqın və dövlətin böyük rəğbətini qazanmaq sənətkarın əvəzedilməz uğuru və xoşbəxtliyidir...

Vahid Əziz öz yaradıcılığında ədəbi-bədii söz sənətinin aparıcı mövzusu olan insan fenomeninə fərqli prinsiplər əsasında yanaşmış və 60-cı illərdən ictimai fərdin üzləşdiyi əsas problemləri ehtiva edən vətəndaşlıq lirikasında öz ədəbi-estetik qayəsinə uyğun insan konsepsiyasını yaratmıdır. Bu konsepsiya onun şeir yaradıcılığında zaman-zaman özünün ən yüksək bədii və hərtərəfli təcəssümünü tapmışdır. Onun yaradıcılığında, eyni zanmanda, XX əsrin sonunda insanın mənəviyatında yaranan dərin böhran və insanın özgələşməsi ilə bağlı ədəbi fikirdə yaranan dekadent meyillər, pessimist əhval-ruhiyyənin dəf olunması kimi məsələlər da öz bədii inikasını tapıbdır...

Onun da şeirlərində antihumanist ideologiyaya qarşı ardıcıl və kəskin ifşaedici mövqedən çıxış (xüsusən, satirik şeirlərində), milli-tarixi keçmişə müraciət, habelə azərbaycançılıq konsepsiyası yazdığı əsərlərin ideya istiqamətini və bədii bütövlüyünü təmin edən əsas amil idi...

Vahid Əzizin poetik yaradıcılığını mövzu siferasını təsnif edəsi olsaq, əsasən, bu qənaətdəyəm: 1. İctimai-siyasi hadisələrə pafossuz, ritorikasız, sakit, təmkinli özünəməxsus baxış; 2. Azərbaycançılıq haləsində, böyük vətənpərvərliklə, yurdsevərliklə, milli təəssübkeşliklə üzvü surətdə birləşən - Türkçülük, Turançılıq ideya-estetik qayəsi onun poetik yaradıcılığının kordinal qayəsini təşkil edir, özünü "O, tayın, bu tayın şairiyəm mən.." - bütünlükdə türk dünyasının şairi elani-eşq edir:

*...Çəmənlər biçənəm, taxıl əkənəm,*
*yuvalar quranam, evlər tikənəm,*
*Yurdun hər yerində keşik çəkənəm -*
*Ordunun, Alayın Şairiyəm mən.*

*Keçib əsrlərdən, qərinələrdən,*
*dərs aldım Şeiriyyət dahilərindən,*
*əxlaqım, varlığım Türk ellərindən -*
*böyük bir Dünyanın Şairiyəm mən..."*

**(Vahid Əziz. Seçilmiş əsərlər. 2 cilddə, 2-ci cild. 2015-2024 seçmələri. Bakı, "Azərnəşr, 2024. s.282. - 314 səh.)**

Səmimilik, dürüstlük, etiraf, iztirab onun da sevgi poeziyasına xas xüsusiyyətdir. Ənənədən süzülüb gələn göz yaşı təkin duru, yanğılı axardır... Bu şeirlərdə sevən bir qəlbin bütün döyüntülərini eşidirsən, sünilik, bər-bəzək, sızıltı, inilti yoxdur, məhəbbətin iztirablı sədaları, çaları var... Vahid Əziz şaiin xoşbəxtliyini onun mühitinin hər çalarına sevgidə görür. Elə insanın xoşbəxtliyi də bundadır... Şairin "Sevgidən yazdım ki..." şeiri bu bu mənada olduqca mənalıdır:

*Dərədən-təpədən yazmağa nə var:*
*"dumandı" - yaz getsin, "çəndi" - çəkilsin,*
*sevgidən yazdım ki, nakam qalanlar*
*oxuyub, dərdini unuda bilsin.*

*... Sevənlər - Dünyanın qərib övladı,*
*bir azca onlara bənzəyər çiçək,*
*sevgi şairləri əbədi qaldı,*
*sevgisiz yaşayan izsiz öləcək.*

**30.04.2007. (Bax: Vahid Əziz. Yaşadım yaşamaq ehtiyacında..., şeirlər, 2 cilddə, I cild (1965-2015), Bakı, Azərnəşr,2024, s.141-142. - 387 səh.)**

Vahid Əzizin məhəbbət lirikasının bir qismi "Mahnı mətni" təkin təqdim edilir və bu təbiidir. Özü dediyi təkin: "Cavanlıqdan dodağımda zümzümə, ürəyimdə bayatıdır məhəbbət..."; "Həzin bayatılar söyləyən neyəm "

Ümumiyyətlə, onun şeirlərinə ən ünlü bəstəkarlar tərəfindən 50-dən çox mahnı yazılıb və bu mahnıları eləcə ünlü müğənnilər ifa edib və edirlər. Çünki Vahid Əzizin mahnı mətnləri qismən problemsizdir, sözlə musiqinin biri-birinə ritmik və tonik uyğunluğu, mətndəki ritmik vahidlərin zənginliyi, normal anəngdarlıq, şeirin avazı bəstəçiyə bəstə imkanı yaradır...

Bu mahnı mətnlərindən bir qismini yada salaq: "Mehribanım" (Bəstə: Elza İbrahimova, ifa - Şövkət Ələkbərova), "Gecikdin" (Bəstə: Elza İbrahimova, ifa - Flora Kərimova), "Bayatılar" (Bəstə: Eldar Mansurov, ifa - Brilyant Dadaşov), "Nəyimə gərək?", "Gecələr keçir"( Bəstə: Eldar Mansurov, ifa - Aygün Kazımova), "Əzizim", "Qurban olum" (Bəstə: Kəmalə Qasımova, ifa - Mirzə Babayev), "Aldatma məni" (Bəstə: Eldar Mansurov, ifa - Flora Kərimova), "Yaşadım, yaşamaq ehtiyacından", "Səninlə" (romans), "Sənə qalsın", "Yoxsan bu şəhərdə?..", "Gülüm", "Yasəmən, ah yasəmən", "Unuduldum", "Sevdiyini niyə danırsan?" (mahnı-duet), "Nə biləydim yalandı", "Yalan olar", "İncimədin ki?", "Səni sevməyimə peşmanam", "Yanğı", "Sevgilim", "Heç bilirsən, nələr olub o vaxtdan?", "Xatirə nəğmə" (Bəstə: Eldar Həsənov), "Deyəsən" (Bəstə: Könül Hüseynova), "Səndən sonra", "Xahiş" və s. bu qəbildən onlarla mətnlər sözlə liro-bəstələrdir, çeşmə kimi dumduru, çiçək təkin nazənin, "ürəyi sevgi yuvalı" qız duaları qədər inanclı ürəyin tellərindən qopan həzin həyat nəğmələridir...

Hətta, şairin mahnı mətni təkin təqdim etdiyi bayatılar da mövcuddur. Əlbəttə, bayatılar müəyyən ahənglə, musiqi ladında oxunur, bayatı çağrılır, laylalara dönür, amma profesional mahnı mətni təkin, bəstəkar bəstəsinə layiq olan mətn kimi onu təqdimi şairin bayatı lirik növündə onun axtarışlarının nəticəsi, istəyi kimin də qəbul edilməlidir:

***BAYATILAR***

**(mahnı)**

*Ürəyimdə ayaz var,*
*Nə qış gedib, nə yaz var,*
*Oyatma bənəvşəni -*
*Kol dibində ayaz var.*

*Kədərli axmayaydı,*
*Göz yaşım axmayaydı,*
*Yad baxmağı bir yana -*
*Yar yada baxmayaydı.*

*Yanımda qal bir az da,*
*Göz yaşı var Arazda,*
*Yar yuxusun danışıb -*
*Şəkli qalıb Arazda...*

1975 - 1984. (Bax: Vahid Əziz. Yaşadım, yaşamaq ehtiyacında. Şeirlər, 2 cilddə, I cild. 1965 - 2015-ci illərin seçmələri, Bakı, "Azərnəşr", 2024. S.21-22. - 367 səh.)



Vahid Əziz lirikasının poetikası - sərbəst şeir; heca, əruz Vahid Əziz xalq ədəbiyyatının bayatı, dodaqdəyməz, yanıltmac təki janrlarına müraciət edib çox orijinal nümunələrini yaratmışdır:

*Neçə illər alovlanır*
*dodaq-dodaqdan aralı.*
*həsrətinnən ynan könül*
*gəzər o vaxtdan aralı.*

*Sən sevgilər şəhanəsi,*
*arzu-istək şəlaləsi,*
*vay o günə həsrətlisi*
*gəzə çıraqdan aralı.*

**(Bax: Vahid Əziz. Yarım əsrin çiçəkləri. Səninlə.Bakı, "Azərnəşr", 2016. S. 336. - 497 səh.)**

Vahid Əziz klassik şeirimizin qəzəl janrına - şeir şəklinə də müraciət edib və mövzu, məzmun və şəkil cəhətdən yeniliklərlə diqqəti çəkən qəzəllər qələmə almışdır. Vahid Əzizin qəzəlləri mövzu, ədəbi-estetik fərqliliyi ilə bərabər, bu qəzəllərin leksikası təmiz ədəbi dilimizdədir və bəzən əruzda olan şeirlərdə müşahidə edilən yad leksik və fonetik ünsürlərdən tam arınmışdır...

Vahid Əzizin əksər qəzəlləri sillabik vəznin oxşrı olan rəcəz bəhrinə uyğun gəlir, daha da dəqiqləşdirsək, Vahid Əzizin qəzəlləri harmonik bölgülü heca vəznində yazılan qəzəllərdir.

Vahid Əziin qəzəlləri ənənəvi qəzəl janrından bir xüsusiyyəti ilə də fərqlənir. Qeyd etdiyimiz kimi, qəzəl janrı əksərən məhəbbət mövzusunda olur. Vahid Əziin qəzəllərinin mühüm bir qismi isə ictimai və fəlsəfi məzmun kəb edir, sosial mühitə nüfuz edir. Məsələn, onun "Savayı" - "Bu Vətən torpağını, Vallah, yetimlər qorudu; yetimin kimsəsi olmaz ki, Vətəndən savayı... " "Qalır" - "Yenə də bircə ümid Tanrı verən baxta qalır, Günü xoşbəxt aparır, nə qalsa - bədbaxta qalır, Görəsən, yer üzünün zülmünün olarmı sonu? Kim bilir, bəlkə o da əcəllə bir vaxta qalır?" ; "Bilirsən" - " Onsuz da bura "Dünya" adlı zindan olubdu, nələr çəkirəm saldığın qəfəsdə, bilirsən..."; "Çəkilib" - "...Vətənin gen gününə hamı can qurban eləyib, elə ki, düşdü dara-azmı qırağa çəkilib? Çahanda birçə nəfər Tanrıya övlad sayılıb - o, da insan əlinə düşüb-çarmıxa çəkilib..." ; "Gedəndi" - "Ağlım kəsəni, Vahid Əziz, "düzlüyü" gəzdi; tapılmır hələ, bəxt kimi yatıb da gedəndi..." qəzəllərindən gətirdiyimiz bu nümunələrdə dediyimiz cəhət öznü bariz bir şəkildə nümayiş etdirir... (Bax: Vahid Əziz. Seçilmiş əsərlər. 2 cilddə, 2-ci cild. 2015-2024 seçmələri. Bakı, "Azərnəşr, 2024. s.5. - 314 səh.)

Zəngın vüsətli Vahid Əziz poeziyası Vətənə, vətənpərvərliyə, vətəndaşlığa, vətənsevərliyə, Azərbaycana - azərbaycançılığa xidmət edir... Millətsevərlik, yurdsevərlik, poetik, lirik-dramatik Qarabağnamələr... Etiraz və ehtiras, fərdilik və fərqlilik, alilik və adilik, millətin, ordunun, haqqın uğuru, qalibiyyət qüruru, qutsal, ilahi qata bağlı Fatehlik eşqinin təntənəsi bu lirik Qarabağnamələrin məğzidir, məzmunudur, predmetidir... Dərələyəz mahalından olan, uşaqlıq və gənclik illərini daim Qarabağ havası duyulan Tərtərdə keçirmiş, Vahid Əziz hər zaman qəlbində doğma yurd, Qarabağ həsrətini, ağrı-acısını yaşamışdır. Şair ötən illər boyu Qarabağla, Zəngəzurla bağlı həm nostalji-nisgilli, həm də nikbinliklə dolu yüzlərlə şeir yazmışdır... (Bax Vahid Əziz. "Dərələyəz" poeması. "Ədəbiyyat qəzeti".- 2020.- 25 aprel.- S.18-19.)

Qarabağ da Dərələyəz təkin Vahid Əzizin bütöv qəlbinin şah damarıdır. Təkcə 2020-ci ildə qələmə alınan bir silsilədəki nümunələrə diqqət kəsilək. "Azərbaycandır Qarabağ", "Ləngimə, tez yetiş, böyük qələbə...", "Savaş bitib?..", "Bir gün bir aydır ki, yurd avaşddı...", "Əsgərin", "Qələbəli Azərbaycan...", "Gəlirik...", "Var ol, Ali Baş Komandan...", "Tanrı, qoru Azərbaycan Ordusunu...", "Ordu...", "Yalnız irəliyə, yalnız irəli...", "Qarabağım...", "Hələ bitmiş saymaq olmaz savaşı...", "Hicran a qalırdı "Qərinə" olsun...", "Onlar qayıtmadı bu son həmlədən...", "İtqovan"...", "Lap az qalır...", "Lap az qalır..." qəbildən şeirlərin motivirovkası əslində Qarabağın xilası uğrunda gedən qələbə döyüşünün poetik gündəliyidir...

*Zülmət getdi Qarabağdan,*
*ömrünü çıraq elədin,*
*var ol, Ali Baş Komandan -*
*çox günahkar nəsillərin*
*üzlərini ağ elədin!*

**("Var ol, Ali Baş komandan!.." şeiri. "Ədəbiyyat qəzeti", - 2020.- 31 oktyabr.- S.12-13.)**

Bu da, məşhur Stendalın fikridir: "Yadelli işğalçılara qarşı hər bir mübarizə qanuni işdir və xalqın birinci borcudur." Və bu müqədəs borcu xalqımız, dövlətimiz fəxarətlə, bütövlükdə şəhid olmağa hazır müsəlləh əsgər cəsurluğu ilə yerinə yetirdi və Vahid Əziz də vətənsevər bir şair kimi bu həyati həqiqətləri poetik həqiqətlər buketində təqdim elədi...

Vahid Əzizin şeirləri təpədən-dırnağa qədər həyat və insan haqqında işıqlı lirik düşüncələrdən yoğrulmuş daxili poetik monoloqdur... Vahid Əzizin şeirləri - işıqlı düşüncələrin şeiriyyətidir...

80 yaşını tamamlayan Xalq şairi Vahid Əzizin estetik idealı mərdanəliyin, bütövlüyün, milli düşüncənin, vətənpərvərliyin və müstəqil dövlətçiliyin daşıyıcısı olan lirik-romantik qəhrəmandır. Bu lirik qəhrəmanın ayağı odlu torpaqdadır, başının üstündə isə üçrəngli dövlət bayrağı dalğalanır. Vətən torpağı ilə dövlət bayrağının vəhdəti Vahid Əzizin estetik idealının mahiyyətidir...

80 yaşın mübarək, yaşdaşım, ədəbi qəhrəmanım, ilhamı laciverd poetik üfüqlərdə pərvaz edən, bu ufüqlərdən ötgəm, yenilməyən, ritorikadan uzaq, saf duyğuların, səhər mehi təkin xəfif, təmiz səsi eşidilən, adını böyük hərflərlə qeyd etdiyim - VAHİD ƏZİZ!!

***Ps.: Məqalə dərc üçün təqdim edilən ərəfədə Respublika Prezidentinin Vahid Əzizə "Şöhrət" ordeni verilməsi haqqında sərəncamı verildi. Şöhrətə çoxdan çatmış Xalq şairinin 80 yaşındakı "Şöhrət" ordeni bizi də sevindirdi və təbrik edirik!!***

## *Yenidoğulmuşun sarılığında "gizli" risklər ultrasəs və MRT ilə necə aşkarlanır?*

**"Yenidoğulmuşlarda sarılıqların diaqnostikası əsasən kliniki əlamətlər, laborator müayinələrlə (qanda ümumi bilirubinin, düz bilirubinin səviyyəsi, qanın ümumi analizi və s.) aparılır".**

Adalet.az xəbər verir kii, bunu "Sağlam radio"nun (93 FM) "Sağlam səhər" verilişində pediatr Aynur Bağırova deyib.

Onun sözlərinə görə, uzun sürən və ağır olan sarılıqlarda, xüsusən düz bilirubinin yüksənlməsi ilə gedən hiperbilirubinemiyalarda tibbi qenetika mərkəzində dərin müayinə aparıb metabolik xəstəliklər, uşaq cərrahiyə mərkəzində punksion biopsiya, xolangioqrafiya istifadə edərək biliar patoloqiyalar istisna edilməlidir:

"Funksional müayinə üsullarından qarın boşluğu üzvlərin ultrasəs müayinəsi (qaraciyər, öd kisəsi, dalaq) vasitəsilə hepatosplenomeqaliya, qaraciyərin metabolik xəstəlikləri və digər xəstəliklərdə qaraciyərin zədələnməsi, biliar atreziya, parenteral qidalanma ilə əlaqəli xolestaz, proqressivləşən ailəvi qaraciyər daxili xolestaz və s. kimi patologiyaların diaqnostikasında mühüm əhəmiyyət kəsb edir".

Pediatr sonda bildirib ki, qeyd edilən patologiyalarda daha dəqiq diaqnoztika üçün həkimin təyinatı ilə qarın boşluğu orqanlarının MRT müayinəsi də aparıla bilər.

## *Ukrayna nüvə silahı hazırlayır?*

**Ukrayna Böyük Britaniya və Fransanın dəstəyi ilə nüvə silahı hazırlayır.**

Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, bunu populyar "Megaupload" və "Mega" fayl mübadilə xidmətlərinin yaradıcısı Kim Şmits (daha çox Kim Dotkom təxəllüsü ilə tanınır-red.) öz rəsmi "X" səhifəsində bildirib.

"Ukrayna Böyük Britaniya və Fransanın köməyi ilə nüvə silahı hazırlayır", - deyə o vurğulayıb.

Dotkomun sözlərinə görə, məhz bununla əlaqədar olaraq Ukrayna üzrə sülh danışıqları uzanır.

KİV yazır ki, ABŞ və Ukrayna nümayəndə heyətləri Floridada keçirilən son danışıqlarda ərazi güzəştləri məsələsində irəliləyiş əldə edə bilməyib.

Qeyd edilir ki, görüşdə təhlükəsizlik təminatları, dondurulmuş Rusiya aktivlərinin taleyi və Ukraynada mümkün seçkilərlə bağlı məsələlər müzakirə olunub, lakin ən çətin məqamlar, o cümlədən ərazi məsələsi üzrə hər hansı anlaşma əldə olunmayıb. Kiyev ərazi güzəştlərinə getməyə hazır deyil.

# Kişi salonu

**(Hekayə)**



***Seyran Səxavət***

**Səlim milyonluq şəhər məktəblərinin birində dil-ədəbiyyat müəllimi idi. Dünyanın indiki vaxtında şagirdlər onu çox istəyirdi və bir sözünü iki etməzdilər. Bu gün-sabah yaşı əllini haqlayacaq. Cavan vaxtlarında az-az uydurduğu - yeri gələndə də, gəlməyəndə də, şeir yazırdı. Ancaq heç kəsin bundan xəbəri yox idi, yazdığı şeirləri özü oxuyub kef eləyirdi - o şeirlər həsr etdiyi qızın da elmigümanı çatmazdı. Səlim bu işi o qədər dövlət sirri səviyyəsində gizli saxlayardı ki, adam hərdən şübhələnirdi ki, görəsən, onun özünün şeir yazmasından xəbəri varmı?..**

Səlim səbirli olsa da, cırtdaqozluğu da vardı, xırda bir haqsızlığa görə ucundan tutub gedə-gedə az qala, bütün bəşəriyyəti günahkar çıxardar, bir prokuror ədası, hikkəsiylə onun cəzalandırılmasını istəyərdi. Ancaq belə bir mexanizm yox idi axı, indiyə qədər bütün bəşəriyyəti kim cəzalandırıb? Həm də bu, kimsənin bacaracağı iş deyildi - Allahdan başqa...

İki məsələ onu bərk narahat edirdi, demək olar ki, bütün rahatlığını əlindən almışdı. Müəllimlərin şagirdlərin ayağına verilməsi ilə heç cür barışa bilmirdi. Düzdü, bu məsələnin şəxsən onun hörmətinə, şagirdləri tərəfindən sevilməsinə heç bir dəxli yox idi, ancaq ölkədəki böyük müəllimlər ordusu tək Səlimdən ibarət deyildi axı.

O, ürək qızdırdığı bir-iki nəfərə deyirmiş ki, mənim tanıdığım bir yer var, hərdən qalxıb ordan saatlarla, diqqətlə dünyaya baxıram, hamı gedir; yavaş gedən, tələsən, sürünən... ancaq hara getdiklərini bilmirlər, çünki tez-tez dayanıb geri baxırlar, ona görə mən də şübhələnirəm - çox qəlizdi...

Ürək qızdırdığı bir-iki nəfər Səlimə deyəndə ki, bir dəfə o yerə qalxanda bizi apar, biz də ordan baxaq, görək dünyada nə var, nə yox, "olmaz" deyirmiş.

- Niyə olmaz?

- Olmaz də...

- Axı, niyə olmaz də, biz də bilək...

- A kişilər, ona görə olmaz ki, orda sizin havanız çatmaz, boğularsınız, ürəyiniz qalxar. Ordan kəlləmayallaq olub, təkər kimi diyirlənərsiniz dərənin dibinə. Bir də yadınızda saxlayın: o mən dediyim yer biradamlıqdı, biradamlıq. Yer üzündə neçə milyard adam var?

- Çoxdu, çoxdu...

- Bax, hər adamın heylə bir yeri var, nə vaxt istəsə, ora qalxıb dünyaya baxa bilər; ancaq adamların çoxu o yuxarıdakı yerinin harda olduğunu bilmir. Bu, hələ harasıdı ki? Adamların çoxu... adamların çoxu... bilmirlər ki, yuxarıda heylə bir yerləri var, ee... dəhşət budu, bu...

Səlim hər gün tezdən o biradamlıq yerinə qalxır, dünyaya tamaşa eləyir, günəş çıxmamış evinə qayıdır ki, hava işıqlanar, onu görüb-eliyən olmasın.

Şeir yazdığını dövlət sirri səviyyəsində gizli saxladığı kimi, yüksəklikdəki yerini də hamıdan yayındırırdı.

O, son vaxtlar çox kövrək olmuşdu; bu, ya mərhəmətdən, ya da zəifliyindən doğurdu - adamlara yazığı gəlirdi, onlara acıyırdı, bəlkə doğrudan adamlar yazıq günə qalmışdı. Bəzən yaşadığı böyük məhəllənin başından girib ayağından çıxırdı ki, kiminsə üzündə təbəssüm görsün, rahatlaşsın - əksini görəndə bir az da ağırlaşıb geri qayıdırdı, evə girməyi ilə çıxmağı bir olurdu, özünə yer tapa bilmirdi; özünə yer tapa bilməyəndə isə əlacı qalırdı çıxıb dünyaya baxdığı o biradamlıq yerinə. Ora isə gündə bir dəfədən artıq qalxmaq olmazdı...

O, axırıncı beş-altı ayda, demək olar ki, durduğu yerdə işə düşmüşdü, dərdini heç kəsə deyə bilmirdi, salmışdı içinə. Səlim, necə deyərlər, içindən yaralanmışdı, mühit onu içindən vurmuşdu. İç yarasını isə heç kəs görə bilmirdi, axı o, bu yarasını özü də hamıdan gizlədirdi, utanırdı; ona elə gəlirdi ki, bu barədə kimə danışsa, ya ona gülüb arxada ələ çalacaq, ya da şübhələnib orda-burda deyəcəklər ki, o söz...

Səlimin ürək qızdırdığı, simsar hesab elədiyi iki nəfər var: birinin boyu çox hündür olsa da, ağlı topuğunda deyildi, ikincisi gödək adam idi, ancaq çoxbilmiş deyildi. Və onlar ikisi də çox yaxın dost idilər, arvad-uşaq da bir-birini tanıyır, getgəlləri vardı. Onlar şəhər məhləsinin parkına gəzməyə çıxanda çox gülməli görünürdülər - əgər uzun gödəyin əlindən tutsaydı, gendən baxanlar elə bilərdi ki, ata-baladılar və ata balasını gəzməyə çıxarıb. Heç kəs bilmirdi ki, "bala atasından" yaş yarım böyükdü - əlbəttə, bu onları tanımayanlara aiddi.

Bu cütlükdən başqa Səlimin gümanı heç kimə gəlmirdi. Cütlüyün də ona böyük hörməti vardı: - Azərbaycanda bir müəllim varsa, o da Səlim müəllimdi... kişinin oğlu dəryadı dərya... adam nə qədər şeir əzbər bilər... baş deyil eee, maqnitafondu, maqnitafon...

O tanışlarının vasitəsiylə son altı aydakı durumu ilə əlaqədar yaxşı bir həkim də tapmışdı, təxminən, on-on iki seans qəbul edəndən sonra xeyli özünə gəlmişdi. Axırda isə həkim ona dedi:

- Səlim müəllim, heç bir təhlükəfilan yoxdu, siz güclü adamsınız, bundan sonra özünüz öz həkiminiz olmalısınız...

- Axı, necə? - Səlim bir az da gen-bol həkim məsləhəti istədi.

- Səlim müəllim, biz sizin yanınıza bir adam qoşa bilmərik ki, o, hər dəfə sizinlə olsun... siz şəhərin müxtəlif yerlərində o lövhəyə rast gələndə görməyəsiniz, deyə üzünüzü başqa tərəfə çevirsin - bu, mümkün deyil, yoxsa, mənə nə var... yenə sizə seans verib pulumu alaram də... Axı, siz doğrudan yaxşısınız... Fikir verməyin...

- Həkim... o yerlərin adını dəyişib dəlləkxana qoymaq olmaz?

- Yəqin ki, olar? - Həkim qayğıkeşliklə dilləndi.

- Görəsən, onu kim eliyə bilər? - ümidlə soruşdu.

- Mən bilən baksovet eliyə bilər... icra hakimiyyəti...

Səlim həkimin yanından çıxıb tək-tənha xeyli gəzib-dolandı, uzun-uzadı götür-qoy eləyəndən sonra bu qərara gəldi ki, Bakı Şəhər İcra Hakimiyyətinə ərizəylə müraciət eləsin... Hə... bir də şəxsiyyət vəsiqəsi ilə bağlı Prezident Aparatının müvafiq şöbəsinə geniş bir teleqram göndərməliydi. Səlimə elə gəlirdi ki, burda böyük yanlışlıq var, necə yəni şəxsiyyət vəsiqəsi - ölkədə uşaqlı-böyüklü on milyondan bir az artıq adam yaşayır, deməli, bunların hamısı şəxsiyyətdi?! Biz tarix yazanlara, tarixi yaradanlara da şəxsiyyət deyək - şəxsiyyət vəsiqəsi verək, kanalizasiya təmizləyənlərə də?! Bəs, fərq?! Özü də nə boyda fərq...

Birdən Səlimə elə gəldi ki, məktubun da, teleqramın da cavabı gəlib, hər ikisi də müsbət həll olunub. Ağlına gəldi və ağlına gələnə elə inandı, elə inandı ki, elə bil ağlına gələn başına gəlib. Sonra da "niyyətin hara, mənzilin ora" atalar misalını xatırladı - bu, lap yerinə düşdü və onun kefi kəllə-çarxa vurdu... Səlimin belə xasiyyəti də vardı - bəzən mənəvi cəhətdən əliyalın olsa da, özü-özünü tək qoymurdu, kömək eləyirdi, əl uzadırdı...

Səlim evindəki yazı stolunun siyirtməsini çəkib səliqə ilə qatladığı kərpici şagird dəftərinin vərəqini açıb, ordakı siyahını diqqətlə nəzərdən keçirəndən sonra varlığına şirin tənbəllik hopsa da, təslim olmadı:

- Kişi başladığı işi yarımçıq qoymaz... özün də kişilik uğrunda döyüşürsən, cəmisi səkkizi qalıb... uzağı, iki saatlıq işin qalıb, möhkəm ol, - dəhlizdəki yumru güzgünün "üzünə" güldü, elə bil dişlərini güzgüyə göstərirdi...

O, uzun müddətdi gecədən xeyli keçmiş evdən çıxıb gedirdi, səhərə yaxın qayıdırdı. Arvadı ondan əməlli-başlı şübhələnmişdi, ancaq heç nə demirdi, aradan pərdəni götürmək istəmirdi, hələ gözləyirdi, gözləyirdi ki, görsün işin axırı nə ilə qurtaracaq. "Gecədən xeyli keçmiş evdən çıxıb gedən, səhərə yaxın, xoruz banlamamış qayıdıb gələn kişi hara gedə bilər? Ya oğurluğa, ya adam öldürməyə, ya da ki, özgə arvad yanına gedər... başqa hara var ki, hara gedə... Gecənin qırt yarısında kitabxana işləmir... kababxana işləmir... Nə bilim, bir az da dözüm, görək noolur... Dözmüşəm, axıracan dözüm".

Bu müddətdə Səlimlə ikicə dəfə dəhlizdə qarşılaşıb; bir gün səhərə yaxın evə qayıdanda, bir dəfə də gecəyarı evdən çıxıb gedəndə - çünki Səlim elə sakit-sakit gedib-gəlirdi ki, heç kəs duyuq düşmürdü - lap ruh kimi gedib-gəlirdi. Hər iki halda arvad soruşanda ki, gecənin bu vaxtı xeyir ola - cavabı belə olmuşdu:

- İşim var... sən narahat olma.

...Gecə saat dördün yarısı-zadı olardı. Səlim başında uzun dimdikli papaq, gözündə qara eynək dəlləkxanaya yaxınlaşıb qoltuq cibindəki çəkici çıxardı, sağ əli ilə "Kişi salonu" yazılmış işıqlı lövhəyə necə çırpdısa, çilik-çilik oldu, öz-özünə pıçıldadı:

"Kişi salonu... İndi kişi var, salon da ola?!. Kasıb itinin adını gümüş qoyan kimi..."

Səlim hər dəfə "Kişi salonu" yazılmış işıqlı lövhəni qoltuğunda gəzdirdiyi çəkiclə vurub çilik-çilik eləyəndə mütləq bu sözləri pıçıldayırdı, bir az fasilə verəndən sonra pıçıltıdan bir az yuxarı tonda üç kəlmə əlavə eləyirdi:

"Qarabağsız kişi olmaz!!!"

Ürəyi soyumurdu, sonuncu əlavəsini də edirdi:

"Səlim! Sən də kişi deyilsən!!! Birdən elə bilərsən... Çaşma, haaa!!!"

...Səhərə yaxın evinə-eşiyinə qayıdanda arvadı dəhlizdə onu qarşıladı:

- Bu vaxtı xeyir ola, ay Səlim? - Qıpqırmızı gözlərini ərinə zillədi.

- İşim var... sən narahat olma.

Arvadın səbri lap çoxdan tükənib yerə tökülmüşdü:

- Bəs, sənin bu işin nə vaxt qurtaracaq? - Arvadı Səlimdən onu rahatlayacaq bir cavab gözləməsə də, soruşdu.

- Bu gün... bu gün qurtardı... Sən narahat olma...

Arvadı Səlimin boynuna sarılıb için-için hıçqırdı, onun boynu islandı, bu duzlu nəmlikdən Səlimin ürəyinə bir dünya işıq şırıltı ilə axdı, ancaq bu şırıltını Səlimdən, bir də arvadından başqa heç kim eşitmədi...

...Səlim son altı ayda, bəlkə otuza qədər dəlləkxananın "kişi salonu"nu çəkiclə vurub çilik-çilik eləmişdi. Hardasa ürəyinin dərinliyində, bəlkə də lap dibində unudurdu ki, mənasız işlə məşğuldur, ancaq özünü saxlaya bilmirdi. Adamın inanmağı gəlmirdi ki, işdi-şayəd, Qarabağ nə vaxtsa azad edilsə belə, Səlim dayanmayacaq - o qəti surətdə əmin idi ki, kişi yoxdu, vəssəlam!

Sosial şəbəkələrdə və bəzi saytlarda, hətta bir-iki dəfə də televizorda xəbər vermişdilər ki, guya bir mütəşəkkil dəstə şəhərin mərkəzi küçələrindəki dəlləkxanalara maddi zərər vurur və polis əməliyyat tədbirləri keçirsə də, hələlik cinayətkarın izinə düşə bilmir. Yaxşı ki, Səlim ələ keçməmişdi...

Arvadı son vaxtlar Səlimdən bir balaca şübhələnmişdi: "Elə bil ki, kişi nəsə birtəhər dəyir ee, gözümə..." Sonra da öz-özünə təskinlik verirdi: "noolub, gül kimi kişidi..."

Səlim son aylar bu işlə məşğul olduğu müddətdə bir şey gözləyirdi - gözləyirdi ki, bu iş nə vaxt faş olsa, kütləvi informasiya vasitələri, sosial şəbəkələr bu barədə yazsalar, kimliyi bilinməsə də, onu tərifləyəcək, ruhlandıracaqlar. Ancaq tam əksini gördü, adı bilinməsə də hamı onu qınayırdı, tənbeh eləyirdi. Bu, Səlimi sarsıtdı və keçirdiyi sarsıntı ona yol göstərdi: gecənin qırt yarısı üç dəlləkxananın qapısına, tanınmasın deyə əyri-üyrü xətlə belə bir məktub da yazıb qoydu: "Bu nə addı? Kişi salonu -  indi kişi var ki, salonu da olsun?!" Səlimin bu şanlı məktubu sosial şəbəkələrə yol tapandan sonra yerindən duran onu müdafiə edib tərifləyirdi, az qala onun şərəfinə tost da deyirdilər: "Halal olsun. Kişi adamdı. Onu tanısaydım, əlindən öpərdim". Hətta orta yaşlı bir qadın yazmışdı ki, "adamın belə əri ola... bəxtəvər onun arvadının başına".

Səlim bu rəyləri oxuduqca ürəyi dağa dönsə də, sevincini yarımçıq hesab eləyirdi - axı, heç kəs bilmirdi ki, bu tərifnamələr onun ünvanına idi. Xüsusilə, orta yaşlı qadının yazdığı qibtə dolu sətirlər: "Kaş arvad biləydi ki, o mənəm..." Ancaq bir böyük, möhtəşəm təsəllisi də vardı ki, camaat onun tərəfində idi.

Hətta bu da, Səlimin tam rahat olması üçün kifayət etməmişdi. "Kişi salonu" məsələsi sosial şəbəkəni əməlli-başlı işğal eləyib gündəmə çevirmişdi və get-gedə sakitləşmək əvəzinə daha da qızışırdı. Bütün bu çalxalanmanın mərkəzində isə bir naməlum şəxs dayanırdı, heç kəs onu tanımırdı, ancaq hər kəs onu tanımaq istəyirdi - onu bircə nəfər tanıyırdı - Səlimin özü...

Ancaq Səlim az qalırdı ortasından çatlasın - bu barədə kiməsə ətraflı söhbət eləyib sakitləşmək istəyirdi; ürəyində belə bir adamın axtarışında idi, ancaq tapa bilmirdi. Bütün qohum-əqrəbası, dost-tanışı növbə ilə, səliqə-sahmanla gəlib onun gözlərinin qabağından keçdi, qorxdu, heç birinə etibar etmədi, hərəsinə bir "qəmiş" qoydu və uzun "axtarış-əməliyyat tədbirlərindən" sonra elə bil nəsə tapdı: arvad... bir də piyada gəzəndə ata-balaya oxşayan ürək qızdırdığı o cütlük. Bu da, bir problem yaratmışdı, indi də qalmışdı arvadla cütlüyün arasında... Onun ürək qızdırdığı bu cütlük, arvadla müqayisədə bir neçə köynək ondan uzaq idi. "Elə arvad hamısından yaxşıdı vallah, uşaqlarımın anasıdı də... o yaxşıdı..." Tam qərara gəlməmiş bir fikir də pırtdayıb ortalığa çıxdı: "axı, deyirlər, arvadın boğazında hülqum olmur... cəhənnəmə-gora olsun... mən onun boğazına hülqum qoyduranam?!" Yadına bu gün qadınlar arasında dəbdə olan kosmetik əməliyyat düşdü. Tələsik qərarını dəyişdi.

Səlim çayxanada tək-tənha oturub "calaq" işinə baxırdı, çay içə-içə siqareti siqaretə calayırdı. Dünəndən danışdıqları kimi ürək qızdırdığı o cütlüyü gözləyirdi - tez-tez də saatına baxırdı. Onun bu hərəkətindən sonra gendən baxanlar bu qərara gəlmişdilər ki, Səlim müəllim kimisə gözləyir. Əslində bu cütlüyün günahı yox idi, Səlim özü tez gəlmişdi; onun adəti idi, bütün görüşlərə on-on beş dəqiqə tez gedər, danışdıqları vaxt tamam olandan sonra da, uzağı, on beş dəqiqə gözləyərdi, gəlməsəydi, çıxıb gedərdi. Heç vaxt heç kəsi gözlətmədiyinə görə də, heç vaxt heç kəsi gözləməzdi, uzağı, on-on beş dəqiqə. Cütlük Səlimin stoluna yaxınlaşan kimi Uzun saatına baxıb soruşdu:

- Çoxdan gəlmisiniz? - Özü də cavab gözləmədən əlavə etdi, - biz vaxtında gəlmişik, - çönüb Gödəyin üzünə baxdı.

- Oturun, oturun... mən tez gəlmişəm... oturun.

Uzunla Gödəyin birlikdə çayxanaya təşrif gətirmələri elə bil ki, çay içənlərin hamısının üz-gözünə təbəssüm yaxdı, hətta kimsə yaxın stolların eşidə biləcəyi bir tərzdə dilləndi də: "ata-baladılar, ee... ata-bala gəldi..." Halbuki yuxarıda dediyimiz kimi bala atadan yaşca böyük idi.

- Uşaqlar, sizə işim düşüb, - Səlim ehtiyatla ətrafa nəzər saldı.

- Səlim müəllim, özünüz də bilirsiniz ki, sizə nə boyda hörmətimiz var, - Uzun Gödəyin üzünə baxan kimi dostu başı ilə onun dediklərini təsdiqlədi, - biz hazır, - dedi.

Səlim onları birinci dəfə görürmüş kimi diqqətlə nəzərdən keçirdi:

- Heç bilmirəm, necə deyim? - Səlim narahatlıq içində idi.

- Ay Səlim müəllim, biz özgə deyilik ki, bizə söz demək üçün hazırlaşasınız, - bu dəfə Gödək qabağa düşdü, Uzundan dəstək gözləyirmiş kimi onun üzünə baxdı, - necə xətrin istəyir, elə də, deee...

- Uşaqlar, sizin içinizdə kiminsə sirri var? - Səlim qəfil soruşdu.

Cütlük təəccüblə bir-birinin üzünə baxıb nə deyəcəklərini bilməyəndə, Səlim onlara kömək etməyə tələsdi:

- Yəni demək istəyirəm ki, sirr saxlaya bilirsiniz? - Uzunun üzünə baxdı, Uzun da Gödəyin, elə bil ondan nəsə gözləyirdi.

Gödək dedi:

- O baxır nə sirdi də... - Əvvəlcə Səlimin, sonra da Uzunun üzünə baxdı.

Uzun dilləndi:

- Düz deyir... O baxır nə sirdi... Ailə sirri var, dövlət sirri var... nə bilim, vallah...

Cütlüyü maraq götürmüşdü, Səlim də bunu hiss elədiyinə görə xırtdaya-xırtdaya qalıb gözlərini döyürdü, bu tərəfdən də "nahaq yerə onları bura çağırdım, indi nə deyim, necə deyim... qorxuram" fikri onu elə bil ki, divara dirəyib sıxırdı - qalmışdı sıxıla-sıxıla...

Axır ki, dilləndi:

- Uşaqlar, mənə sabaha qədər vaxt verin... fikirləşməliyəm, - Səlim onların üzünə baxmadan ayağa durub çayın pulunu verib getdi.

Cütlük, əvvəlcə gözdən itənə qədər Səlimin dalınca, sonra da bir-birinin sifətinə baxa-baxa qalmışdı.

Səlimin xəbəri yox idi ki, rəngi qapqaradı. Ona görə də içəri girən kimi arvadı onun qabağına yeriyib həyəcanla dedi:

- Ay Səlim, noolub sənə... niyə bu gündəsən?

- Yavaş... uşaqlar eşidər... noolub ki, mənə... - dəhlizdəki güzgüdə özünə baxıb çənəsini də yüngülvari əlləşdirdi. Sonra yataq otağına keçib arvadı çağırdı; arvad tələsik, elə bir az da qadın istəkləri ilə özünü Səlimə çatdırdı, qapını da arxadan bağladı.

Səlim cütlüklə elədiyi söhbəti təxminən, arvadı ilə də elədi. Səlimin dedikləri cütlüyü hansı hala salmışdısa, arvadı da o vəziyyətə qoydu. Axırda üzünü arvada tutub pıçıldadı:

- Ay qız, mənə sabaha qədər vaxt ver... fikirləşməliyəm...

Sabahı gün Səlim yenə çayxanada cütlüklə görüşdü, dünənki gün yenidən təkrar olundu. Axırda da dedi:

- Uşaqlar, mənə bir gün də vaxt verin... fikirləşməliyəm.

Sonra da çayın pulunu verib evə gəldi. Yenə güzgüdə özünə baxıb arvadı yataq otağına çağırdı; arvadı bu dəfə tələsmədən, heç bir istəyi olmadan Səlimin yanına gəldi.

Ancaq, mənim bir yazıçı kimi xəbərim olmadı ki, Səlim arvadına nəsə dedi, ya demədi...

Yazıçının da xəbəri olmadığı şeylər çox olur.

**Şabran,**
**Oktyabr, 2024**

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 46 (2469) 5 dekabr 2025-ci il



# BU YERLƏRƏ BİR DƏ GƏL



**Azərbaycanın hansı bölgəsinə, hansı rayonuna, hansı qəsəbəsinə və hansı kəndinə ayaq bassan, orda birmənalı olaraq böyük dəyişikliklər, böyük quruculuq işləri, abadlıq və qeyri-adi mənzərələrin şahidi olmaq mümkündür. Əlbəttə, bütün bunları həyata keçirmək üçün ölkəmizin zəngin iqtisadiyyatı, maliyyə mənbələri mövcuddur. Təbii ki, bu maliyyə mənbələri olmadan bölgələrimizdə o qədər möhtəşəm abadlıq və quruculuq işlərini həyata keçirmək çox çətin olar. Və bir də hansı rayondakı quruculuq işləri görülür, həmin rayonun sakinləri də bu işdə heç şübhəsiz, yaxından iştirak edir.**

Belə abadlıq və quruculuq işləri görülən rayonlarımızdan biri də Qubadır. Təbii ki, Quba şimal bölgəsinin bütün dövrlərdə mərkəzində dayanan bir region olub. Yəni burda istər Sovet dönəmində, istərsə də müstəqillik dövründə iqtisadiyyatın inkişafına, böyük tikinti işlərinə, sosial obyektlərin inşasına xüsusi bir önəm verilib. Həm də onu qeyd edək ki, Quba şəhəri tarixi və memarlıq üslubuna görə zəngin mədəniyyətə malikdir. Bu yerlərin xalçası, min rəngə çalan o gözəl gəbələri təbii ki, insanların həmişə diqqət mərkəzində olub. Amma bizim məqsədimiz heç də Quba xalçalarından danışmaq deyil, Quba rayonunda görülən möhtəşəm abadlıq və quruculuq işlərindən söhbət açmaqdır. Heç şübhəsiz, bütün bunları həyata keçirmək üçün bayaq dediyimiz kimi, böyük maliyyə imkanları tələb olunur.

Son 20 ildə demək olar ki, Qubada bir-birindən gözəl parklar, xiyabanlar, istirahət mərkəzləri, muzeylər və eləcə də digər sosial obyektlər inşa edilib. Ən müasir üslubda Olimpiya İdman Mərkəzi, xəstəxana, uşaq bağçaları tikilib. Onu da qeyd edək ki, Qubada gedən abadlıq işlərinə tək yerli camaat deyil, həm də xarici ölkələrdən bura səyahət edən turistlər də heyran qalırlar. Çünki ilk növbədə xaricdən gələn əcnəbilər hotellərdə, istirahət mərkəzlərində, restoranlarda, yeməkxanalarda rahat yer axtarırlar. Başqa sözlə demiş olsaq, onlar komfortlu və hər cür şəraiti olan istirahət mərkəzinə daha çox meyl edirlər.

Heç şübhəsiz, bu qədər böyük, möhtəşəm işlərin görülməsi hər bir insandan, hər bir vətəndaşdan böyük məsuliyyət tələb edir. Qubada bir-birindən gözəl parklar, xiyabanlar çoxdur. Və eyni zamanda bir-birindən gözəl istirahət mərkəzləri də az deyil. Amma adama ən çox xoş gələn odur ki, bu gözəl məkanlara minlərlə insan təşrif buyurur və orda ürəkləri istədiyi kimi istirahət edirlər. Bütün bunları deməkdə məqsədimiz ondan ibarətdir ki, Quba hər gün qubalıların gözündə bir az da böyüyür, bir az da ucalır və bir az da inkişaf edir. Biz dəfələrə Qubada olmuşuq. Ümumiyyətlə, bir fikri deyək ki, Qubanın bütün fəsilləri gözəldir. Yazın öz gözəlliyi var, yayın öz gözəlliyi, payızın da öz əsrarəngsizliyi. Qışın da özünəməxsus cizgiləri var.

Bu yaxınlarda ailəlikcə yenidən Qubaya baş çəkmişdik. Bir müddət idi ki, ora getmirdik, amma az müddətdə gördüyümüz abadlıq, quruculuq işləri bizi çox sevindirdi. Hətta o qədər sevindirdi ki, müalicə ocaqlarının birində bir neçə gün müalicə olunduq. Əvvəllər bu müalicə üçün Rusiyaya getməliydin, amma bu gün Qubada elə sağlamlıq mərkəzləri, sanatoriyalar, müalicə ocaqları var ki, heç də xaricdəkindən geridə qalmırlar. Həmin müalicə mərkəzində istirahət edən bir nəfərlə tanış olduq. Bu 85 yaşlı Məmməd Cəfər oğlu Əliyev idi. Dedi ki, oğul, mən hər il Qubaya iki dəfə istirahətə gəlirəm. Bir dəfə yay aylarında, onda gəlib Qəçreşdə və bir də gözəl meşəliklərdə düz bir ay istirahət edirəm. Payızda isə xəstəliklərin oyandığı dövr olduğu üçün gəlib burda sanatoriyada müalicə alıram. Özü də hər dəfə müalicədən sonra özümü daha yaxşı hiss edirəm. Ona görə də noyabr və dekabr ayının əvvəlində bir qayda olaraq bura müalicəyə gəlirəm. Sözün düzü, biz də bir neçə gün həmin müalicə ocağında olduq. Hər cür şəraiti olan bu sanatoriyada elə bir neçə gün müalicə almaq da insana bəs edir. Pulun olsa lap çox müalicə götürsən, səhhətin daha da yaxşılaşar.

Ordan tənbəllik eləməyib Heydər Əliyev parkına üz tutduq. Noyabr ayı olsa da hava bir qədər əvvəlki vaxtlara nisbətən ilıq keçirdi. Elə bir neçə təqaüdçü, yaşlı insanlarla da bu parkda tanış oluruq. Onlardan biri Həşim Əliyevdir. Həşim Əliyev uzun müddət iqtisadiyyat sahəsində çalışıb. Daha doğrusu, Quba Konserv zavodunda işləyib. İndi onun doxsana yaxın yaşı var.

Həşim müəllim deyir ki, ömrümü çox gözəl yaşamışam. Doqquz övladım olub, hamısına da ali təhsil vermişəm, evləndirmişəm, ev-eşik sahibi etmişəm. İndi onların hərəsi bir sahədə işləyir, oğlum Cəfər isə həkimdir. Maşallah, nəvələrim də hamısı ali məktəbi qurtarıb bir işin qulpundan yapışıb. Biz dədəbabadan zəhmətkeş nəsil olmuşuq. Bununla yanaşı, kitab oxumağı da yaddan çıxarmamışıq. Uşaqlarım deyir ki, ata, sənə nə kömək edək? Bəlkə bir çətinliyin var? Şükür Allaha, mənim heç bir çətinliyim yoxdur, aldığım təqaüd mənə bəs edir. Mühasib işlədiyimə görə müəyyən adamlar gəlib məndən məsləhət alırlar. Onlar da istər-istəməz çəkdiyim zəhmətə görə mənə pul ödəyirlər. Heç çox vaxt pul da istəmirəm, amma mənə zorla verirlər.

**Həşim müəllim deyir ki, mənimlə həmyaşıd dostlarım var, Qəzənfər, Paşa, Cəmil, İdrak, Nikolay və Qurban, onlar da elə hər gün mənim kimi bu parka gəlirlər. Allaha and olsun, Qubanın hansı yerinə gedirsən, bax, belə cənnətdir. Tək rayon mərkəzi deyil, qəsəbələrimiz, kəndlərimizdə belə çox böyük abadlıq, quruculuq işləri görülüb. Kəndlərə asfalt yollar çəkilib, yeni məktəblər, xəstəxanalar, uşaq bağçaları tikilib və orda Quba camaatı özünü çox rahat hiss edir və rahat da yaşayırlar. Bütün bu gözəlliklərə görə, yaradılmış şəraitə görə Ulu Öndər Heydər Əliyevə və Prezident İlham Əliyevə minnətdarıq. Çünki Ümummilli Liderin ölkəmizə rəhbərlik etdiyi dövrdə Qubada çox möhtəşəm abadlıq işləri görülüb. İndi də onun siyasətini İlham Əliyev cənabları davam etdirir. Allah ona cansağlığı versin və doğmalarını qorusun!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*Əntiqə Kərimzadə*

# Ömrü "Yaz yağışı"nda islanan Eyvaz

***Yazdığı şeirlər ciddi ədəbiyyat nümunəsi sayılmasa da, o, bir çox adamların deyə bilmədiyini nəzmə çevirmişdi. Onu daha çox yeniyetmələr və gənclər sevirdilər.***

***Hamı onu ayyaş şair kimi tanıyırdı. Lakin sonra məlum olur ki, o, bir çox dünya klassiklərinin yaradıcılığını mükəmməl bilir. Hətta Şərq- Qərb ədəbiyyatının hamısından xəbərdardır.***

***Nakam məhbbətindən sadə şeirlər yazan, avtobus sürücüsü kimi tanınan şair əslində dərin bir oxucu olub. Bu adam hamımızın Yetim Eyvaz kimi tanıdğı Eyvaz Qurbanovdur.***

***O, 26 fevral 1952-ci ildə Keçmiş Dəvəçi rayonunun Qələgah kəndində dünyaya gəlib. Qəribədir ki, Eyvazın taleyində 40 yaş daha qlobal və acı tarixlə yadda qalıb. Belə ki, onun 40 yaşı tamam olan gün Xocalı faciəsi baş verib. Eyvazın 40 yaşından sonrakı bütün ad günləri faciə gününə təsadüf etdiyindən həmin günü qeyd etməkdən vaz keçir. O, Xocalı cammatına və əsgər yoldaşı Əlif Hacıyevin ruhuna ehtiram olaraq öz ad günü haqqında bir daha söz açmır.***

***Orta məktəbi bitirəndən sonra hərbi xidmətə yollanır. Uzun illər kənd toylarında müğənni kimi fəaliyyət göstərir. Eyvaz əməliyyat olunur və bununla da onun səs telləri zədələnir. Bu isə onun müğənni kimi fəaliyyətinin sonu demək idi. Çörək pulu qazanmaq üçün 21 il avtobus sürücüsü kimi fəaliyyət göstərir.***

***Özü barədə tez- tez "yetim uşağam" kəlməsini o qədər işlədirdi ki, hamı onu "Yetim Eyvaz" kimi çağırırdı. Məhz bu təxəllüs də ona sürücü işlədiyi vaxtlardan yadigar qalmışdı.***

***Tale onun məşhurluq çırağını bir qəribə hadisə ilə yandırır. Onun sadə bir şeiri dostunun telefonundan insanların ürəyinə köçür. Dostu Şirəlinin telefonunda "Yaz yağışı" şeiri ilə bir gecənin içində milyonların qəlbinə yol tapır.***

***Taleyi də qəribə olur. Eyvaz şeirə görə ailəsindən boşanır. Övladlarını evləndirdikdən sonra həyat yoldaşı ilə şeir üstündə mübahisə edir. Yoldaşı ondan şeirlərindəki qadının kimliyini soruşur. Dəfələrlə təkrarlanan bu hadisədən sonra Eyvaz evdən bir dəfəlik gedir.***

***Təxminən 2500-dən çox şeirləri olsa da təəssüf ki, həmin şeirlərin böyük bir hissəsi itib. Çünki müəllif şeirləri əzbər bildiyindən onları qeydə almayıb. Bu qədər çox sevilməyinə baxmayaraq, heç vaxt özünə şair deməyib. Ona şair deyənlərə də "Füzuli olan yerdə mənim özümə şair deməyim eyibdir" deməklə etiraz edib.***

***Şairin şeirlərinin qeydə alınmaması onun həvəskar yaradıcılığının demək olar ki, itməsi ilə nəticələnir. Bu gün sosial şəbəkələrdə səslənən şeirlərindən başqa onun heç bir mətni yoxdur. Onun "Yaz yağışı" kitabı nəşr olunsa da, hazırda həmin kitab da mənbə kimi qalmır. İnsanlar onun bir çox şeirlərini dinləsə də, hamı onu "Yaz yağışı" şeiri ilə daha çox sevirdi.***

***2016-cı ildə o, yenidən əməliyyat olunur. Məhz bu səbəbdən həkim ona spirtli içkini qadağan edir. Lakin Yetim Eyvaz bu vərdişi ilə mübarizə apara bilmir.***

***Səhhətində ciddi problemlər yaranan Yetim Eyvaz 23 iyul 2017-ci ildə dünyasını dəyişir.***

# Tarixin gərdişi: gah müsəlman, gah da xristian olan ölkələr

**Dünya tarixinin siyasi-dini xəritəsi heç vaxt sabit olmayıb. Orta əsrlər boyunca müsəlman imperiyalarının genişlənməsi nəticəsində bir çox regionlar islamın təsir dairəsinə düşüb. Lakin tarixin gərdişi birtərəfli getmədiyindən bəzi torpaqlar zaman keçdikcə yenidən xristian dünyasının tərkibinə qayıdıb. Bu dönüşümlər həm hərbi-siyasi mübarizənin, həm də mədəni təsirin nəticəsi idi.**



### *İspaniya və Portuqaliya: Rekonkistanın tarixi nəticəsi*

VIII əsrdə ərəblər Pireney yarımadasının böyük hissəsini ələ keçirərək Əl-Əndəlusu yaratdılar. Lakin xristian krallıqlarının ardıcıl hərbi və siyasi təzyiqi buranı Rekonkistaya çevrərək təxminən səkkiz əsrə yaxın öz tabeliyində saxladı. Sonradan XVI əsrin əvvəllərindən müsəlman hakimiyyəti tamamilə aradan qalxdı və region yenidən xristian Avropası ilə birləşdi. Portuqaliya da eyni prosesin içində formalaşaraq XIII əsrdə müsəlman hakimiyyətindən tam azad oldu.

### *Filippinlər: islamdan xristianlığa keçidin Avropa modeli*

XIV əsrdə ticarət yolları ilə adalara daxil olan islam, ispanların gəlişi ilə üstünlüyünü itirdi. İspan müstəmləkə siyasəti və missionerlik fəaliyyəti nəticəsində Filippinlərdə xristianlıq dominant dinə çevrildi. Bu gün də vəziyyət dəyişməz olaraq qalır.

### *Mozambik: Afrika sahillərində dini transformasiya*

Mozambik X əsrdə Kilva sultanatının təsiri ilə islamlaşmışdı. Lakin XVI əsrdən başlayaraq Portuqal müstəmləkə hakimiyyəti və katolik missionerliyi dini mənzərəni dəyişdi. Sonralar protestant təsir də artdı. Nəticədə Mozambik islamdan xristianlığa keçidin Afrika qitəsində ən aydın nümunələrindən birinə çevrildi.

### *Malta və Siciliya: Aralıq dənizindəki iki dalğa*

IX əsrdə ərəb hakimiyyəti Aralıq dənizinin bu adalarına yayılmışdı. Lakin XI əsrdə normanların yürüşü ilə siyasi üstünlük dəyişdi və XII əsrdə adalar yenidən xristian Avropasının nəzarətinə qayıtdı. Bu proses bölgədə dəniz ticarəti və hərbi nəzarətin dinə birbaşa təsir göstərdiyini nümayiş etdirdi.

### *Balkanlar: Osmanlı mirası və XIX əsr dönüşü*

XIV-XIX əsrlərdə Osmanlı hakimiyyəti bölgədə islamın yayılmasına səbəb olmuşdu. Lakin XIX əsrdə milli dövlətçilik hərəkatının güclənməsi ilə Serbiya, Bolqarıstan, Yunanıstan, Rumıniya və Monteneqro kimi yeni müstəqil dövlətlər meydana çıxdı. Bu dövlətlər həm siyasi suverenlik, həm də dini-mədəni identiklik baxımından yenidən xristian kimliyinə qayıtdı.

Beləliklə, bu regionların təcrübəsi göstərir ki, din dəyişiklikləri təkcə ideoloji deyil, həm də siyasi gücün, iqtisadi ələqələrin və mədəni təsirin formalaşdırdığı uzunmüddətli proseslərin nəticəsidir. Hərbi üstünlük və dövlət dəstəyi dinin yayılmasında əsas rol oynayır. Tarix dəfələrlə sübut edib ki, dini xəritə sabit olmaya bilir, yəni, güc mərkəzləri dəyişdikcə o da yenidən formalaşır.

**Murad Köhnəqala**

## Ruhəngiz Musəvi: "İkinci dəfə ailə quranda keçmiş qaynanam bizə gəlib-gedirdi"



**Əməkdar artist Ruhəngiz Musəvi ilk dəfə uğursuz evliliyindən danışıb. Adalet.az bildirir ki, o, ilk evliliyinin xəyaətə görə dağıldığını etiraf edib:**

"Mən ailə quranda qaynatamla yaşayırdıq. Çünki onlar bizdən çox illər əvvəl ayrılmışdılar. Sevib ailə qurmuşduq. Mən ora gəlin köçən kimi bütün qohumlar onlarla getgəl eləməyə başladılar. Qaynanam məni çox istəyirdi. Hətta mən ikinci dəfə ailə quranda da qaynanam bizə gəlib gedirdi. Təkcə qaynanam yox, baldızlarım da gəlib - gedirdi. Demək ki, mən pis adam olmamışam.Mən yoldaşımdan ayrıldım. O da getdi ki, Sevda Əliqızı ilə evləndi. Biz xəyanət üstündə ayrıldıq. Onu 3 dəfə bağışladım. Çox getdi- gəldi. Artıq gördüm ki, belə davam etmək olmur. Getmək istəyəni saxlamazlar. Həyatdır, hər şey baş verə bilir. Hamı bilir ki, ilk həyat yoldaşımdan özüm ayrılmışam. Ondan bir övladım da var. Qaynanam biz ayrılıq məsələmizə qarımadı. Dedi ki, oğlumla aranızda nə baş veribsə, özünüz bilərsiniz. Toylara gedəndə oğlumu özümlə aparırdım.O, həmişə mənə dayaq olub. Daha doğrusu bir həmdəm, bir dost olub."

**Əntiqə**

## Əməkdar artist: "...bu halda xəyanəti bağışlayardım"



**Əməkdar artist Gövhər Rzayeva açıqlaması ilə diqqət çəkib. Adalet.az bildirir ki, qarmon ifaçısı xəyanətə görə boşananları qınayıb:**

"Qadının boşanmağının tərəfdarı deyiləm. Çünki indi dövr çox pisdir. Qadın boşanıb daha pis əllərə düşə bilir. Bu reallıqdır. Əgər kişi qadınını və uşaqlarını maddi baxımdan hər cür təmin edirsə, qadın ondan boşanmamalıdır. Kişidir də, hara getsə, evinə gələcək. Onun son dayanacağı evidir. Qadınlar bu haqda yaxşı- yaxşı düşünməlidirlər. Ailə qurmaq çətindir, onu qouyub- saxlamaq isə ondan da çətindir. Ailənizi dağıtmayın, əziz xanımlar.

Əgər mənim həyat yoldaşım da desəydi ki, Gövhər qarmonu qoy yerə, sənə necə lazımdır baxacam. Onun heç nəyini sorğulamazdım. Xəyanətini də bağışlayardım. Yoxsa əgər, mən qazanb özümə baxıramsa, o da özü üçün yaşayırsa, onun mənim yanıma nə işi var?! Əlbəttə ailədə maddiyyat çox önəmlidir".

## Təranə Qumral: "Evində nizam-intizam yarada bilməyənlər..."



**Təranə Qumral nigahdankənar övlad dünyaya gətirənləri qınayıb.**

Adalet.az bildirir ki, müğənni belə insanların cəmiyyətdə söz sahibi olmasını düzgün hesab etməyib:

"Hər kəs efirə çıxan kimi ailə dəyərlərindən danışır. Ən dəhşətlisi də odur ki, qeyri- qanuni, başqasının həyat yoldaşından övlad dünyaya gətirənlər də bu millətə əxlaq dərsi keçir. İnanın ki, gülünc haldır. Özü cəmiyyətə doğru- dürüst övlad yetişdirə bilməyənlər başqasının ailəsini müzakirə edir. Öz evində nizam- intizam yarada bilməyənlər, cammatın balalarına ağıl verir. İnsan birinci gərək öz evinin içinə baxsın. Danışsam çox şeyləri deyəcəm. Ona görə sussam yaxşıdır".

**Əntiqə**

## Aktrisa: "Onlara zaman ayıra bilmirəm"

**Aktrisa Oksana Rəsulova illərdir görə bilmədiyi sənət dostlarından danışıb.**

Adalet.az bildirir ki, o, İlhamə Qasımova, Natəvan Həbibi ilə görüşmədiyini söyləyib:

"Bizim İlhamə ilə neçə illik dostluğumuz var. Hətta eyni tamaşada iştirak etmişik. Ancaq görüşə bilmirik. Heç cür vaxt təyin edib görə bilmirik. Biz ancaq ya səhnədə, ya hər hansı bir tədbirdə görüşürük. Ancaq özümüz üçün xüsusi bir vaxt ayırıb görüşmürük. Buna zamanımız yoxdur.

Nigar Camalla da eyni vəziyyəti yaşayırıq. Onun da çox layihələri var. Bir- birimizə ayırmağa zamanımız qalmır.

Natəvan Həbibini isə lap çoxdandır görmürəm. Övladı dünyaya gələndən onu görməmişəm.

Dostlarımı unutmuram, sadəcə onlara zaman ayıra bilmirəm".

**Əntiqə**

---

Aqil Abbas **Qurban Sadıqova** anası
**Nabat xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə baş sağlığı verir.

---

Nəbi Muxtarov **Qurban Sadıqova** anası
**Nabat xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə baş sağlığı verir.

---

Aslan Mehdiyev **Qurban Sadıqova** anası
**Nabat xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə baş sağlığı verir.

---

Əbülfət Mədətoğlu **Qurban Sadıqova** anası
**Nabat xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə baş sağlığı verir.

---

Bakı Xoreoqrafiya Akademiyasının rəhbərliyi və kollektivi Bakı Xoreoqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsinin müəllimi **Aygül Qurbanovaya** atası yazıçı-publisist,
**İlqar Quliyevin**
vəfatından kədərləndiklərini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə baş sağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS
**Baş redaktor:** İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 257
Çapa imzalanmışdır: 04.12.2025